# DİPLOMATİYA ALƏMİ

AZƏRBAYCAN RESPUBLİKASI

XARİCİ İŞLƏR NAZİRLİYİNİN

JURNALI

№ 3, 2003

---

## ***Redaksiya Şurası***

| | |
|---|---|
| 1. Vilayət Quliyev | Nazir (Baş redaktor) |
| 2. Novruz Məmmədov | Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının Xarici əlaqələr şöbəsinin müdiri (Baş redaktorun birinci müavini) |
| 3. Araz Əzimov | Nazir müavini |
| 4. Xələf Xələfov | Nazir müavini |
| 5. Mahmud Məmmədquliyev | Nazir müavini |
| 6. İlqar Məmmədov | Xarici siyasətin planlaşdırılması və strateji araşdırmalar idarəsinin (Mərkəz) rəisi (Baş redaktorun müavini) |
| 7. Qabil Köçərli | Mətbuat və informasiya idarəsinin rəisi |

## ***Redaksiya heyəti***


| | |
|---|---|
| 1. Aliyə Ağazadə | Xarici siyasətin planlaşdırılması və strateji araşdırmalar idarəsinin (Mərkəz) III katibi (məsul katib) |
| 2. Mütəllim Əlimərdanov | İnformatika şöbəsinin aparıcı mütəxəssisi |
| 3. Ceyhun Musayev | Mətbuat və informasiya idarəsinin attaşesi |
| 4. Ramil Əkbərov | Mətbuat və informasiya idarəsinin attaşesi |
| 5. Elçin Hüseyinli | Xarici siyasətin planlaşdırılması və strateji araşdırmalar idarəsinin (Mərkəz) referenti |


---

Jurnal üç aydan bir nəşr edilir. Xarici siyasət və diplomatiyaya aid olan sənədləri, fotoşəkilləri və ya məqalələrini jurnalda çap etdirmək istəyənlər XİN-ə müraciət edə bilərlər. Qeyri-dəqiq faktlara görə məqalələrin müəllifləri məsuliyyət daşıyırlar. Müəlliflər məqalələrin elektron (disket və ya elektron poçt vasitəsilə) və çap variantı ilə yanaşı, 5X6 ölçsüsündə fotoşəkil və müəllifin qısa tərcüməyi-halını, ünvan və telefonlarını təqdim edirlər. Jurnala qəbul edilən məqalələrə olan tələblər:

Həcm: 10 səhifəyə qədər

Dil: Azərbaycan, rus və ya ingilis

Şrift: Azərbaycan dilində: Times Roman AzLat; rus və ingilis dillərində: Times New Roman

Şriftin ölçüsü: 12

İnterval: 1,5

İstifadə edilmiş ədəbiyyata və ya digər nəşrlərdən sitatlar gətirəndə həmin ədəbiyyata istinad vacibdir.

İstinadlar qeyd vasitəsilə hər səhifədə yeni nömrə ilə səhifənin aşağısında xətt altında verilir. Qeydlərdə müəllifin tam adı və familiyası, əsərin adı, nəşr olunan şəhərin və nəşriyyatın adı, nəşrin tarixi və sitat gətirilən səhifə göstərilir. İnternet vasitəsilə əldə edilmiş mənbələrin web site ünvanları tam və tarixi ilə verilir. Əlyazmalar və disketlər qaytarılmır. Məqalələr redaktə və ixtisar edilə bilər.

Ünvan: Xarici İşlər Nazirliyi, Xarici siyasətin planlaşdırılması və strateji araşdırmalar idarəsi (Mərkəz),Ş.Qurbanov küç. 4, Bakı 370009; Tel. 92 73 28; 92 80 35.

e-poçt: i_mammadov@mfa.gov.az

Jurnalın satışı, nəşri və ya digər texniki məsələlər: Tel. 92 80 92, Fəxrəddin Şükürov

# Mündəricat

## Rəsmi xronika

*Azərbaycan Respublikasının Prezidenti H.Əliyevin diplomatik fəaliyyəti*

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin görüşləri

*Azərbaycan Respublikasının Xarici İşlər Naziri V.Quliyevin diplomatik fəaliyyəti*

Azərbaycan Respublikasının Xarici İşlər Naziri Vilayət Quliyevin İranın Xarici İşlər Naziri Kamal Xərrazinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşü

Azərbaycan Respublikasının Xarici İşlər Naziri Vilayət Quliyevin BMT-nin Baş Katibi Kofi Annana və Təhlükəsizlik Şurasının sədri Munir Əkrəmə məktubuna dair

Azərbaycan Respublikasının Xarici İşlər Naziri Vilayət Quliyevin Rumıniyaya rəsmi səfəri

Azərbaycan Respublikasının Xarici İşlər Naziri Vilayət Quliyevin İspaniyaya rəsmi səfəri

Azərbaycan Respublikasının Xarici İşlər Naziri Vilayət Quliyevin digər görüşləri

## Çıxışlar

Azərbaycan Respublikasının Xarici İşlər Naziri V.Quliyevin «Narkotranzit: Mərkəzi Asiyadan Avropaya» mövzusunda keçirilmiş konfransda çıxışı

Azərbaycan Respublikasının Xarici İşlər Naziri V.Quliyevin Avro-Atlantika Tərəfdaşlıq Şurasının görüşündə Bəyanatı

## Rəsmi məlumat

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Mətbuat Mərkəzi xəbər verir

NATO-nun Baş Katibi Corc Robertsonun Azərbaycan Respublikasına səfəri

Azərbaycan Respublikası ilə Haiti Respublikası arasında diplomatik əlaqə yaradılmasına dair kommünike imzalanmışdır

Azərbaycan Respublikasıi ilə Sent Vinsent və Qrinadins hökuməti arasında diplomatik əlaqə yaradılmışdır

## Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 80 illik yubileyi

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 80 illik yübileyi ilə əlaqədar Azərbaycan Respublikasının Xarici İşlər Naziri Vilayət Quliyevin təbrik məktubu

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 80 illik yubileyi münasibətilə təbrik məktubları alınmış dövlətlərin siyahısı

**Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 85 illiyi**

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 85 illiyi münasibətilə Azərbaycan xalqına Müraciəti

Azərbaycan Xalq Cümhuriyyəti ilə Osmanlı hökuməti arasında dostluq müqaviləsi

V.Quliyev. Şərqdə ilk respublika

**Azərbaycanda Qurtuluş gününün 10-cu ildönümü**

Qurtuluş Gününün 10 illiyinə həsr olunmuş təntənəli yubiley gecəsi

Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri Zati-Aliləri cənab Heydər Əliyevə ünvanlanmış müraciət

N.Məmmədov. Prezident Əliyevin xarici siyasət kursu Azərbaycanın təhlükəsiz, davamlı və dinamik inkişafının qarantıdır

**Azərbaycan Respublikasının Silahlı qüvvələrinin 85-ci ildönümü**

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Azərbaycan Respublikası silahlı qüvvələrinin şəxsi heyətinə təbriki

Azərbaycan silahlı qüvvələri şəxsi heyətinin Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan Heydər Əliyevə müraciəti

Azərbaycan Respublikasının Müdafiə Naziri general-polkovnik Səfər Əbiyevin Silahlı Qüvvələrin yaradılmasının 85-ci ildönümünə həsr edilmiş təntənəli mərasimdə çıxışı

**Məqalələr**

Ramiz Abutalıbov. Fransada ilk Azərbaycan diplomatik nümayəndəliyinin informasiya və nəsr sahəsindəki fəaliyyəti

Xələf Xələfov. **İnsan hüquq və əsas azadlıqlarının müdafiəsi və beynəlxalq terrorizmlə mübarizənin Azərbaycan Respublikasının dövlət siyasətində yeri**

Elmar Məmmədov. Azərbaycanın Ümumdünya Ticarət Təşkilatına üzv olması: problemlər və perspektivlər

Айпара Рустамова. Библиоцид против Азербайджана как составная часть всеобъемлющей армянской агрессии

## Xarici nəşrlər

Zbigniew Brzezinski. The Caucasus and new geo-political realities. How the West can support the region

Brenda Shaffer. One conflict that can be solved

## Ermənistan–Azərbaycan münaqişəsi beynəlxalq təşkilatlarda

*Avropa Şurası tərəfindən qəbul edilmiş qərarlar*

Avropa Şurası. Nazirlər Kabineti. Dağlıq Qarabağa dair Bəyannamə. 11.03.1992

Avropa Şurası. Nazirlər Kabineti. Dağlıq Qarabağ münaqişəsinin gərginləşməsinə dair Bəyannamə. 15.04.1993

Avropa Şurası. Nazirlər Kabineti. Kommünike. «Avropa Şurası Cənub-Şərqi Avropa və Qafqaza dair fəaliyyətini artırır». 9.11.2000

Avropa Şurası. Parlament Assambleyası. Dağlıq Qarabağ münaqişəsinə dair Qətnamə 1047 (1994)

Avropa Şurası. Parlament Assambleyası. Dağlıq Qarabağ münaqişəsinə dair Tövsiyə 1251 (1994)

Avropa Şurası. Parlament Assambleyası. Ermənistan və Azərbaycanda qaçqın və məcburi köçkünlərin humanitar vəziyyətinə dair Qətnamə 1059 (1995)

Avropa Şurası. Parlament Assambleyası. Ermənistan və Azərbaycanda qaçqın və mücburi köçkünlərin humanitar vəziyyətinə dair Tövsiyə 1263 (1995)

Avropa Şurası. Parlament Assambleyası. Zaqafqaziyada münaqişələrə dair Qətnamə 1119 (1997)

## Arxiv sənədləri

*Azərbaycan Xalq Cümhuriyyəti və Millətlər Cəmiyyəti*

Millətlər Cəmiyyəti. Azərbaycanın Millətlər Cəmiyyətinə qəbulu. Baş Katib tərəfindən Memorandum. Assambleya sənədi 206

Azərbaycan Respublikasına daxil olma və viza rəsmiləşdirilməsi qaydaları

Binə hava limanından istifadə qaydaları

# RƏSMİ XRONİKA



**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN 2003-CÜ İL APREL-İYUN AYLARI ƏRZİNDƏ DİPLOMATİK FƏALİYYƏTİ**

***Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin görüşləri***

2 aprel – MDB Yəhudi İcmaları Federasiyasının prezidenti, İsrail-Rusiya Kommersiya-Ticarət Palatasının prezidenti Lev Levayev başda olmaqla, bir sıra yəhudi təşkilatlarının nümayəndə heyəti ilə görüş

9 aprel – Amerika Birləşmiş Ştatlarının Azərbaycandakı Fövqəladə və Səlahiyyətli səfiri Ross Uilson ilə görüş

10 aprel – Çin Xalq Respublikası Xarici işlər nazirinin müavini Lyu Quçan başda olmaqla nümayəndə heyəti ilə görüş

11 aprel – Amerika Birləşmiş Ştatlarının Azərbaycandakı Fövqəladə və Səlahiyyətli səfiri Ross Uilson, Gürcüstandakı səfiri Riçard Mayls, Ermənistandakı səfiri Con Orduey və onları müşayiət edən nümayəndə heyəti ilə görüş

11 aprel – Yunanıstan Xarici işlər nazirinin müavini Andreas Loverdosun başçılıq etdiyi nümayəndə heyəti ilə görüş

15 aprel – Avropa Şurası Parlament Assambleyasının Siyasi Məsələlər Komitəsinin Ermənistan-Azərbaycan münaqişəsi üzrə məruzəçisi Terri Devisin başçılıq etdiyi nümayəndə heyəti ilə görüş

17 aprel – Rum Patriarxı I Varfolomey və onu müşayiət edən nümayəndə heyəti ilə görüş

18 aprel – Keçid dövrü demokratiyaları layihəsinin rəhbəri, ABŞ-ın NATO Komitəsinin həmsədri Brüs Cekson ilə görüş

22 aprel – ABŞ-ın Azərbaycandakı Fövqəladə və Səlahiyyətli səfiri Ross Uilson ilə görüş

28 aprel – İran İslam Respublikasının Xarici işlər naziri Kamal Xərrazinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüş

30 aprel – Ukraynanın Azərbaycandakı Fövqəladə və Səlahiyyətli səfiri Boris Aleksenko ilə görüş

23 may – Türkiyənin Azərbaycandakı Fövqəladə və Səlahiyyətli səfiri Əhməd Ünal Çeviköz ilə görüş

26 may – Bi-Pi şirkətinin prezidenti lord Con Braun ilə görüş

29 may – Açıq Cəmiyyət İnstitutu – Soros Fondunun təsisçisi və idarə heyətinin sədri Corc Soros ilə görüş

30 may – Rusiya Federasiyasının ölkəmizdəki Fövqəladə və Səlahiyyətli səfiri Nikolay Ryabov ilə görüş

3 iyun – Türkiyə Respublikası Jandarm Qüvvələrinin baş komandanı, ordu generalı, M.Şener Eruyqur ilə görüş

3 iyun – Böyük Britaniyanın energetika və sənaye naziri Brayan Vilson ilə görüş

4 iyun – ABŞ Dövlət Departamentinin Xəzər enerji diplomatiyası üzrə müşaviri Stiven Mənn ilə görüş

4 iyun – Səudiyyə Ərəbistanı Krallığının neft və mineral sərvətlər naziri Əli bin İbrahim Ən-Nəimi ilə görüş

7 iyun – Səudiyyə Ərəbistanı Krallığının Şura Məclisinin sədri Saleh bin Abdulla Hümeydin başçılıq etdiyi nümayəndə heyəti ilə görüş

11 iyun – Türkiyə Respublikasının Səhiyyə naziri Rəcəb Akdağ ilə görüş

14 iyun – Amerika Birləşmiş Ştatlarının Bakıdakı səfiri Ross Uilson ilə görüş

18 iyun – Yunanıstanın Xarici işlər nazirinin müavini İoannis Maqriotis ilə görüş

27 iyun – Kiyev vilayəti administrasiyasının sədri Anatoli Zasuxanın başçılıq etdiyi nümayəndə heyəti ilə görüş.



# AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ VİLAYƏT QULİYEVİN 2003-CÜ İL APREL-İYUN AYLARI ƏRZİNDƏ DİPLOMATİK FƏALİYYƏTİ

## Azərbaycan Respublikasının Xarici İşlər Naziri Vilayət Quliyevin İranın Xarici işlər naziri Kamal Xərrazinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşü

Aprelin 28-də Azərbaycan Respublikasının Xarici işlər naziri Vilayət Quliyev İranın Xarici işlər naziri Kamal Xərrazinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Qonaqları səmimi salamlayan Vilayət Quliyev ölkələrimiz arasında sıx əlaqələrin olduğunu xatırlatmış, qarşılıqlı səfərlərin bu əlaqələrin inkişafındakı əhəmiyyətini vurğulamışdır. Son illərdə bütün sahələrdə əlaqələrin yüksələn xətlə inkişaf etdiyini, gələcək əməkdaşlıq üçün gözəl zəmin yarandığını söyləyən nazir demişdir ki, Azərbaycan Prezidenti Heydər Əliyevin ötən ilin mayında Tehrana səfəri ikitərəfli münasibətlərin inkişafında yeni mərhələ açmışdır. İndi isə biz Azərbaycanda İran Prezidenti Məhəmməd Xatəminin səfərini səbirsizliklə gözləyirik. V.Quliyev bildirmişdir ki, İran regionda sülhün qorunmasında və iqtisadi inkişafda mühüm rol oynayır. Ona görə də Azərbaycan tərəfi bu cür səfərlərə böyük əhəmiyyət verir.

Səmimi qəbul üçün təşəkkürünü bildirən Kamal Xərrazi demişdir ki, eyni dinə malik olan ölkələrimizin əməkdaşlıq üçün geniş imkanları var və regionun inkişafı üçün birlikdə çox işlər görə bilərik. Bunun üçün hər iki ölkədə yaranmış sabitlik əsas şərtdir ki, buna da nail olunmuşdur. Prezident Heydər Əliyevin Tehrana axırıncı səfərindən sonra yaranmış imkanlardan istifadə olunmaqla qarşılıqlı əlaqələri inkişaf etdirmək çox vacibdir və İran tərəfi buna səy göstərir.

İran prezidentinin Azərbaycana qarşıdakı səfərini xatırladan cənab Xərrazi bildirmişdir ki, Bakıya gəlməsinin məqsədlərindən biri də həmin səfərə hazırlıqdır.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər də müzakirə olunmuşdur.

Azərbaycanın Tehrandakı səfiri Abbasəli Həsənov, İranın Bakıdakı səfiri Əhəd Qəzai görüşdə iştirak etmişlər.

«AZƏRTAC», 28.04.03

## Azərbaycan Respublikasının Xarici İşlər Naziri Vilayət Quliyevin BMT-nin Baş katibi Kofi Annana və Təhlükəsizlik Şurasının sədri Munir Əkrəmə məktubuna dair

Xarici işlər naziri Vilayət Quliyev BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə Ermənistanın on ildən bəri əməl etməməsi və ərazilərimizi işğal altında saxlaması ilə bağlı BMT-nin Baş Katibi Kofi Annana və Təhlükəsizlik Şurasının sədri Munir Əkrəmə məktub göndərmişdir. Azərbaycan Respublikasının BMT-dəki daimi nümayəndəliyi həmin məktubu Təhlükəsizlik Şurasının rəsmi sənədi kimi BMT-nin üzvü olan dövlətlərin nümayəndə heyətləri arasında da yaymışdır.

Məktubda deyilir ki, bu mürəkkəb dövrdə, beynəlxalq birlik dünyaya qarşı təhdidlərlə və təhlükə ilə fəal və güzəştsiz mübarizə apardığı bir vaxtda mən sizə Azərbaycan Respublikası ərazisinin beşdə bir hissəsinin işğalına gətirib çıxaran Ermənistanın təcavüzü ilə əlaqədar ağrı və iztirablar çəkməkdə davam edən xalqımız adından müraciət edirəm. Ermənistanın Azərbaycan torpaqlarını işğalı və bunun etnik təmizləmə ilə müşayiət edilməsi 20 000 insanın həlak olması və bir milyon azərbaycanlının öz torpaqlarından zorla çıxarılması ilə nəticələnmişdir.

Nazir xatırladır ki, Ermənistanın Azərbaycan ərazilərini işğalı ilə əlaqədar 1993-cü ildə Təhlükəsizlik Şurası dörd qətnamə qəbul etmiş, Dağlıq Qarabağın Azərbaycan Respublikasının bir hissəsi olduğunu təsdiqləyərək, Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə, onun beynəlxalq aləmdə tanınmış sərhədlərinə hörmət etməyə və ərazi ələ keçirmək üçün güc tətbiq olunmasına yol verməməyə qətiyyətlə çağırmışdır. Eyni zamanda, bütün işğalçı qüvvələrin Azərbaycanın qəsb olunmuş bütün rayonlarından dərhal və qeyd-şərtsiz çıxarılmasını və məcburi köçkünlərin öz daimi yaşayış yerlərinə qaytarılmasını tələb etmişdir. Ermənistanın təcavüzü nəticəsində yaranmış fövqəladə humanitar vəziyyətlə əlaqədar Baş Məclis 1993-cü il dekabrın 20-də “Azərbaycandakı qaçqınlara və köçkün şəxslərə fövqəladə beynəlxalq yardım” adlı qətnamə qəbul etmişdir.

Üstündən on il keçməsinə baxmayaraq, Təhlükəsizlik Şurasının qətnamələrindən heç birini Ermənistanın yerinə yetirmədiyini xüsusi vurğulayan nazir Vilayət Quluyev yazır: “Belə olan halda, biz Təhlükəsizlik Şurasının mövqeyini və vasitəçilərin ötən 10 ildəki fəaliyyətini necə qiymətləndirə bilərik? Birləşmiş Millətlər Təşkilatının nüfuzunun möhkəmlənməsindən, beynəlxalq hüququn qüvvəsinə inamdan və münaqişənin dincliklə nizama salınmasının mümkünlüyündən necə danışmaq olar? Mən çox dərin təəssüf hissi ilə bildirirəm ki, Təhlükəsizlik Şurası bu problemi unutmuşdur. Biz işğala və etnik təmizləmələrə göz yumaraq, təcavüzkara cəzasız qalmağa və beləliklə də, qanuna zidd əməllər törətməyi davam etdirməyə imkan veririk. Təcavüzkar Ermənistan Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionu barəsində öz ərazi iddialarını həyata keçirməyə və münaqişənin olmuş-bitmiş fakt əsasında məcburən həllinə nail olmağa çalışır. Belə vəziyyət Azərbaycan üçün qətiyyən məqbul deyildir.

Məktubda daha sonra deyilir ki, Təhlükəsizlik Şurası öz səlahiyyətlərindən istifadə etməli və Ermənistanı öz işğalçı qüvvələrini ölkəmizin ərazilərindən qeyd-şərtsiz, dərhal və tamamilə çıxarmağa məcbur etməli, beləliklə də, Azərbaycan Respublikasının tərkibində Dağlıq Qarabağın statusunu beynəlxalq hüququn prinsip və normaları əsasında müəyyənləşdirməkdən ötrü bu bölgənin erməni icması ilə danışıqlara başlamaq üçün şərait yaratmalıdır.

«AZƏRTAC», 14.05.03

---

**Azərbaycan Respublikasının Xarici İşlər Naziri Vilayət Quliyevin Rumıniyaya rəsmi səfəri**

Rumıniyanın Xarici işlər naziri c-b Mirçea Dan Ceoananın dəvəti ilə bu ölkədə rəsmi səfərdə olan Azərbaycan Respublikasının Xarici işlər naziri c-b Vilayət Quliyev 28 may tarixində Azərbaycan Respublikasının Rumıniyadakı Səfirliyi tərəfindən təşkil olunmuş və Respublika Gününə həsr edilmiş tədbirdə iştirak etmişdir. Elə həmin gün Azərbaycan Respublikasının Rumıniyadakı Səfirliyi və Rumıniya-Azərbaycan Dostluq Cəmiyyətinin təşəbbüsü ilə Buxarest Universitetinin professoru cənab Nevzat Yusif tərəfindən rumın dilinə tərcümə olunmuş «Dədə Qorqud» kitabının təqdimetmə mərasimi keçirilmişdir.

Geniştərkibli tədbirdə Rumıniyanın Xarici işlər naziri c-b Mirçea Dan Ceoana iştirak etmişdir. Rumıniya ilə Azərbaycan arasında mədəni əlaqələrin inkişafına göstərdikləri qayğıya və verdikləri töhfələrə görə Rumıniya-Azərbaycan Dostluq Cəmiyyəti tərəfindən Azərbaycan Respublikasının Prezidenti c-b Heydər Əliyev və Rumıniya Prezidenti c-b İon İliyesku Fəxri Diplomlarla təltif olunmuşlar. Eyni zamanda bu sahənin inkişafında xidmətlərinə görə hər iki ölkənin Xarici işlər nazirlərinə Fəxri Diplomlar təqdim olunmuşdur. Türk dünyasının qədim qəhrəmanlıq salnaməsi «Dədə Qorqud» kitabının müəllifi c-b Nevzat Yusif və Azərbaycanın zəngin mədəniyyətinə, incəsənətinə, tarixinə, cənab Heydər Əliyevin siyasi həyat və fəaliyyətinə, müstəqil Azərbaycanın həyata keçirdiyi uğurlu daxili və xarici siyasətə, əldə olunan nailiyyətlərə, beynəlxalq aləmdə ölkəmizin nüfuzunun artmasına, Azərbaycan-Rumıniya dostluq-əməkdaşlıq münasibətlərinin inkişafına həsr olunmuş ingilis dilinə tərcümə olunmuş Azərbaycanın dirçəlişi kitabının müəllifi c-b Minodor Mitrika da müvafiq diplomlara layiq görülmüşlər. Tədbirdə Azərbaycan Respublikasının Rumıniyadakı Fövqəladə və Səlahiyyətli səfiri cənab Eldar Həsənov, «Dədə Qorqud» kitabının müəllifi, türk irsinin görkəmli tədqiqatçısı, tanınmış qorqudşünas professor Nevzat Yusif, Rumıniya-Azərbaycan Dostluq Cəmiyyətinin rəhbərliyi adından Buxarest Universitetinin professoru sənab Dimutru Balan, Rumıniya Parlamentinin üzvü cənab Necat Sali, Türkiyə-Rumıniya Ticarət və Sənaye Palatasının Sədri cənab Tamer Atalay, Türk Yatırımçılar Birliyinin başkanı cənab Bəkir Ünal və Türk iş Adamları Dərnəyinin başkanı cənab İsmət Bayandur Respublika Günü münasibəti ilə təbrik nitqləri söyləmiş, yeni çapdan çıxmış kitab haqqında

fikirlərini bölüşdürmüşlər. Tədbirin sonunda c-b Vilayət Quliyev çıxış edərək, mərasim iştirakçılarını Respublika günü münasibəti ilə təbrik etmiş, Rumıniya-Azərbaycan Dostluq Cəmiyyətinə minnətdarlığını bildirmiş, «Dədə Qorqud» kitabının rumın dilinə tərcümə olunmasını ikitərəfli mədəni əlaqələr tarixində əlamətdar bir nailiyyət adlandırmışdır.

Tədbir Azərbaycan mədəniyyətinin, muğam xalq musiqisinin görkəmli nümayəndələri, xalq artistləri c-b Arif Babayev və Mələkxanım Eyyubovanın ifasında konsert proqramı ilə davam etmişdir.

Elə həmin gün c-b Vilayət Quliyev Rumıniya Kütləvi İnformasiya Vasitələri üçün mətbuat konfransı keçirmiş və Rumıniya-Azərbaycan Dostluq Cəmiyyətinin ofisində Rumıniyadakı Azərbaycan diasporasınun nümayəndələri və Rumıniyada təhsil alan Azərbaycanlı tələbələrlə görüşmüşdür. Görüş çox səmimi şəraitdə keçmişdir. Xarici işlər naziri diaspora nümayəndələrinə müvafiq tövsiyələr verərək, fəaliyyətlərinə görə onlara minnətdarlığını bildirmiş və gələcək işlərində yeni nailiyyətlər arzulamışdır.

Mayın 29-da Xarici işlər naziri Vilayət Quliyev Rumıniyalı həmkarı c-b Mirçea Ceoana ilə görüş keçirmişdir. Görüşdə bir sıra qarşılıqlı maraq kəsb edən məsələlər, siyasi, iqtisadi, mədəni əlaqələrin inkişafı ilə bağlı geniş müzakirələr və fikir mübadiləsi aparılmış, hər iki ölkənin iştirak etdiyi təhlükəsizlik sistemi yaradılmasının zəruriliyi qeyd olunmuşdur. C-b Vilayət Quliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə münasibətdə Rumıniya hökumətinin qəti, birmənalı və obyektiv mövqeyinə görə təşəkkürünü bildirmiş, bu cür dəstəyin qarşılıqlı zəmində həmişə olacağına əminliyini diqqətə çatdırmışdır. Ermənistan Respublikasının BMT Təhlükəsizlik Şurasının qətnamələrinə, digər nüfuzlu təşkilatların müvafiq bəyanat və sənədlərinə məhəl qoymamasını nəinki Azərbaycan Respublikasının ərazi bütövlüyünə, eyni zamanda beynəlxalq hüququn norma və prinsiplərinə açıq hörmətsizlik kimi qiymətləndirilmişdir. C-b Mirçea Ceoana c-b Vilayət Quliyevin Rumıniyaya səfərinin ikitərəfli dostluq-əməkdaşlıq münasibətlərinin inkişafı üçün mühüm əhəmiyyət kəsb etdiyini bildirmişdir. Görüşdən sonra Xarici İşlər Nazirləri mətbuat konfransı keçirmişlər.

Həmin gün cənab Vilayət Quliyev Rumınya Daxili İşlər Nazirinin müavini cənab Aleksandru Farkaş (eyni zamanda baş ofisi Buxarest şəhərində yerləşən Cənub-Şərqi Avropada Əməkdaşlıq Təşəbbüsü Təşkilatı (SECI) Birgə Əməkdaşlıq Komitəsinin sədri) və Cənub-Şərqi Avropada Əməkdaşlıq Təşəbbüsü Təşkilatının Transsərhəd cinayətkarlığa qarşı mübarizə mərkəzinin direktoru cənab Yalçın Çakıcı ilə görüşmüşdür. Görüş SECI-nin trans-sərhəd cinayətkardığa qarşı mübarizə mərkəzinin binasında keçirilmişdir. C-b Vilayət Quliyev terrorizm, narkotiklərin qeyri-qanuni dövriyyəsi, mütəşəkkil cinayətkarlığa qarşı mübarizədə eyni cəbhədə vuruşan Azərbaycan Respublikası, Avropanın bir sıra ölkələri, o cümlədən də Rumıniyanın bu məqsədlə bütün sahələrdə əməkdaşlığı inkişaf etdirməli olduğunu bildirmişdir.

C-b Vilayət Quliyev Azərbaycan Respublikası SECİ Təşkilatına müşahidəçi statusu ilə qəbul edilərkən Rumıniyanın tam dəstəyinə görə minnətdarlığını bildirmişdir. Eyni zamanda c-b A.Farkaş və c-b Y.Çakıcı

SECİ Təşkilatının Azərbaycanla əməkdaşlığın inkişafında maraqlı olduğunu qeyd edərək, həm ikitərəfli, həm də təşkilat çərçivəsində çoxtərəfli münasibətlərin daha da intensivləşəcəyinə ümid etdiklərini vurğulamışlar.

Daha sonra c-b Vilayət Quliyev Rumıniya Senatının Sədri Nikolae Vakarou və Rumıniyanın Avropa Şurasındakı parlament nümayəndə heyətinin rəhbəri, Rumıniya Senatının Xarici Siyasət üzrə Komissiyasının sədri cənab Georqi Prisekaru ilə görüş keçirmişdir. Görüş zamanı bir sıra mühüm məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır. C-b Vilayət Quliyev ötən il «erməni soyqırımı» məsələsinin Rumıniya Parlamentinə çıxarılmasına cəhd göstərilərkən Rumıniya Senatının tutduğu obyektiv və ədalətli mövqeyə görə minnətdarlıq bildirmişdir. Eyni zamanda c-b Prisekaru Avropa Şurası çərçivəsində Azərbaycan nümayəndə heyəti ilə sıx əməkdaşlıq münasibətlərində olduğunu vurğulayaraq, onların işgüzar fəaliyyətindən razılığını diqqətə çatdırmışdır. Həmçinin iki ölkənin Parlament nümayəndələri arasında qarşılıqlı səfərlərin keçirilməsinin zəruriliyi qeyd olunmuşdur. C-b Nikolae Vakarou Rumıniyanın Baş Naziri c-b Andrian Nastase, Rumıniya Senatı və Parlamenti tərəfindən Azərbaycan Respublikası Milli Məclisinin millət vəkili, Azərbaycan Respublikasının Avropa Şurasındakı parlament nümayəndə heyətinin rəhbəri c-b İlham Əliyevin Rumıniyaya rəsmi səfərə dəvət edildiyini və səfərin həyata keçirilməsini gözlədiklərini diqqətə çatdırmışdır. C-b Vilayət Quliyev bu səfərin gündəlikdə olduğunu bildirmişdir.

Həmin gün Rumıniya Prezidenti Zati-Aliləri c-b İon İliyesku c-b Vilayət Quliyevi qəbul etmişdir. Rumıniya Prezidenti Azərbaycan Respublikası Xarici işlər nazirinin səfərinin ikitərəfli dostluq-əməkdaşlıq münasibətlərinin inkişafı üçün çox mühüm olduğunu vurğulamış, 2002-ci ilin 29-30 oktyabr tarixlərində Azəbaycan Respublikasına rəsmi səfərini məmnunluqla xatırlamışdır. C-b V. Quliyev Azərbaycan Respublikasının Prezidenti Zati-Aliləri Heydər Əliyevin salamlarını Zati-Aliləri İon İliyeskuya çatdırdıqdan sonra, Rumıniya Prezidentinin ölkəmizə səfərini mövcud sıx əməkdaşlığın daha da möhkəmləndirilməsi və dərinləşdirilməsi istiqamətində mühüm bir mərhələ kimi qiymətləndirmiş, Rumıniyanın Azərbaycana daimi dəstəyinə görə minnətdarlıq bildirmiş və bunun qarşılıqlı xarakter daşıdığını əminliklə qeyd etmişdir. Görüş zamanı Rumıniya ilə Azərbaycan arasında münasibətlərin genişləndirilməsi məqsədi daşıyan bir sıra mühüm əhəmiyyətli məsələlər barədə müzakirələr aparılmışdır. Eyni zamanda c-b İon İliyesku c-b Heydər Əliyevin ölkədəki və ümumilikdə regiondakı sabitliyin qorunmasında xidmətlərini yüksək qiymətləndirərək, qarşılıqlı salamlarının və xoş arzularının çatdırılmasını xahiş etmişdir. Görüşdən sonra mətbuata bəyanat verilmişdir.

Axşam xarici işlər naziri Mirçea Ceoana azərbaycanlı həmkarı Vilayət Quliyevin şərəfinə ziyafət vermişdir.

Mayın 30-da V.Quliyev Rumıniyanın Baş naziri Adrian Nestasye ilə görüşmüşdür. Görüşdə ikitərəfli və beynəlxalq əməkdaşlığın bir sıra aktual məsələlərinə dair fikir mübadiləsi aparılmışdır.

Azərbaycana münasibətdə həmişə həmrəylik mövqeyi nümayiş etdirən Rumıniyanın NATO, Beynəlxalq Valyuta Fondu kimi beynəlxalq strukturlarla münasibətlərin, Avropa Birliyinə inteqrasiya sahəsindəki təcrübəsinin Azərbaycan üçün maraqlı olduğunu vurğulayan V.Quliyev ölkələrimiz arasındakı dostluq

əlaqələrinin bundan sonra da inkişaf edəcəyinə əminliyini bildirmişdir. Nazir V.Quliyev Rumıniyanın qardaş Türkiyə Respublikasından sonra ikinci dövlət olaraq Azərbaycanın müstəqilliyini tanıyarkən Adrian Nestasyenin xarici işlər naziri işlədiyini məmnunluqla qeyd etmişdir.

Baş nazir A.Nestasye bunu öz tərcümeyi-halında şərəfli anlardan biri hesab etdiyini vurğulayaraq, həmin dövrdə bir sıra ölkələrin bu məsələyə tərəddüdlə yanaşdığı halda, Rumıniyanın düzgün mövqe tutduğunu tarixin sonradan təsdiqlədiyini bildirmişdir. NATO və Avropa Birliyinə inteqrasiya istiqamətində bu ilin Rumıniya üçün həlledici il olduğunu qeyd edən Baş nazir ilin sonlarında Orta Asiya, Qafqaz və Xəzər dənizi regionu ölkələrinə səfər etmək niyyətində olduğunu demişdir. İki ölkə arasında siyasi, elmi və mədəni əlaqələrin yüksək səviyyədə olduğundan məmnunluğunu diqqətə çatdıran A.Nestasye iqtisadi münasibətlərin də bu səviyyəyə qaldırılmasını arzulamışdır. Eyni zamanda, A.Nestasye Azərbaycanın Avropa Şurasındakı parlament nümayəndə heyətinin rəhbəri, AŞPA sədrinin müavini və Büro üzvü, Milli Məclisin deputatı, ARDNŞ-in birinci vitse-prezidenti İlham Əliyevi şəxsən Rumıniyaya rəsmi səfərə dəvət etdiyini xatırladaraq, bu səfərin baş tutmasını səbirsizliklə gözlədiklərini və onun tezliklə reallaşacağına ümid etdiyini bildirmişdir.

Daha sonra V.Quliyev Rumıniya Deputatlar Palatasının sədri Valeri Domeanu ilə görüşmüşdür. Görüşdə parlamentlərarası əməkdaşlıq məsələləri müzakirə olunmuşdur. V.Domeanu salamlarının və xoş arzularının Milli Məclisin sədri M.Ələsgərova çatdırılmasını xahiş etmişdir.

Elə həmin gün Azərbaycanın xarici işlər naziri V.Quliyev Rumıniyanın İctimai İşlər, Nəqliyyat və Ev-Tikinti naziri, Azərbaycan hökuməti ilə Rumıniya hökuməti arasında ticarət-iqtisadi əlaqələr və elmi-texniki əməkdaşlıq üzrə Müştərək Komissiyanın həmsədri Miron Mitrea ilə görüşmüşdür.

Görüşdə ikitərəfli iqtisadi münasibətlərin qarşılıqlı maraq doğuran məsələləri müzakirə olunmuşdur. Ölkələrimiz arasındakı siyasi əlaqələrin çox yüksək səviyyədə olduğunu qeyd edən Azərbaycanın xarici işlər naziri iqtisadi-ticarət əlaqələrinin, nəqliyyat sahəsində əməkdaşlığın hələ dövlətlərimizin potensiallarına cavab verən səviyyəyə çatmadığını, bu istiqamətdə çox iş görülməsinin zəruri olduğunu qeyd etmişdir. Bu baxımdan Azərbaycan hökuməti ilə Rumıniya hökuməti arasında ticarət-iqtisadi əlaqələr və elmi-texniki əməkdaşlıq üzrə Müştərək Komissiyanın fəaliyyətinə böyük ümidlər bəsləndiyini vurğulayan V.Quliyev onun fəaliyyətinin Azərbaycan Respublikasının rəhbərliyi tərəfindən hərtərəfli dəstəkləndiyini bildirmişdir. Eyni zamanda, Komissiyanın 2003-cü il iyunun 3-4-nə təyin olunmuş iclasının təxirə salınması barədə Azərbaycan tərəfinin xahişini M.Mitreaya çatdıran V.Quliyev bu xahişin obyektiv səbəblərlə bağlı olduğunu qeyd etmişdir.

Öz növbəsində Mitrea Qafqazın ən inkişaf etmiş və Xəzər hövzəsi regionunun ən mühüm tranzit ölkəsi olan Azərbaycanla əlaqələrin inkişafına Rumıniyanın böyük önəm verdiyini və bu istiqamətdə fəaliyyətin bütün səviyyələrdə dəstəkləndiyini bildirmişdir. Müştərək Komissiyanın iclasının növbəti dəfə təxirə salınmasından təəssüfləndiyini bildirən M.Mitrea onun noyabr ayında keçirilməsinin məqsədəuyğun olduğunu diqqətə

çatdırmış, eyni zamanda hər iki ölkənin prezidentləri tərəfindən komissiyanın və həmsədrlərin qarşısına qoyulan vəzifələrin həyata keçirilməsinin zəruriliyini vurğulamışdır.
Həmin gün Rumıniya-Azərbaycan parlamentlərarası dostluq qrupunun Senatdan olan üzvü, "Rumıniya-Azərbaycan dostluq cəmiyyəti"nin baş katibi, senator, akademik İoan Pop de Popa nazir V.Quliyevin şərəfinə ziyafət vermişdir. Mərasimdə Rumıniya-Azərbaycan parlamentlərarası dostluq qrupunun üzvü olan senator və deputatlar iştirak etmişlər.
Mayın 30-da Azərbaycan Respublikasının Xarici işlər naziri V.Quliyevin Rumıniyaya rəsmi səfəri başa çatmışdır.

XİN, Mətbuat Mərkəzinin məlumatı, 30.05.03

---

**Azərbaycan Respublikasının Xarici İşlər Naziri Vilayət Quliyevin İspaniyaya rəsmi səfəri**

Azərbaycan Respublikasının Xarici işlər naziri Vilayət Quliyev iyun ayının 3-5-də İspaniyanın paytaxtı Madrid şəhərində NATO və Avro-Atlantika Tərəfdaşlıq Şurası xarici işlər nazirlərinin görüşündə iştirak etmək üçün işgüzar səfərdə olmuşdur.
Xarici işlər nazirlərinin toplantısında beynəlxalq terrorçuluğa, habelə sülhə və sabitliyə qarşı yönəlmiş hədə və risklərə qarşı mübarizə məsələlərinə həsr olunmuş birinci plenar iclasda Azərbaycan Respublikasının Xarici işlər naziri üc əsas məruzəçidən biri kimi çıxış etmişdir.
Madriddə Xarici işlər naziri Vilayət Quliyevin ATƏT-in Minsk qrupu həmsədrləri R.Perina (ABŞ), N.Qribkov (Rusiya) və A.Jokelenlə (Fransa) görüşü olmuşdur. Görüş zamanı MQ-nun regiona sonuncu səfərindən sonrakı fəaliyyəti və həmsədrlərin yeni səfəri ilə bağlı məsələlər müzakirə olunmuşdur.
NATO sammiti çərçivəsində Xarici işlər naziri Vilayət Quliyevin Türkiyənin Xarici işlər naziri Abdulla Gül ilə görüşü keçirilmişdir. Görüş zamanı hər iki ölkəni maraqlandıran məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır. Nazir Abdulla Gül Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi istiqamətində ATƏT-in Minsk qrupu həmsədrləri və Ermənistanın xarici işlər naziri ilə keçirdiyi görüşlərlə bağlı azərbaycanlı həmkarını məlumatlandırmışdır. Nazir Vilayət Quliyev də öz növbəsində Azərbaycan tərəfinin mövqeyini Türkiyə xarici işlər nazirinin diqqətinə çatdırmış, regionun gələcək taleyi üçün həyati əhəmiyyəti olan bu münaqişənin mümkün qədər tez və dinc vasitələrlə nizama salınması üçün Türkiyə Cümhuriyyətinin yeni hökuməti ilə hərtərəfli əməkdaşlığa hazır olduğunu bildirmişdir.
Sammit zamanı nazir Vilayət Quliyev Ukrayna, Moldova və Belorus xarici işlər nazirləri ilə də qısa görüşlər keçirmişdir.

XİN, Mətbuat Mərkəzi xəbər verir, 06.06.03

---

### *Azərbaycan Respublikasının Xarici İşlər Naziri Vilayət Quliyevin digər görüşləri*

1 aprel – Ukrayna Respublikasının Azərbaycandakı Fövqəladə və Səlahiyyətli səfiri Boris Aleksenko ilə görüş

10 aprel – Çin Xalq Respublikasının Xarici işlər nazirinin müavini Lyu Quçan ilə görüş

11 aprel – Yunanıstanın Xarici işlər nazirinin müavini Andreas Loverdos ilə görüş

11 aprel – Azərbaycanda səfərdə olmuş Pakistan İslam Respublikası Milli Müdafiə Kollecinin admiralı Şahid Navazın başçılıq etdiyi nümayəndə heyəti ilə görüş

14 aprel – Avropa Şurası Parlament Assambleyasının Dağlıq Qarabağ münaqişəsi üzrə məruzəçisi Terri Devislə gorüş

14 aprel – BMT-nin qaçqınlar üzrə Ali komissarlığının Azərbaycandakı nümayəndəsi Boqdan Naqaylon ilə görüş

17 aprel – Azərbaycanda səfərdə olmuş Rum Patriarxı zati-müqəddəsləri I Varfolomey ilə görüş

17 aprel – Azərbaycanda səfərdə olmuş ABŞ-ın qeyri-hökumət strukturu olan NATO Komitəsinin həmsədri və keçid demokratiyaları üzrə layihənin prezidenti Brüs Cekson ilə görüş

22 aprel – Ukrayna Elmi-Texnoloji Mərkəzinin (UETM) İcraçı direktoru İv Karmel ilə görüş

25 aprel – ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun (DTİHB) direktoru Kristian Ştrohalın başçılıq etdiyi nümayəndə heyəti ilə görüş

30 aprel – Anqlo-Azəri Cəmiyyətinin sədri, Azərbaycan-Britaniya partiyalararası qrupun sədr müavini Lord Freyzer ilə görüş

5 may – Britaniya hökumətinin Cənubi Qafqaz üzrə nümayəndəsi Ser Brayn Foll ilə görüş

6 may – NATO Baş Katibi müavininin köməkçisi Daniel Spekhard ilə görüş

6 may – Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı (QDİƏT) katibliyinin Baş Katibi Valeriy Çeçelaşvili ilə görüş

8 may – İsveçrənin İqtisadi Məsələlər üzrə Dövlət Katibi Devid Siz ilə görüş

8 may – İqtisadi Əməkdaşlıq Təşkilatının (EKO) Baş katibi cənab Seyid Mojtaba Ərastul ilə görüş

12 may – Fransa Respublikasının Xarici işlər nazirliyinin Kontinental Avropa idarəsinin rəisi Üq Pernen ilə görüş

19 may – Səudiyyə Ərəbistanı Xarici işlər nazirinin birinci müavini Nizar Mədəni ilə görüş

26 may –Avropa İttifaqında Yunanıstan prezidentliyinin Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Vassilis Zafiropoulos ilə görüş

7 iyun – Səudiyyə Ərəbistanı Krallığı Şura Məclisinin sədri Saleh bin Abdulla Hümeydin ilə görüş

9 iyun – İtaliya Senatının Xarici Əlaqələr Komitəsinin sədri senator Fiorello Proveranın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş

10 iyun – Litva Respublikasının ölkəmizdə akreditə olunmuş Fövqəladə və Səlahiyyətli səfiri x-m Halina Kobekayte ilə qörüş

12 iyun – Amerika Birləşmiş Ştatlarının Azərbaycandakı səfiri Ross Uilson ilə qörüş

13 iyun – Misir Ərəb Respublikasının ölkəmizdəki Fövqəladə və Səlahiyyətli səfiri xanım Cihan Əmin Məhəmməd Əli ilə qörüş

14 iyun – Əfqanıstanın Xarici işlər nazirinin birinci müavini Məhəmməd Rəhim Şirzoyunun başçılıq etdiyi nümayəndə heyəti ilə qörüş

18 iyun – Yunanıstan Respublikasının Xarici işlər nazirinin müavini İoannis Maqriotis ilə görüş

19 iyun – ABŞ-ın Milli Demokratiya İnstitutunun Azərbaycan üzrə təmsilçisi Devid Sip ilə görüş

27 iyun – Kiyev vilayəti Dövlət Administrasiyasının sədri Anatoliy Zasuxanın başçılıq etdiyi nümayəndə heyəti ilə görüş

# *ÇIXIŞLAR*

## Azərbaycan Respublikasının Xarici İşlər Naziri V.Quliyevin «Narkotranzit: Mərkəzi Asiyadan Avropaya» mövzusunda keçirilmiş konfransda çıxışı

22 may 2003, Paris, Fransa

Cənab Sədr,

İcazə verin narkotəhlükə ilə mübarizədə dövlətlərimizin əməkdaşlığının gələcək inkişafına və dərinləşməsinə mühüm töhfə verəcəyinə əmin olduğum konfransın işində iştirak etmək üçün dəvətə görə səmimi minnətdarlığımı bildirim.

Cənab Sədr,

Dövlətlərin, beynəlxalq təşkilatların, vətəndaş cəmiyyətinin və qeyri-hökumət təşkilatlarının fəal səylərinə baxmayaraq, narkotiklər problemi bütün insanların, xüsusilə gənclərin sağlamlığına, təhlükəsizliyinə və rifahına ciddi təhlükə yaradaraq əvvəlki kimi qlobal səciyyə daşıyır.

Azərbaycanın geosiyasi mövqeyi onu narkotiklərin tranzit daşınmalarının qeyri-qanuni kanalları şəbəkəsinə daxil edilməsi üçün cəlbedici edir. Qaçaqmalçılıq üçün yeni yolların axtarışında transmilli cinayətkar birliklər

Asiyadan Avropaya narkotiklərin daşınması üçün Azərbaycan ərazisindən istifadə etmək cəhdləri edirlər. Narkotiklərin yayılmasının artan təhlükəsini nəzərə alaraq, ölkə hökuməti qanunvericilik fəaliyyəti, beynəlxalq əməkdaşlığın fəallaşdırılması və hüquq müdafiə orqanlarının müvafiq işinin təşkilini əhatə edən kompleks tədbirlər həyata keçirmişdir.

Dövlət Komissiyası yaradılmış, «Narkomaniyanın yayılması və narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qeyri-qanuni dövriyyəsi ilə mübarizəyə dair Ümummilli Proqram» işlənib hazırlanmış, «Polis haqqında», «Əməliyyat-axtarış fəaliyyəti haqqında» və «Narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qeyri-qanuni dövriyyəsi ilə mübarizə haqqında» Qanunlar qəbul edilmişdir. 2000-ci il sentyabrın 1-dən narkotiklərin, psixotrop, güclü təsiredici, zəhərli maddələrin və prekursorların qeyri-qanuni dövriyyəsi ilə mübarizəyə həsr edilmiş müddəaları nəzərdə tutan yeni Cinayət Məcəlləsi qüvvəyə minmişdir.

Azərbaycanda narkoşəraitin vəziyyətinin təhlili göstərir ki, qeyri-qanuni dövriyyədə olan narkotik vasitələr, psixotrop maddələr və prekursorlar respublikaya müxtəlif ölkələrdən bir neçə məlum istiqamətdən gətirilir.

Ümumiyyətlə, keçən il ərzində narkotik vasitələrin ölkəyə qeyri-qanuni idxalının 2190 faktı qeydə alınmışdır. Eyni zamanda, həyata keçirilmiş tədbirlər sayəsində 94 kiloqram müxtəlif narkotiklər dövriyyədən müsadirə edilmiş, 385 hektar sahədə 500 tona qədər yabanı şəkildə bitən narkotərkibli bitkilər aşkar və məhv edilmiş, 1955 nəfər məsuliyyətə cəlb edilmişdir.

Son 10 il ərzində tibbi təsisatlar tərəfindən narkomaniya diaqnozu ilə qeydiyyata alınmış xəstələrin sayı 8 dəfədən çox artmışdır. Əgər 1991-ci ildə hər 100 min nəfər əhaliyə 25.3 qeydiyyata alınmış narkoman düşürdüsə, 2002-ci ildə bu göstərici 190-a çatmışdır.

Dövlət narkomaniya xəstəliyinə mübtəla olmuş şəxslərin müalicəsi və reabilitasiyası üçün bütün lazımi tədbirləri görür. Bu məqsədlə, Azərbaycanda açıq və anonim müalicənin həyata keçirildiyi Respublika Narkoloji dispanseri yaradılmış və fəaliyyət göstərir.

Cənab Sədr,

Azərbaycan hökuməti narkotiklərlə mübarizə sahəsində beynəlxalq əməkdaşlığa xüsusi diqqət yetirir.

Qeyd etmək lazımdır ki, qısa müddət ərzində Azərbaycan Respublikası bu sahədə BMT-nin üç əsas Konvensiyasına qoşulmuşdur. Avropa Şurası çərçivəsində Azərbaycan Avropa Şurasının Pompidu Qrupunu təsis edən, «Narkotiklərin istifadə edilməsi və narkotiklərin qeyri-qanuni dövriyyəsi ilə mübarizədə əməkdaşlıq haqqında» Parsial Sazişin iştirakçısıdır. 2000-ci ildə Azərbaycan narkotiklərə nəzarət sahəsində əməkdaşlığa dair BMT Narkotiklərə Nəzarət Proqramı (UNDCP), Gürcüstan, İran və Azərbaycan arasında qarşılıqlı anlaşma haqqında Memorandumu imzalamışdır. 2001-ci ildə mənim ölkəm narkotiklərə nəzarət sahəsində regional əməkdaşlığa dair Mərkəzi Asiya dövlətləri, Rusiya və Ağa Xan Fondu arasında qarşılıqlı anlaşma haqqında Memoranduma qoşulmuşdur. Həmçinin, Azərbaycan cinayətkarlıqla, o cümlədən narkotiklərin qeyri-qanuni dövriyyəsi ilə mübarizədə əməkdaşlıq haqqında ikitərəfli sazişlər bağlamışdır.

Cənab Sədr,

Azərbaycan hökuməti narkotiklərin qeyri-qanuni dövriyyəsi və digər cinayət fəaliyyəti ilə məşğul olan cinayətkar, o cümlədən terrorçu təşkilatlar tərəfindən yaradılan ciddi problem və təhlükələrlə əlaqədar beynəlxalq birliyin narahatçılığını bölüşdürür. Meydana gəlməsinə dövlətlərin ərazi bütövlüyünün pozulması və regional münaqişələrin tənzimlənməsinə dair beynəlxalq siyasətdə ikili standartların üstün tutulması səbəb olan nəzarətsiz ərazilərdə belə fəaliyyət xüsusi narahatçılıq doğurur. İşğal edilmiş ərazilərdə bəzi dövlətlər tərəfindən separatçı rejimlərin dəstəklənməsi və maliyyələşdirilməsi acı həqiqətdir.

Mən əminəm ki, beynəlxalq ictimaiyyət belə dövlətlərin pislənməsində birlik nümayiş etdirməyənə qədər beynəlxalq terrorçuluq, mütəşəkkil cinayətkarlıq narkotiklərin qeyri-qanuni dövriyyəsi ilə mübarizə səyləri təsirli olmayacaq.

Bununla əlaqədar qeyd etmək istərdim ki, erməni silahlı dəstələri tərəfindən Azərbaycan Respublikasının ərazisinin 20%-dən çoxunun işğal edilməsi nəticəsində bu ərazi və onun sərhədləri Azərbaycan Respublikası tərəfindən müvəqqəti nəzarət edilmir. Yaranmış vəziyyət bu ərazilərin narkotərkibli bitkilərin yetişdirilməsi, narkotiklərin istehsal edilməsi və onların MDB və Avropa ölkələrinə qeyri-qanuni daşınması məqsədilə istifadə edilməsi üçün əlverişli şərait yaradır.

2000-ci ilin sentyabrında Azərbaycan Hökuməti Azərbaycan ərazisinin Ermənistan tərəfindən işğal edilmiş hissəsində və İranla dövlət sərhədinin erməni silahlı dəstələri tərəfindən nəzarət edilən 132 kilometrlik sahəsində qeyri-qanuni miqrasiya, qeyri-qanuni silah alveri və narkotiklərin dövriyyəsi kanallarının fəaliyyəti haqqında bizdə olan faktlarla əlaqədar yoxlamanın keçirilməsi və müvafiq tədbirlərin görülməsi xahişi ilə BMT-nin Vyana Ofisinin İcraçı direktoruna müraciət etmişdir.

Cənab Sədr,

Nəzərə alaraq ki, qeyri-qanuni narkotiklər probleminin öhdəsindən təkbaşına və birtərəfli tədbirlərin görülməsi vasitəsilə gəlmək qeyri-mümkündür, bununla əlaqədar beynəlxalq əməkdaşlıq bu dünya şəri ilə mübarizədə şübhəsiz mühüm rol oynayır.

Ümid ifadə etmək istərdik ki, hazırki Konfrans narkotiklərin yayılmasının mövcud beynəlxalq kanallarının aşkar edilməsi və fəaliyyətinin dayandırılmasına dair konkret təkliflər işləyib hazırlayacaq, həmçinin bu sahədə gələcək işin istiqamətini müəyyən edəcək.

Diqqətinizə görə təşəkkür edirəm.

## Azərbaycan Respublikasının Xarici İşlər Naziri V.Quliyevin Avro-Atlantika Tərəfdaşlıq Şurasının görüşündə Bəyanatı

4 iyun 2003, Madrid, İspaniya

Hörmətli cənab Sədr, xanımlar və cənablar,

İlk növbədə icazə verin səmimi qonaqpərvərliyə və görüşümüz üçün əla iş şəraiti təmin etdiyinə görə İspaniya Hökumətinə təşəkkür edim. Mən, həmçinin, Əfqanıstanda vəzifələrini bitirib geri qayıdan 62 ispan sülhməramlısının həyatına son qoyan faciəli təyyarə qəzası ilə əlaqədar öz dərin başsağlığımızı ifadə etmək istərdim.

Cənab Sədr,

Son iki il ərzində terrorçuluq kütləvi qırğın silahlarının yayılması və transmilli cinayətkarlıqla birləşərək, dünya ətrafında təhlükəsizlik mühitini əsaslı şəkildə dəyişmişdir. Beynəlxalq terrorçuluq yeni texnologiyalar və ekstremist ideoloji çağırışlardan istifadə edərək, öz qlobal şəbəkəsini daima genişləndirmək üçün bacarığını sübut etmişdir. Dünyada seçilmiş mülki şəxslərə və hərbi obyektlərə hücum etməklə terrorçular təkcə təhlükəsizlik və sabitliyimizə təhlükə yaratmırlar. Son məqsəd dini, etnik və separatçı zəmində yeni münaqişə və qarşıdurmalar qızışdırmaq və demokratiya və azadlığın ümumi dəyərlərinə əsaslanan dünya sivilizasiyasının inkişafına mane olmaqdır.

Yeni münaqişə və qarşıdurma meydanlarının inkişafı terrorçuluğun gələcəkdə böyüməsinə aparan əlverişli əsaslı şərtlər yaradır. Biz qəti olaraq inanırıq ki, uğurlu əks-terrorçuluq hərtərəfli yanaşma, o cümlədən, hərbi və kəşfiyyat məsələlərində əməkdaşlıqla yanaşı Əfqanıstan, Orta Şərq və Aralıq dənizinin cənubu kimi təsirə məruz qalmış regionlarda demokratik təsisatların qurulması və bərpasında birgə səyləri nəzərdə tutur.

Beynəlxalq ictimaiyyət geniş məsələlərlə, o cümlədən müdafiə və daxili təhlükəsizlik, sərhəd nəzarəti və nüvə silahının yayılmaması, silah və narkotiklərin qeyri-qanuni ticarəti ilə mübarizə məsələləri ilə məşğul olan hökumət və dövlət təsisatlarının təkmilləşdirilməsi və gücləndirilməsinə dair hərtərəfli fəaliyyət həyata keçirməlidir. Qeyd olunan bütün sahələrdə Tərəfdaşlarla «Sülh naminə tərəfdaşlıq» proqramı çərçivəsində işləyən və özünün səriştə və təcrübəsini uğurla inkişaf etdirən İttifaq əhəmiyyətli rol oynamışdır. Bununla əlaqədar, biz NATO-nun Əfqanıstanda Beynəlxalq Təhlükəsizliyə Yardım Qüvvələrinə (İSAF) rəhbərliyi öz üzərinə götürməsi qərarını tam dəstəkləyirik.

Azərbaycan Əfqanıstanda demokratik yenidənqurma və dünyəvi, mülki təsisatların inkişafında öz yardımını təklif etməyə hazırdır. Bizim anti-terror koalisiyasında iştirak etmək qərarımız sülhməramlı tağımla Beynəlxalq Təhlükəsizliyə Yardım Qüvvələrinə qoşulmaq qərarından sonra yarandı ki, bu qüvvələr daxilində biz həm də əməliyyat planlaşdırılması və komanda tədbirlərində iştirak etmək istərdik.

Azərbaycan, həmçinin, İraqda dinc yenidənqurma prosesinə yardım etməyi planlaşdırır. Hazırda biz İraqda beynəlxalq əməliyyatlara qoşulmaq üçün hazırlıqlar görürük.

Azərbaycan qəti olaraq inanır ki, Tərəfdaşlarla birlikdə İttifaq Avro-Atlantika təhlükəsizliyinə qarşı yeni hədə və təhlükələrlə mübarizədə mərkəzi rol oynaya bilər və oynamalıdır. NATO və onun «Sülh naminə tərəfdaşlıq» proqramı bu təhlükələrin praktiki səviyyədə qarşısını almaq üçün bütün lazımi vasitələrə malikdir. Bu, İttifaqın və məsləhətləşmələr və yaxınlaşan hədə və təhlükələrə qarşı birgə fəaliyyət göstərmək üçün qarşılıqlı əlaqəli mexanizm və imkanların inkişafını nəzərə alan onun Tərəfdaşlıq proqramının nadir xüsusiyyəti və üstünlüyüdür.

Azərbaycan, terrorçuluqla mübarizədə beynəlxalq səylərdə fəal iştirak edən dövlət kimi, NATO-nun Terrorçuluğa dair Tərəfdaşlıq Fəaliyyət Planına böyük əhəmiyyət verir. Biz, səylərin uğurlu əlaqələndirilməsi və ölkə proqramlarının həyata keçirilməsi üçün lazımi zəmin vəd edən Terrorçuluğa dair Tərəfdaşlıq Fəaliyyət Planı vasitəsilə Müttəfiqlər və Tərəfdaşlarla ikitərəfli və çoxtərəfli əməkdaşlıq qurmağa hazırıq. Buna baxmayaraq, bu cəhdin effektliliyi Müttəfiqlərlə Tərəfdaşlar arasında təhlükəsizlik sektorunun tam spektri, o cümlədən məlumatın idarə olunması və mübadiləsi sistemi tərəfindən möhkəmlənən kəşfiyyat məlumatının preventiv yayılması və birgə qiymətləndirilməsi boyunca əməli əməkdaşlığın səviyyəsindən asılı olacaq. Siyasi-Hərbi Çərçivənin miqyasının NATO əməliyyatları üçün anti-terrorçuluq sahəsinə qədər genişlənməsi üzrə NATO-nun başladığı iş həmçinin əhəmiyyətlidir.

Aydındır ki, Tərəfdaşlıq NATO-dan kənar və əksinə olaraq da inkişaf edə bilməz. Praktiki əməkdaşlığın Avro-Atlantika məkanında təhlükəsizlik və sabitliyə həqiqi mənada töhfə vermək arzusunda olan Tərəfdaşlarla inteqrasiya yönümlü tərəfdaşlıq və qarşılıqlı fəaliyyət səviyyəsinə qədər inkişafı genişlənmə prosesi kimi əhəmiyyətlidir. Bu zaman, genişlənmənin iki dalğasından sonra müttəfiq və tərəfdaşların nisbətində köklü dəyişiklikləri və tərəfdaş dövlətlər arasında maraqların və imkanların artan müxtəlifliyini nəzərə alaraq, fərdi ölkələrin xüsusi ehtiyaclarına və təhlükəsizlik maraqlarına doğru yönəldilməsi məqsədilə tərəfdaşlığın gələcəkdə fərdiləşdirilməsinə ehtiyac duyulur. Bu mənada, təklif olunmuş Fərdi Tərəfdaşlıq Fəaliyyət Planı yeni yaranan şərtlərə düzgün və vaxtlı cavabdır.

Azərbaycan İttifaqla əlaqələrini Fərdi Tərəfdaşlıq Fəaliyyət Planı əsasında qurmağa hazır olduğunu artıq bildirmişdir. Biz ümid edirik ki, bu, NATO-nun məqsədlərinə və Azərbaycanın xüsusi ehtiyac və maraqlarına aid tərəfdaşlığın bütün sahələrini sistemləşdirəcək və ahəng edəcək və onu inteqrasiya səviyyəsinə qədər yüksəldəcək.

Mən, müdafiə və xarici işlər nazirlərinin birbaşa vəzifələrini aşan, sərhəd nəzarəti, mülki fövqəladə planlaşdırma, ətraf mühit və elmi məsələlər sahələrini əhatə edən NATO ilə intensiv inkişaf edən praktiki əməkdaşlığımızı qeyd edməkdən məmnunluq duyuram. Hazırda İttifaq zəhərlənmiş ərazi olan Saloğlunun partladılmamış sürsatlardan təmizlənməsi və bərpa edilməsinə dair Türkiyənin rəhbərlik etdiyi «Sülh Naminə

Tərəfdaşlıq» Etimad Fondu Layihəsinin təşkil edilməsində Azərbaycana köməklik göstərir. Layihəni başlamaq üçün ehtiyatların çatışmamasını nəzərə alaraq, bu təcili humanitar və ətraf mühit probleminin həllinin sürətləndirilməsi məqsədilə, İttifaq və Tərəfdaş dövlətlərinin bu Etimad Fonduna yardım etmələrini xahiş etmək üçün bu imkandan istifadə etmək istərdim. Mən, həmçinin, sərhəd təhlükəsizliyinə dair Azərbaycanın Hərbi Siyasi Rəhbər Komitəyə təqdim etdiyi layihəni qeyd etmək istərdim ki, bu, böyük əhəmiyyətə malikdir və əsasən NATO və tərəfdaş yardımından asılıdır.

Cənab Baş Katib,

Sizin bu yaxınlarda Azərbaycana səfəriniz NATO-nun mənim ölkəmlə tərəfdaşlığa verdiyi əhəmiyyətin bariz göstəricisi idi. Biz, həmçinin, Avro-Atlantika məkanının ayrılmaz hissəsi olan Cənubi Qafqaz regionuna İttifaq tərəfindən marağın artmasını alqışlayırıq. Bu zaman Cənubi Qafqaz hələ də uzun sürən münaqişələr, nəzarətsiz ərazilər, böyük miqyaslı humanitar fəlakətlər və hərbi işğallarla səciyyələnən qeyri-sabit region olmaqda qalır.

Təəssüf ki, Ermənistanın qeyri-konstruktiv və təcavüzkar mövqeyi ilə əlaqədar, Ermənistan-Azərbaycan münaqişəsinin həlli prosesində hələ irəliləyiş əldə edilməmişdir. İki ölkə arasında beynəlxalq səviyyədə tanınmış sərhədlərdən rəsmi olaraq imtina etməklə və Azərbaycanın ərazi bütövlüyü və suverenliyini pozmaqla Ermənistan münaqişəyə dair hər hansı kompromisi və gələcəkdə hər hansı əməkdaşlığı mümkünsüz edir. Biz beynəlxalq hüququn norma və prinsipləri əsasında münaqişənin sülh yolu ilə həllinə dair ATƏT-in Minsk Qrupunun səylərini dəstəkləməkdə davam edirik. Biz, həmçinin, inanırıq ki, sülh və sabitliyə yardım etmək məqsədilə NATO regionumuzun əsas təhlükəsizlik məsələlərinə münasibətdə özünün geniş potensialından hələ tam istifadə etməyib.

# *RƏSMİ MƏLUMAT*

### Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Mətbuat Mərkəzi xəbər verir

2 aprel 2003-cü il tarixində NATO-nun Brüssel şəhərində yerləşən Baş Qərargahında Azərbaycan Respublikası ilə NATO Maddi-Texniki Təchizat və Yardım Təşkilatı (NAMSA) arasında maddi-texniki təchizata dəstəyə dair əməkdaşlıq üzrə Anlaşma Memorandumu imzalanmışdır.

NAMSA tərəfindən sənədi təşkilatın Baş Direktoru Piter Markey, Azərbaycan adından isə, Azərbaycan Respublikasının NATO yanında Nümayəndəliyinin Başçısı, səfir Mir-Həmzə Əfəndiyev imzalamışlar.

NAMSA hal-hazırda respublikamızda ekoloji və humanitar baxımdan yüksək əhəmiyyət kəsb edən layihənin (Ağstafa rayonunun Saloğlu kəndi ərazisində sovet ordusundan miras qalmış partlamamış hərbi sursatın neytrallaşdırılması) həyata keçirilməsində iştirak edir. Eyni zamanda, hal-hazırda sovet ordusundan qalmış raket yanacağının məhv edilməsi problemi ətrafında danışıqlar davam etdirilməkdədir.

XİN-in Mətbuat mərkəzinin məlumatı, 02.04.03

---

**NATO-nun Baş Katibi Corc Robertsonun Azərbaycan Respublikasına səfəri**

NATO-nun Baş Katibi lord Corc Robertson Cənubi Qafqaza səfəri çərçivəsində mayın 15-də Bakıya gəlmişdir. Binə hava limanında qonağı Xarici işlər naziri Vilayət Quliyev, Türkiyənin Bakıdakı səfiri Əhməd Ünal Çeviköz və digər rəsmi şəxslər qarşıladılar.

Cənab Corc Robertson jurnalistlərin suallarına cavab verərkən dedi ki, NATO-nun qapıları bütün ölkələr üçün açıqdır. Lakin bu təşkilata üzv olmaq üçün çox iş görmək lazımdır. Yeni ölkələrin Alyansa qəbul edilməsi məqsədi ilə NATO fərdi fəaliyyət proqramı tərtib etmişdir.

Qonaq bildirdi ki, Azərbaycan "Sülh naminə tərəfdaşlıq" proqramının ən fəal üzvlərindən biridir. Ölkənin bu istiqamətdə daha artıq səylər göstərməsi NATO-ya üzv olmağa kömək edərdi. Mən Azərbaycanı təbrik edirəm, ölkənizin sülhpərvər səylərini dəstəkləyirəm və buna görə təşəkkürümü bildirirəm.

NATO-nun Baş Katibi Dağlıq Qarabağ məsələsində də Azərbaycanın mövqeyinə, münaqişənin sülh yolu ilə həllinə tərəfdar olduğunu söyləmişdir: "Mən cənab Prezident Heydər Əliyevin bu istiqamətdə, yəni problemin sülh yolu ilə həll olunmasında səylərini alqışlayıram. Mənim Cənubi Qafqaza mesajım ondan ibarətdir ki, burada yaşayan millətlər qonşuları ilə birlikdə çalışaraq, öz təhlükəsizliklərini təmin edə bilərlər".

«AZƏRTAC», 15.05.03

***Nazirlər kabinetində qəbul***

Mayın 15-də Baş nazir Artur Rasizadə NATO-nun Baş Katibi lord Corc Robertsonu və onunla birlikdə gələn nümayəndə heyətini qəbul etmişdir.

Baş nazir qonaqları salamlayaraq vurğuladı ki, Şimali Atlantika İttifaqı başçısının regiona, o cümlədən də Azərbaycana səfərinin böyük əhəmiyyəti var. Son iki ildə dünyada baş vermiş hadisələr – Amerikada 11 sentyabr faciəsi, Əfqanıstanda antiterror əməliyyatı, İraqda hərbi əməliyyatlar ümumdünya siyasi proseslərinə

təsir göstərmişdir. Lakin, Baş nazirin bəyan etdiyi kimi, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsində indiyədək heç bir dəyişiklik müşahidə olunmur.

Artur Rasizadə həmçinin nəzərə çarpdırdı ki, Azərbaycan NATO ilə əməkdaşlığın genişləndirilməsinə tərəfdardır, lakin bu zaman real mövqelərdən çıxış edir.

Lord Corc Robertson bildirdi ki, Azərbaycanın NATO ilə əməkdaşlığı ancaq xarici işlər və müdafiə nazirləri çərçivəsində həyata keçirilməməlidir, dövlət proqramının bir hissəsi olmalıdır. O, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması məsələsinə toxunaraq, əmin olduğunu söylədi ki, cari ildə hər iki ölkədə seçkilər başa çatdıqdan sonra bu problemin həlli yolu tapıla bilər. Robertson Ermənistana səfərinin və ölkə rəhbərliyi ilə apardığı danışıqların yekunlarına əsasən bu qənaətə gəlmişdir. Onun fikrincə, bundan ötrü hər iki tərəf xüsusi səylər göstərməlidir, əks halda, münaqişə həll edilməmiş qala bilər.

NATO-nun Baş Katibi Artur Rasizadədən Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 80 illiyi münasibətilə təbriklərini və ən xoş arzularını ona yetirməyi xahiş etdi.

Sonra Azərbaycanın NATO-ya qəbulu proseduru ilə bağlı məsələlər barəsində fikir mübadiləsi aparıldı.

Qəbulda Baş nazirin birinci müavini Yaqub Eyyubov, Xarici işlər naziri Vilayət Quliyev, Müdafiə naziri Səfər Əbiyev, Azərbaycanın Belçikadakı səfiri, ölkəmizin NATO yanında nümayəndəliyinin başçısı Mirhəmzə Əfəndiyev iştirak edirdilər.

### *Azərbaycan "Virtual ipək yolu" layihəsinə qoşulmuşdur*

Həmin gün Milli Elmlər Akademiyasının İnformasiya Texnologiyaları İnstitutunda NATO-nun elmi proqramı çərçivəsində Mərkəzi Asiya və Cənubi Qafqaz ölkələri üçün həyata keçirilən "Virtual İpək yolu" layihəsinin açılış mərasimi keçirilmişdir. Mərasimdə NATO-nun Baş Katibi lord Corc Robertson, xarici ölkələrin səfirləri, respublikanın görkəmli elm xadimləri, müxtəlif nazirliklərin, elm və təhsil ocaqlarının nümayəndələri iştirak edirdilər.

MEA-nın prezidenti akademik Mahmud Kərimov mərasimi acaraq demişdir ki, layihənin məqsədi peyk texnologiyaları vasitəsilə Mərkəzi Asiya və Cənubi Qafqaz ölkələrinin elm və təhsil müəssisələrinin Avropanın yüksək sürətli internet dayaq şəbəkəsinə qoşulmasını təmin etməkdir. Layihə bu ölkələrin elmi tədqiqat və təhsil müəssisələri arasında informasiya mübadiləsinin genişləndirilməsinə də imkan verəcəkdir. Qarşıya qoyulan məqsədə çatmaq üçün layihədə iştirak edən ölkələrin hər biri VSAT terminallarından ibarət avadanlıqla, peyk antennası və şəbəkə avadanlığı ilə təchiz edilərək, EUROASİASAT yerüstü süni peyk stansiyası vasitəsilə Qərbi Avropada magistral İnternet şəbəkəsinə yüksək sürətli çıxış imkanına malik olacaqdır. Respublikamızda layihəni Azərbaycan Elmi Tədqiqat və Təhsil Şəbəkələri Assosiasiyası həyata keçirir.

C.Robertson çıxışında bildirmişdir ki, Azərbaycan layihəyə qoşulmuş altıncı ölkədir. "Virtual İpək yolu" xalqları bir araya gətirəcək, onların elm, təhsil sahəsində əməkdaşlığının inkişafına şərait yaradacaqdır. Layihəyə qoşulmuş ölkələrdə onun üstünlüyü sübut olunmuşdur. Bunu Azərbaycan da hiss edəcəkdir. "Virtual İpək yolu" Azərbaycana regionda mühüm tərəfdaş rolunda çıxış etmək imkanı verəcəkdir.
Sonra NATO-nun Baş Katibi qırmızı lenti kəsərək, Azərbaycanın "Virtual İpək yolu"na qoşulmasını təntənəli şəkildə elan etmişdir.
Azərbaycan Elmi Tədqiqat və Təhsil Şəbəkələri Assosiasiyasının Şəbəkə əməliyyat mərkəzi vasitəsilə Almaniyanın Hamburq şəhərində yerləşən Mərkəzi HUB-la videokonfrans təşkil olunmuşdur.
MEA-nın prezidenti Mahmud Kərimov NATO-nun Baş Katibinə fəxri doktor diplomu təqdim etmişdir. Cənab Robertson NATO ilə Azərbaycan arasında əməkdaşlığın inkişafında xidmətlərinə görə bu ada layiq görülmüşdür.
«AZƏRTAC», 15.05.03

## *Azərbaycan qərbin və NATO-nun ən etibarlı tərəfdaşıdır. Lord Corc Robertson Milli Məclisdə çıxış etmişdir*

Mayın 15-də NATO-nun Baş Katibi lord Corc Robertson Azərbaycan parlamentinin iclasında iştirak etmişdir.
Deputatlar adından qonağı səmimiyyətlə salamlayan Milli Məclisin sədri Murtuz Ələsgərov onun ölkəmizə ikinci səfərinin Azərbaycanla Şimali Atlantika Alyansı arasında "Sülh naminə tərəfdaşlıq" proqramından başlayan, Kosovo və Əfqanıstanda sülhməramlı qüvvələrin tərkibində əsgərlərimizin iştirakına qədər davam edən uğurlu əməkdaşlığın daha da inkişafında mühüm addım kimi dəyərləndirdi. Bildirildi ki, Azərbaycan NATO ilə əlaqələrin möhkəmlənməsinə xüsusi əhəmiyyət verir. 1997-ci və 2002-ci illərdə Prezident Heydər Əliyev bu əlaqələrin inkişafına dair sərəncamlar imzalamışdır. Hazırda Şimali Atlantika Alyansının assosiativ üzvü olan Azərbaycan bu təşkilatın bütün tədbirlərində – seminarlarda, təlimlərdə fəal iştirak edir. Milli Məclis və NATO-nun Parlament Assambleyası arasında sıx əməkdaşlıq mövcuddur.
Parlamentin sədri daha sonra Azərbaycan Prezidenti Heydər Əliyevin rəhbərliyi altında aparılan demokratik islahatlardan, ölkəmizin dünya birliyinə, o cümlədən Avropa ailəsinə daha sıx inteqrasiya olunmasından bəhs etdi. Eyni zamanda vurğuladı ki, ölkəmizin daha sürətli inkişafı və bölgədə sülhün, təhlükəsizliyin təmin olunması yolunda ən böyük maneə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsidir. Bu münaqişənin Avropa təhlükəsizlik arxitekturası üçün də qorxu törətdiyini söyləyən Milli Məclisin sədri onun tezliklə həllindən ötrü NATO və digər beynəlxalq təşkilatlar konkret addımlar atmalıdır.
Sonra Milli Məclisin sədri qonağa söz verdi.

Lord Corc Robertson çıxışına Azərbaycana ikinci səfərindən məmnun qaldığını vurğulamaqla başladı. ABŞ-da 11 sentyabr hadisələrindən sonra dünyada vəziyyətin dəyişdiyini nəzərə çarpdıran Corc Robertson terrorizmə qarşı mübarizədə Azərbaycanın rolunu yüksək qiymətləndirdi.

Terrorizmə qarşı mübarizənin gedişində Qərbin diqqətinin Cənubi Qafqazın problemlərindən yayınması məsələsinə gəldikdə, Corc Robertson Qafqazın Avrasiya məkanında sabitlik üçün xüsusi rolu olduğunu vurğulayaraq dedi ki, Azərbaycan isə Qərbin və NATO-nun ən etibarlı tərəfdaşıdır. O, 11 sentyabr hadisələrindən ötən dövrdə Alyansın Avrasiya məkanında öz əlaqələrini möhkəmləndirmək üzrə fəaliyyətinə də toxundu, keçən ilin noyabrında Praqa görüşündə yeni xətt seçildiyini, XXI əsrdə Avroatlantika məkanında sülhün və təhlükəsizliyin təmin olunması yolunda maneələrin aradan qalndırılmasında NATO-nun rolunun müəyyənləşdirildiyini bildirdi.

NATO-nun fəaliyyətinin genişləndirilməsini, daha 7 ölkənin təşkilata üzv olmasını müsbət dəyərləndirən Corc Robertson bu prosesin gələcəkdə də davam etdiriləcəyini söylədi. O, Azərbaycanın Şimali Atlantika Alyansının fərdi əməkdaşlıq üzrə əməliyyat planında başlıca rol oynadığını, bu plan çərçivəsində ölkəmizdə hansı islahatların zəruri olmasının müəyyən ediləcəyini bildirdi.

Baş Katib xatırlatdı ki, NATO Azərbaycanın sərhədlərinin təhlükəsizliyinin təmin olunması, ərazilərin minalardan təmizlənməsi sahəsində yardım göstərir. Eyni zamanda, regionun təhlükəsizlik məsələlərinin həllində də Azərbaycan ilə NATO-nun əməkdaşlığının çox böyük potensialı vardır. Corc Robertson Avroatlantika Tərəfdaşlıq Şurası çərçivəsində Cənubi Qafqazda regional əməkdaşlıq üzrə işçi qrupunun yaradılması prosesində müsbət roluna görə Azərbaycana minnətdarlığını bildirdi.

Cənubi Qafqazda közərən münaqişələrə toxunan qonaq, NATO-nun bu problemlərin həllində başlıca rol oynaya bilməyəcəyini söylədi. Onun fikrincə, münaqişələrin həllinin məsuliyyəti region dövlətlərinin üzərinə düşür. Regiondankənar qüvvələrin iştirakı olmadan münaqişənin həllinin mümkün olmayacağını söyləməklə yanaşı, o, Azərbaycanın xüsusilə Rusiya ilə ikitərəfli əməkdaşlığının vacibliyini vurğuladı, bu sahədə son illər baş vermiş irəliləyişlərdən NATO ölkələrinin məmnun olduğunu bildirdi.

Azərbaycanı terrorizmlə mübarizədə çox müsbət rol oynaması münasibətilə təbrik edən Corc Robertson Avroatlantika Tərəfdaşlıq Şurası çərçivəsində bir neçə gün əvvəl Bakıda keçirilmiş seminarı da yüksək dəyərləndirdi.

Sonra NATO-nun Baş Katibi Milli Məclisin deputatlarının suallarına cavab verdi.

Milli Məclis sədrinin müavini Ziyafət Əsgərovun Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı NATO-nun roluna dair sualına cavab verən qonaq bildirdi ki, Şimali Atlantika Alyansı bu problemi münaqişə tərəflərinin özlərinin həll edəcəyinə ümid bəsləyir. O, ümumiyyətlə, Azərbaycan parlamentinə gəldiyi zaman çətin suallarla qarşılaşacağını bildiyini, NATO-nun Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsində maraqlı olduğunu da söylədi.

İclasın sonunda Milli Məclisin sədri Murtuz Ələsgərov görüşə və məzmunlu çıxışına görə lord Robertsona təşəkkür etdi.

### *Azərbaycanın NATO ilə əməkdaşlığı komissiyasının üzvləri ilə görüş*

Həmin gün NATO-nun Baş Katibi lord Corc Robertson Azərbaycanın NATO ilə əməkdaşlığı komissiyasının üzvləri ilə görüşmüşdür.

Komissiyanın sədri, Baş nazirin birinci müavini Yaqub Eyyubov qonağı salamlayaraq dedi ki, NATO ilə əməkdaşlıq Azərbaycanın xarici siyasətində öncül istiqamətdir. Ölkəmiz bununla əlaqədar qəbul olunmuş qərarları ardıcıl surətdə həyata keçirir, antiterror koalisiyasında, habelə beynəlxalq sülhyaratma əməliyyatlarında fəal iştirak etmişdir. Yaqub Eyyubov Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunaraq vurğuladı ki, Azərbaycan erməni terrorizminin bütün vəhşiliklərini öz üzərində hiss etmişdir.

Corc Robertson bildirdi ki, Azərbaycanın NATO strukturlarına inteqrasiyası vətəndaş cəmiyyəti quruculuğu proseslərinin gücləndirilməsi, iqtisadi və hüquqi sahədəki bir sıra məsələlərin həlli ilə müşayiət olunmalıdır.

Sonra komissiyanın üzvləri Azərbaycanın NATO ilə əməkdaşlığını genişləndirmək məsələlərinə dair öz təkliflərini söylədilər.

Şimali Atlantika İttifaqının başçısı qaldırılmış bütün məsələlər barəsində fikrini açıqladı.

«AZƏRTAC», 15.05.03

---

### Azərbaycan Respublikası ilə Haiti Respublikası arasında diplomatik əlaqə yaradılmasına dair kommünike imzalanmışdır

2003-cü il mayın 9-da Nyu-Yorkda Azərbaycan Respublikası və Haiti Respublikası arasında diplomatik əlaqələrin yaradılması haqqında birgə rəsmi məlumat imzalanmışdır.

Sənədi Azərbaycan hökuməti adından ölkəmizin BMT nəzdində daimi nümayəndəsi Yaşar Əliyev, Haiti hökuməti adından bu respublikanın BMT nəzdində daimi nümayəndəsi Jan S. Aleksandre imzalamışlar.

«AZƏRTAC», 17.05.03

---

### Azərbaycan Respublikasıi ilə Sent Vinsent və Qrinadins hökuməti arasında diplomatik əlaqə yaradılmışdır

Azərbaycanla Sent Vinsent və Qrinadins arasında diplomatik əlaqələrin yaradılması haqqında birgə rəsmi məlumat imzalanmışdır.

Xarici İşlər Nazirliyindən AzərTAC-a daxil olan məlumatda deyilir ki, imzalanma mərasimi mayın 23-də Nyu-York şəhərində keçirilmişdir. Rəsmi məlumatı Azərbaycan hökuməti adından ölkəmizin BMT-dəki daimi nümayəndəsi Yaşar Əliyev, Sent Vinsent və Qrinadins hökuməti adından bu ölkənin BMT-dəki daimi nümayəndəsi xanım Marqaret Xyuces Ferrari imzalamışlar.

«AZƏRTAC», 27.05.03



# *AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN 80 İLLİK YUBİLEYİ*

**Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 80 illik yübileyi ilə əlaqədar Azərbaycan Respublikasının Xarici İşlər Naziri Vilayət Quliyevin təbrik məktubu**

Möhtərəm cənab Prezident !

Sizi 80 illik yubileyiniz münasibəti ilə öz adımdan və Xarici İşlər Nazirliyinin kollektivi adından səmimi qəlbdən təbrik edir, Sizə möhkəm cansağlığı, uzun ömür, bütün xalqımızla birlikdə daha xoşbəxt və gözəl həyat arzulayıram!

Zati-aliləri!

Siz həyatınızın böyük bir hissəsini Azərbaycan xalqının tərəqqisinə, Azərbaycan dövlətçiliyinin qurulmasına və möhkəmlənməsinə həsr etmisiniz. Siz Azərbaycanın ən yeni tarixinə dövlətçiliyimizin memarı, onun bütün əsas institutlarının yaradıcısı kimi daxil olmusunuz. Azərbaycan xalqının XX yüzillikdə qazandığı bütün diqqətəlayıq uğurlar Sizin adınız və yorulmaz fəaliyyətinizlə bağlıdır. Dövlətimizi və xalqımızı yeni əsrə, yeni

minilliyə vahid və sınanmış ümumilli lider kimi məhz Siz aparmısınız. İlk illərini yaşadığımız XXI yüzillikdə xalqımızın və dövlətimizin qarşısında dayanan bir sıra mühüm vəzifələrin məhz Sizin iradəniz və əzminizlə öz həllini tapacağına inanır, bu yolda Sizə və bütün millətimizə uğurlar diləyirik.

Möhtərəm cənab Prezident!

Bütün Azərbaycan xalqının bayramı olan bu gözəl gündə bir daha Sizə ən xoş arzularımızı çatdırır, Azərbaycanın xoşbəxt gələcəyi naminə əzmkar mübarizənizdə Sizə yeni, daha parlaq qələbələr arzulayırıq.

Dərin hörmət və ehtiramla,

Nazir V.Quliyev

**Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevi 80 illik yubileyi münasibətilə təbrik məktubları alınmış dövlətlərin siyahısı**

1. Bolqarıstan Respublikası
2. Qazaxıstan Respublikası
3. Rumıniya
4. İtaliya
5. Fransa Respublikası
6. Qırğızıstan Respublikası
7. Belarus Respublikası
8. Litva Respublikası
9. Vatikan
10. Avstriya
11. Tacikistan
12. Türkiyə
13. İsrail
14. ABŞ
15. Misir Ərəb Respublikası
16. Almaniya Federativ Respublikası
17. Rusiya Federasiyası

18. Gürcüstan
19. İran İslam Respublikası
20. Koreya Xalq Demokratik Respublikası

# *AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN YARADILMASININ 85 İLLİYİ*

**Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 85 illiyi münasibətilə Azərbaycan xalqına Müraciəti**

27 may 2003, Bakı, Azərbaycan

Əziz həmvətənlər,

Bu il xalqımızın çoxəsrlik dövlətçilik tarixində mühüm yer tutan onun parlaq və şərəfli səhifəsini təşkil edən Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 85 ili tamam olur. Müstəqilliyini bərpa etdikdən sonra bu bayram hər il ölkəmizdə böyük təntənə ilə qeyd edilir. Keçirilən tədbirlərdə cümhuriyyət dövrünə bir daha nəzər salınır, onun tariximizdəki yeri və rolu ətraflı təhlil edilir, dövlət quruculuğu təcrübəsi hərtərəfli öyrənilir. Mən dövlətçilik tariximizdə Azərbaycan Xalq Cümhuriyyətinin özünəməxsus yeri olduğunu nəzərə alaraq, bu ilin fevral ayında xüsusi sərəncamla 2003-cü ilin sonunadək Bakı şəhərində Xalq Cümhuriyyətinin xatirəsinə abidə ucaldılması haqqında qarar qəbul etdim.

Müsəlman Şərqində ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyəti ölkəmizin çoxəsrlik sosial-iqtisadi, ictimai-siyasi və mədəni inkişafının, xalqımızın milli oyanışı və dirçəlişi proseslərinin məntiqi nəticəsi kimi meydana çıxmışdır. Azərbaycan Xalq Cümhuriyyəti xalqımızın siyasi şüur səviyyəsinin, intellektual və mədəni potensialının, yüksək istedad və qabiliyyətinin göstəricisi idi. 1918-ci il mayın 28-də Azərbaycanın istiqlaliyyətinin elan edilməsində, Xalq Cümhuriyyətinin təşəkkül tapmasında və fəaliyyət göstərməsində cümhuriyyətə rəhbərlik etmiş şəxslərin – Əlimərdan bəy Topçubaşovun, Məmmədəmin Rəsulzadənin, Fətəli xan Xoyskinin, Nəsib bəy Yusifbəylinin, Səməd bəy Mehmandarovun, Əliağa

Şıxlinskinin və başqalarının böyük xidmətləri olmuşdur. Bu görkəmli dövlət xadimlərinin, vətənpərvər ziyalıların, peşəkar hərbçilərin adları xalqımızın yaddaşına əbədi həkk olunmuşdur.

Azərbaycan Xalq Cümhuriyyəti Avropanın demokratik dəyərləri ilə Şərq mədəniyyətinin xüsusiyyətlərini üzvi şəkildə birləşdirən yeni dövlət və cəmiyyət nümunəsi idi. Cəmi 23 ay fəaliyyət göstərməsinə baxmayaraq, ilk respublika dövründə həyata keçirilən tədbirlər müstəqil dövlətçiliyimizin əsaslarının yaradılması və gələcək inkişaf yolunun müəyyənləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb etdi. Demokratik hüquq və azadlıqların bərqərar olması, etnik və dini mənsubiyyətindən asılı olmayaraq bütün vətəndaşlara bərabər hüquqlar verilməsi, Azərbaycan dilinin dövlət dili elan edilməsi, təhsil və mədəniyyətin inkişafına xüsusi diqqət göstərilməsi, nizami milli ordunun, təhlükəsizlik strukturlarının qurulması və sair işlər Xalq Cümhuriyyəti hökumətinin yürütdüyü siyasətin miqyasını, mahiyyət və mənasını əyani şəkildə səciyyələndirir.

Həyata keçirilən tədbirlər xalqımızın dövlətçilik ənənələrinin bərpasına və milli mənlik şüurunun güclənməsinə böyük təsir göstərdi. Məhz buna görə, 1920-ci ilin aprelində bolşevik işğalı nəticəsində cümhuriyyət süqut etdikdən sonra da müstəqillik hissləri azərbaycanlıları sonrakı dövrdə heç zaman tərk etmədi, azadlıq ideyaları şüurlara hakim kəsildi. Sovet hakimiyyətinin qurulması ilə Azərbaycanın dövlət müstəqilliyinə faktiki olaraq son qoyulmasına baxmayaraq, xalqımız formal şəkildə olsa da öz dövlətini qoruyub saxladı, müttəfiq respublika kimi SSRİ-ni təşkil edən subyektlərdən birinə çevrildi.

Xalqımız yeni tarixi şəraitdə öz dövlət müstəqilliyini bərpa etdikdən sonra Xalq Cümhuriyyətinin ənənələrini əsas tutaraq, müstəqil Azərbaycan dövlətini yaratdı, Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətindən fərqli olaraq, mürəkkəb vəziyyətdə öz müstəqilliyini və suverenliyini qorumağı və möhkəmləndirməyi bacardı. İlk illərdə buraxılan kobud səhvlərə baxmayaraq, dövlətçiliyin qorunması üçün qətiyyətli tədbirlər görüldü, ölkədə davamlı ictimai-siyasi sabitlik bərpa edildi.

Bu gün Azərbaycan Respublikasında demokratik, hüquqi, dünyəvi dövlət, vətəndaş cəmiyyəti quruculuğu prosesi uğurla davam etdirilir. Bu sahədə qazanılmış nailiyyətlər qürur doğurur. 90-cı illərin ortalarından başlayaraq, respublikamızda siyasi, iqtisadi və sosial islahatlar uğurla həyata keçirilir, ölkə iqtisadiyyatı dönmədən inkişaf etdirilir, əhalinin sosial müdafiəsinin gücləndirilməsi üçün təsirli tədbirlər görülür. Müxtəlif ölkələrlə hüquq bərabərliyi və qarşılıqlı faydalı əməkdaşlığa əsaslanan əlaqələr yaradılır. Azərbaycan nüfuzlu beynəlxalq və regional təşkilatlara daxil olaraq dünya birliyinə daha sıx inteqrasiya olunur, bu birlikdə özünə layiq yer tutur. Ən ağrılı problemimiz olan Ermənistan-Azərbaycan münaqişəsi və Dağlıq Qarabağ probleminin həll edilməsi, işğal olunmuş torpaqlarımızın geri qaytarılması, ərazi bütövlüyümüzün bərpa edilməsi istiqamətində ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirilir.

Biz bu gün də Azərbaycan Xalq Cümhuriyyətinin tarixini, onun görkəmli şəxsiyyətlərinin fəaliyyətini dərindən öyrənməli, ideyalarını təbliğ etməli, təcrübəsindən bəhrələnməliyik. Cümhuriyyətin tarixi təcrübəsi

göstərir ki, dövlət müstəqilliyini və suverenliyi əldə etmək kifayət deyil, həm də onu bütün vasitələrlə qorumaq və möhkəmləndirmək lazımdır. İndiki Azərbaycan dövlətinin yeritdiyi siyasət, qazanılan uğurlar belə bir fikri əminliklə söyləməyə əsas verir ki, Azərbaycan Xalq Cümhuriyyəti dövründə itirdiyimiz müstəqilliyi bir də heç zaman əldən verməyəcək, onu qoruyub saxlayacaq, dönməz, sarsılmaz və əbədi edəcəyik.

Əziz həmvətənlər! Hörmətli vətəndaşlar!

28 May – Respublika günü xalqımızın ən əziz milli bayramlarından biridir. Bu bayram münasibətilə Sizin hər birinizi, Vətənimizin bütün oğul və qızlarını, Silahlı Qüvvələrimizin şəxsi heyətini, müharibə iştirakçılarını, şəhid ailələrini, qaçqınları və məcburi köçkünləri ürəkdən təbrik edir, xalqımıza sülh, əmin-amanlıq və firavanlıq arzulayıram.

## Azərbaycan Xalq Cümhuriyyəti ilə Osmanlı hökuməti arasında dostluq müqaviləsi

Azərbaycan Xalq Cümhuriyyətinin xarici dövlətlərlə bağladığı ilk müqaviləsi Osmanlı hökuməti ilə olmuşdur. Bu müqavilə 1918-ci ilin iyunun 4-də imzalanmışdır. Müqavilənin mətnini ilk dəfə olaraq oxucularımızın diqqətinə təqdim edirik.

### ***Дело***

**Министерства Иностранных Дел**

**«торговый договор, заключенный с Оттоманским правительством» 1918 г.**

### Договор дружбы между Императорским Оттоманским Правительством и Азербайджанской Республикой.

Императорское Оттоманское Правительство с одной стороны и Правительство Азербайджанской Республики, объявившей себя независимой, с другой стороны, взаимно согласившись установить дружественные и добрососедские отношения между своими странами на почве политической, правовой, экономической и интеллектуальной назначили своими представителями:

Для Оттоманской Империи (имена и фамилии) Министр Юстиции, Председатель Сената Халил бей и Главнокомандующий Кавказским фронтом Оттоманской Империи Ферид Вехиб-паша, Для Азербайджанской Республики: Министр Иностранных Дел Мамед Гасан Гаджинский и Председатель

Национального Совета Мамед-Эмин Расул Заде, каковые по росмотрении и обмену полномочиями, найденными в надлежащей форме, условились о нижеследующем:

Статья I

Между Императорским Оттоманским Правительством и Правительством Азербайджанской Республики будет постоянный мир и прочная дружба.

Статья II

Пограничная линия нижеследующего направления отделяет Оттоманскую Империю от Республики Азербайджан, Грузии и Армянской Республики:

Граница начинается в том пункте, где река Чолок впадает в Черное море и сливается со старой границей 1877 г. до Шавнабат и проходя по линии вершин достигает гор Холхама и Менискари, отсюда поворачивает к югу, проходит по вершине горы Пирсачат и в двух километрах к югу от Абастумана, поворачивая к северо-востоку достигает вершины горы Кархут, направляясь отсюда сначала на 5 километров к северо-востоку, затем к юго-востоку, она доходит до Куркель, переходит через реку Куру в двух километрах к югу от Ацхург и проходя по линии вершин гор Кая-баши, Ортатави, Каракал, достигает Табицкурского озера непосредственно к югу от Молитского Монастыря, она переходит это озеро таким образом, что часть озера, находившаяся по югу по прямой линии, непосредственно проходящей с юга Молитского Монастыря к пункту, расположенному на противоположном берегу на расстоянии полутора километров на юго-восток северной оконечности озера таким образом, что часть эта остается на Оттоманской территории; затем она доходит до горы Тавкатели, спускается к югу и проходит по вершинам горной цепи Девекиран, до горы Агрикар. Граница далее следует по вершинам гор Башкран и Нуррахман, отсюда поворачивает на юг и следуя все время по вершинам гор в пяти километрах западнее Аг-Булага пересекает Александропом-Тифлисскую дорогу. Отсюда опять по вершинам гор идет до Хан-Вали и далее прямой линией до вершины Алагез, идя далее опять прямой линией пересекает Эчмиадзин-Сардарабское шоссе в 7 километрах западнее Эчмиадзина и огибая Эчмиадзин в семи километрах и приблизительно на расстоянии шести километров к северу от Александрополь-Джульфинской дороги параллельно ей доходит до дороги, идушей от Чан-Герни на железную дорогу, пересекая ее на расстоянии шестнадцати километров от Чан-Герни. Затем граница поворачивает к юго-востоку и на один километр западнее Ашаги-Карабаглар проходит через Шагаплу, Карахаг, Ашаги Чанахчи доходит до Альпин-чая и по этой реке до линии Арпа. Отсюда граница идет на восток по реке Арпа-чаю, доходит до местности Каялу, потом по Чаид-чаю до вершины Агдабан. Отсюда по вершинам Кара-Турма,

Арагил, Гаранлык-даг идет по долине реки Рамат-чай и следуя по течению этой реки пересекает старую русско-персидскую границу в местности Алидели к югу от Аза.

Статья III

Протоколы, заключенные между Азербайджанской Республикой и правительствами Республик Грузинской и Армянской, касательно определения их границ будут сообщены Императорскому Оттоманскому Правительству и эти протоколы составляют часть настоящего договора.

Статья IV

Императорское Оттоманское Правительство обязуется оказывать помощь вооруженной силой Правительству Азербайджанской Республики, буде таковое потребуется для обеспечения порядка и безопасности в стране.

Статья V

Правительство Азербайджанской Республики обязуется деятельно противодействовать формированию и вооружению банд в границах ее территории, а также разоружать и разгонять все банды, которые-бы там укрылись.

Статья VI

Договаривающиеся стороны обязываются оказать друг другу возможные облегчения в отношении железнодорожных перевозок путем установления и применения пониженных тарифов. В частности, в отношении перевозки материалов, необходимых для постройки, эксплуатации и содержания железных дорог и всех других общественных работ, будет применен особо пониженный тариф.

Обмен подвижного состава между железными дорогами договаривающихся сторон будет производиться по международным принципам, установленным на сей предмет.

Договаривающиеся стороны немедленно приступят к переговорам в целях установления подробностей вышеуказанных постановлений.

Статья VII

В виду отсутствия каких-либо трактатов, конвенций, соглашений, актов или других международных договоров между Оттоманской Империей и Азербайджанской Республикой, обе договаривающиеся стороны соглашаются заключить консульскую конвенцию, торговый договор и другие акты, кои они признали-бы необходимыми для регламентирования их правовых и экономических отношений.

Консульская конвенция будет заключена в течение 2 лет по обмену ратификациями настоящего договора. В течении этого переходного времени, обоюдные генеральные консула, консула и вице-консула будут пользоваться в отношении их привилегиями и деятельности условиями, наиболее благоприятствуемой нации на основе общего международного права на началах взаимности.

Переговоры о заключении торгового договора на основе общего международного права начнутся немедленно по заключении всеобщего мира между Турцией, с одной стороны, и государствами, находящимися с ней в войне, с другой. До этого времени и во всяком случае до 31 декабря 1919 г. с той и другой стороны будет применяться режим, установленный первым приложением к настоящему договору; от него можно отказаться с 30 июня 1919 г. после чего действие его будет продолжаться еще в течение 6 месяцев.

Сообщение по сухопутным путям начнутся со времени ратификации настоящего договора.

Статья VIII

Жители и сельские общества на территории одной из договаривающихся сторон, имеющие право собственности и владения недвижимостью по ту сторону границы, смогут пользоваться ими, эксплуатировать их или сдавать их в аренду, управлять ими, или продавать, лично или через посредника.

Никто не может быть лишен своих прав собственности на указанные недвижимости за исключением случая их отчуждения в целях общественной пользы и непременно с возмещением стоимости.

Никакие препятствия не будут чинимы переходу через границу жителей и представителей вышеуказанных сельских обществ, при представлении дорожных свидетельств, выдаваемых надлежащей властью в местах их пребывания и удостоверяется властями другой стороны: облегчения и особые льготы будут предоставлены переходу через границу и торговле пограничных местностей.

Подробности вышеприведенных постановлений регламентированы в II приложении к настоящему договору.

Статья IX

Впредь до вступления Азербайджанской Республики во всеобщий почтово-телеграфный союз, почтовые и телеграфные сношения между Оттоманской Империей и Азербайджанской Республикой будут восстановлены, по обмену ратификациями настоящего договора в согласии с постановлениями почтовых и телеграфных конвенций, соглашений и регламентов международного союза.

Статья X

Постановления коллективных и дополнительных договоров к миру, заключенному в Брест-Литовске между Оттоманской Империей и ее Союзниками и Россией будут действительны между договаривающимися сторонами, поскольку они не противоречат настоящему договору.

Статья XI

Настоящий договор будет ратифицирован и ратификации обменены в Константинополе в месячный срок, самое позднее, буде окажется возможным. Он вступит в силу в день сего обмена.
Во свидетельство чего полномочные подписали настоящий договор.

Учинен в двух экземплярах в Батуми.

Azərbaycan Respublikasi Dövlət Siyasi Partiyalar və Ictimai Hərəkatlar Arxivi, фонд № 277, опись № 2, связка № 1, един. хранения № 9



***VİLAYƏT QULİYEV***
***Azərbaycan Respublikasının***
***Xarici İşlər Naziri***

## ŞƏRQDƏ İLK RESPUBLİKA[*]

Hər bir millətin birliyi, mütəşəkkilliyi və yaradıcı gücü onun öz dövlətini qurmasında təzahür edir. Tarix boyu Azərbaycan xalqı dəfələrlə belə mütəşəkkilliyə, belə yaradıcı zəkaya malik olduğunu dönə-dönə sübut etmiş, öz dövlətini və dövlətçilik institutlarını yaratmışdır. Heç şübhəsiz, həmin dövlətlər arasında bizə tarixən ən yaxın və ən doğma olanı bu günlərdə 80 illiyini qeyd etdiyimiz Azərbaycan Xalq Cümhuriyyətidir. Azərbaycan Xalq Cümhuriyyəti 1918-ci ildə tarix səhnəsinə gəlsə də, müstəqillik ideyalarını xalqımızın,

[*] Azÿrbaycan Xalq Cömhuriyyÿtinin 80 illiyi ilÿ ÿlaqÿdar Milli Mÿclisin tÿntÿnÿli iclasînda (26 may 1998-ci il) edilmiø mÿruzÿ ÿsasînda hazîrlanmîødîr.

xüsusən də onun qabaqcıl hissəsini təşkil edən milli ziyalıların fəaliyyətində həmişə öncül, aparıcı yer tutmuşdu.

Tarixə Asiyanın oyanması kimi daxil olan 1905-ci il inqilabından sonra isə həmin ideyaların həyata keçməsi və inkişafı üçün obyektiv vəsait və müvafiq milli zəmin yaranmışdır. 1905-ci ildən sonra Azərbaycanın zəngin iqtisadi və mədəni-mənəvi potensialı, qısa müddət ərzində milli mətbuatın və maarif şəbəkəsinin formalaşması sayəsində azərbaycanlılar çar Rusiyasındakı türk-müsəlman xalqlarının avanqardına çevrilmişdilər. 1905-1907-ci illərdə Rusiya müsəlmanlarının Peterburq və Nijni-Novqorodda keçirilən I-III qurultayları və 1917-ci il Moskvada keçirilən Ümumrusiya müsəlmanlarının qurultayı azərbaycanlı ictimai-siyasi xadimlərin fəal iştirakı və faktiki rəhbərliyi altında gerçəkləşmişdi. Bu dövrdə Azərbaycanda Hümmət, daha sonra isə Müsavat, İttihad, Ədalət kimi siyasi partiyalar meydana çıxmış və onlar bir tərəfdən milli siyasi maraqların ifadə edilməsində və qorunmasında, o biri tərəfdən isə xalqın qabaqcıl hissəsinin siyasiləşdirilməsində mühüm rol oynamışdılar. Nəticədə Azərbaycan xalqı çarizmin süqut etdiyi 1917-ci ilə siyasi baxımdan qismən də olsa, mütəşəkkil və hazırlıqlı vəziyyətdə gəlmişdi.

XX əsrin ilk onilliklərində Azərbaycan ədəbi-ictimai fikrinin Cəlil Məmmədquluzadə və Sabir, Əhməd Ağaoğlu və Əli-bəy Hüseynzadə, Əlimərdan bəy Topçubaşov və Məmməd Əmin Rəsulzadə, Üzeyir Hacıbəyli və Ömər Faiq Nemanzadə kimi nümayəndələri xalqda milli hiss və düşüncələrin, vətəndaşlıq qayəsinin və azadlıq duyğusunun tərbiyə olunmasında mühüm rol oynamışdılar. Amerikalı azərbaycanşünas T.Svyatxovskinin yazdığı kimi, «1905-1917-ci illər arasında Azərbaycan xalqı son dərəcə qısa bir müddət ərzində müsəlman hümmətindən türk millətinə çevrilmək yolunu keçə bilmişdi». Bu milli özünüdərk prosesi, Azərbaycan cəmiyyətinin Avropa dəyərlərindən səmərəli şəkildə bəhrələnməsi və milli mənafelərin təsdiqinə yönəlmiş siyasi fəallıq 1918-ci ildə Azərbaycanda, bütün Yaxın və Orta Şərqin ilk Demokratik Cümhuriyyətini qurmağa imkan verdi. Azərbaycan Xalq Cümlıuriyyəti cəmisi 23 ay, yəni 700 gündən bir qədər çox yaşamışdı. Lakin tarix baxımından bir göz qırpımına bərabər olan bu qısamüddətli mövcudluq cümhuriyyət qurucularına bir tərəfdən son dərəcə çətin və mürəkkəb şəraitdə millətin və torpağın xilaskarı olmaq imkanını vermiş, o biri tərəfdən isə yalnız 1918-1920-ci illərdə deyil, rejim fərqinə baxmayaraq, sonrakı dövrdə də öz mövcudluğunu davam etdirən və bu gün də bizim varisi və vətəndaşı olduğumuz müstəqil, azad Azərbaycan dövlətinin qurulmasına şərait yaratmışdır.

Çarizmin süqutundan sonra müvəqqəti hökumət Qafqazın taleyini əvvəlcə xüsusi Qafqaz Komitəsinə, daha sonra isə Transqafqaz Komissarlığına həvalə etmişdi. Lakin regionda etnik və dini konfliktlərin, ərazi iddialarının və çoxsaylı problemlərin mövcud olduğu bir şəraitdə azərbaycanlı, gürcü və ermənilərin hərəsinin bir nümayəndə ilə təmsil olunduğu bu kollegial qurumlar demək olar ki, heç nəyə qadir deyildi. 1918-ci ilin fevralında Transqafqaz Seyminin yaradılması da vəziyyəti dəyişmədi. Yeri gəlmişkən qeyd edim ki, seym ideyası hələ 1905-ci ildə Azərbaycanın görkəmli ictimai-siyasi xadimi və publisisti Əlimərdan bəy

Topçubaşov tərəfindən irəli sürülmüşdü. Transqafqaz Komissarlığı kimi seymin və onun yaratdığı hökumətin fəaliyyəti Krılovun məşhur «Balıq, ördək və xərçəng» təmsilinin qəhrəmanlarının hərəkətlərini xatırladırdı. Həm də Azərbaycan Transqafqazda say, ərazi və təbii sərvətlər baxımından, eləcə də əlverişli geosiyasi mövqe baxımından üstün mövqe tutmasına baxmayaraq, bu dövrdə daha çox və daha sarsıdıcı zərbələrə məruz qalırdı. Bakıdakı dəhşətli mart qırğınından, eləcə də İrəvanda, Qarabağda, Zəngəzurda, Naxçıvanda, Şamaxıda, Qubada və başqa yerlərdə azərbaycanlılara qarşı ermənilər tərəfindən törədilən kütləvi soyqırımı aktlarından sonra Seymin heç bir konkret tədbir görməməsi, yaxud görə bilməməsi azərbaycanlıları haqlı olaraq Qafqaz birliyinin gələcəyinə naümid baxmağa vadar edirdi. Belə bir şəraitdə Seymin parçalanması labüd idi.

İlk addımı gürcülər atdılar. Mayın 25-də gürcü fraksiyasının rəhbəri Sereteli Azərbaycan fraksiyasının iclasına gələrək Seymin tərkibindən çıxmaq və müstəqil gürcü respublikası elan etmək niyyətlərini açıqladı. Cavab nitqi söyləyən Fətəli xan Xoyski azərbaycanlıların da müvafiq addım atmaq əzmində olduğunu bildirdi. Seymin azərbaycanlı deputatları mayın 27-də Azərbaycan Milli Şurasının yarandığını elan etdilər. Mayın 28-də Milli Şuranın ilk iclası keçirildi. Azərbaycanın dövlət müstəqilliyi məsələsinə münasibət barəsində Xəlilbəy Xasməmmədov məruzə etdi. O, dərhal Azərbaycanı müstəqil Demokratik Respublika elan etmək təklifi irəli sürdü. 26 nəfər Milli Şura üzvünün iştirak etdiyi iclasda Azərbaycanın «İstiqlal Bəyannaməsi» - Misaqi Milli qəbul edildi. Altı maddəlik bu bəyannamədə Azərbaycanın tamhüquqlu müstəqil dövlət və siyasi quruluş baxımından xalq cümhuriyyəti olduğu, bütün millətlər və xüsusən də qonşu xalqlara mehriban münasibətlər yaratmaq əzmi, bütün vətəndaşlarına bərabər hüquqlar təmin etməsi niyyəti öz əksini tapmışdır. Mayın 28-də Fətəli xan Xoyskinin başçılıq etdiyi ilk hökumət kabinetinin tərkibi müəyyənləşdirildi və Baş nazirin imzası ilə dünya dövlətlərinə radioteleqramlar göndərildi.

Əlbəttə, belə bir çətin şəraitdə Azərbaycanın müstəqilliyini elan etmək çox çətin idi. Həmin müstəqilliyi yaşatmaq və beynəlxalq birliyə qəbul etdirmək isə bundan qat-qat çətin idi. 1918-ci il iyunun 16-da Tiflisdən müvəqqəti paytaxt Gəncəyə gələn Azərbaycan hökuməti burada ilk ciddi böhranla qarşılaşdı. Türk hərbi missiyasının başçısı kimi Gəncədə olan və burada müəyyən dərəcədə ilhaqçıların, yəni Azərbaycanı Osmanlı imperiyasının bir əyalətinə çevirmək ideyası tərəfdarlarının təsiri altına düşən Nuru Paşa Azərbaycan hökumətini həddindən artıq sol təmayüllü və inqilabi sayaraq hətta onlarla görüşməkdən imtina etdi. Lakin son dərəcə böyük çətinliklər və ciddi güzəştlər bahasına olsa da, Milli Şuranın buraxılması buraya daxil idi. Eyni zamanda hökumətin tərkibində dəyişikliklər aparılması daxil idi. Bütün bunlara baxmayaraq, lazımi kompromis əldə edildi. Ən başlıcası, Azərbaycanın dövlət müstəqilliyi qorunub saxlandı. Hələ iyunun 4-də Türkiyə ilə bağlanmış müqavilə Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsində ona etibarlı müttəfiq qazandırdı.

Azərbaycan hökuməti Gəncədə milli dövlətçilik baxımından mühüm əhəmiyyətə malik bir sıra qərarlar qəbul etdi. Hökumətin fərmanı ilə 1918-ci il iyunun 24-də Azərbaycanın dövlət bayrağı qəbul edildi. İyuııun 27-də Azərbaycan türkcəsi dövlət dili elan olundu. Bundan bir gün əvvəl, iyunun 26-da isə azərbaycanlılardan, ümumiyyətlə, müsəlmanlardan ibarət «Dikaya diviziya»nın qalıqlarından ibarət müsəlman korpusu əlahiddə Azərbaycan korpusu adlandırıldı və bununla da Azərbaycanda Milli Ordu quruculuğunun əsası qoyuldu. Prezidentin bir neçə gün bundan əwəl imzaladığı fərmanla həmin tarix Azərbaycan Respublikasında Silahlı Qüvvələr günü elan olundu və bununla da varislik əlaqələri bir daha sübuta yetirildi. Hərbi quruculuq sahəsindəki işlərin məntiqi davamı kimi 1918-ci il sentyabrın 1-də Hərbi Nazirlik yaradıldı. Nəhayət, iyul ayında hökumət həm hüquqi, həm də siyasi baxımdan düzgün və uzaqgörən bir addım ataraq 1914-cü ildən etibarən bütün Transqafqaz ərazisində azərbaycanlılara qarşı işlənmiş cinayətləri təhqiq etmək üçün Fövqəladə Istintaq Komissiyası yaratdı.

Mövcudluğunun ilk aylarında Azərbaycan dövlətçiliyinin taleyi, necə deyərlər, tükdən asılı idi. Azərbaycan xalqının iradəsi ilə hesablaşmaq istəməyən Şaumyan və onun əksəriyyəti daşnaklardan ibarət Bakı Kommunası yeni müstəqil milli dövləti beşiyindəcə boğmaq istəyirdi. İyunun 12-də Bakı Sovetinin hərbi qüvvələri Şaumyanın əmri ilə Gəncə üzərinə yürüşə başladılar. Lakin iyunun 27-dən iyulun 1-dək Göyçay yaxınlığında gedən qanlı vuruşlarda Azərbaycan-türk hərbi birlikləri kommuna qoşunlarının hücumunu dayandırdı və tezliklə Bakı üzərinə əks-hücuma başladı. Sentyabrın 15-də min nəfərdən çox türk əsgərinin, beş min nəfərdən çox isə azərbaycanlı döyüşçüsünün həyatı bahasına Bakı düşməndən təmizləndi. Sentyabrın 17-də Azərbaycan hökuməti öz təbii və tarixi paytaxtına – Bakı şəhərinə köçdü. Lakin gənc Azərbaycan dövlətinin üzləşdiyi çətinliklər bununla sona yetmədi.

Birinci Dünya müharibəsində məğlub olan Türkiyə 1918-ci il oktyabrın 30-da imzaladığı Mudros sülh sazişinin şərtlərinə görə Azərbaycanı tərk etməli, Bakı isə müttəfiq qoşunlar tərəfindən işğal olunmalı idi. Noyabrın 17-də Bakıya gələn müttəfiq hərbi qüvvələrin komandanı, ingilis generalı Tomson əvvəlcə Azərbaycan dövlətinin müstəqilliyi haqqında eşitmək belə istəmədi. O, Bakını vahid və bölünməz Rusiyanın tərkib hissəsi sayır, Azərbaycan istiqlalı ideyasını xalqın arzusu deyil, bir ovuc ziyalının iddiası hesab edirdi. Lakin Bakıda keçirdiyi bir neçə ay, Azərbaycan siyasi xadimləri ilə daha sıx təmas ingilis generalını özünün bu yanlış fıkrindən daşınmağa məcbur etdi. İngilislər 1919-cu ilin avqustuna qədər Bakıda qaldılar və yalnız bu tarixdən etibarən Azərbaycan dövləti tam sərbəst siyasi mövcudluğuna başladı.

İngilislərin gəlişi ərəfəsində fəaliyyətini təzədən quran Milli Şura noyabrın 19-da Azərbaycan Parlamentinin yaradılması haqqında qanun qəbul etdi. Bir palatalı parlament 120 deputatdan ibarət idi. O, çox fraksiyalılıq əsasında qurulmuşdu. Müsavat, İttihad, Əhrar, Müsəlman sosialisti bloku, milli azlıqlar, rus, slavyan, erməni və daşnak fraksiyaları parlament fəaliyyətində öz mövqe və prinsiplərinə əsaslanaraq iştirak edirdilər. 1919-cu il dekabrın 7-də təntənəli şəkildə açılan Azərbaycan Parlamenti özünün il yarımlıq fəaliyyəti ərzində gənc

dövlətin qanunvericilik bazasının yaradılması işində mühüm rol oynamışdır. Azərbaycan Xalq Cümhuriyyəti parlament tipli respublika olduğundan ali qanunverici orqan, həm də dövlət idarəçiliyinin formalaşdırılması və həyata keçirilməsi sahəsində də səmərəli fəaliyyət göstərirdi. Parlamentin ilk iclasında Azərbaycan Cümhuriyyətinin qurucularından biri olan Əlimərdan bəy Topçubaşov onun sədri seçilmiş, lakin o, həmin dövrdə Azərbaycan missiyasının başçısı kimi Türkiyədə olduğundan, daha sonra isə Parisə – Versal Sülh Konfransına yollandığından onun vəzifələri vitse-spiker Həsənbəy Ağayevə həvalə edilmişdir. Parlamentin açılışında Məmməd Əmin Rəsulzadə nitq söyləmiş, deputat fraksiyalarının rəhbərləri proqram xarakterli nitqlər ilə çıxış etmişdilər. Azərbaycan Parlamentinin qəbul etdiyi mühüm qanunlar içərisində «Azərbaycan vətəndaşlığı haqqında», «Müəssislər Məclisinə seçkilər haqqında» kimi dövlətçilik baxımından mühüm əhəmiyyətə malik olan ciddi sənədlər vardır. Azərbaycan Milli Bankının, Bakı Dövlət Universitetinin yaradılması haqqında müvafiq qanunlar isə parlament dinləmələrindən sonra qəbul edilmişdir. Ümumiyyətlə, il yarım ərzində parlamentin müzakirəsinə 300-ə yaxın qanun layihəsi çıxarılmışdır.

Azərbaycan Xalq Cümhuriyyətinin mövcudluğunun ilk günlərində xarici siyasət məsələlərinə mühüm diqqət yetirildi. Cümhuriyyətin qurucuları milli dövlətçiliyimizin taleyinin yalnız xalqın iradəsindən deyil, həm də beynəlxalq münasibətlərdən, dünyanın aparıcı dövlətlərinin mövqeyindən asılı olduğunu dərk edir və gənc Azərbaycan Cümhuriyyətinin beynəlxalq miqyasda tanınması üçün var qüvvələri ilə çalışırdılar. Parlament öz fəaliyyətinin ilk ayında, 1918-ci il dekabrın 28-də Azərbaycanı Versal Sülh Konfransında təmsil etmək üçün Topçubaşovun rəhbərliyi ilə Parisə göndəriləcək nümayəndə heyətinin tərkibini təsdiq etmişdir. Böyük çətinliklər bahasına 1919-cu ilin mayında Parisə gəlib çıxan bu nümayəndə heyəti xarici siyasət sahəsində Azərbaycan diplomatiyasına ilk uğurlar qazandırmışdır. Onların gərgin və məqsədyönlü fəaliyyəti nəticəsində Versal Sülh Konfransının Ali Şurası 1920-ci il yanvar ayının 12-də Azərbaycan Cümhuriyyətinin de-fakto tanınması haqqında qərar qəbul etmişdir. Nümayəndə heyətinin ingilis və fransız dillərində Avropa ölkələrində, eləcə də Amerikada, Kanadada yaydığı çoxsaylı sənədlər Azərbaycanın tarixi, mədəniyyəti, iqtisadi potensialı, azərbaycanlılara qarşı erməni zülmü və soyqırımı haqqında geniş və obyektiv məlumatları özündə əhatə edirdi. Azərbaycan dövlətçiliyinin 1920-ci ilin aprelindəki süqutundan sonra da Avropa ölkələrində Azərbaycanın maraqlarını müdafiə edən nümayəndə heyətinin üzvləri ölkəmiz və xalqımız haqqında bir sıra həqiqətlərin avropalılara çatdırılmasında mühüm rol oynamışdılar.

Əlimərdan bəy Topçubaşovun Parisdən Azərbaycan Cümhuriyyətinin Nazirlər Şurasının sədrinin adına göndərdiyi geniş və əhatəli məlumatlar Azərbaycan dövlətçiliyinin qarşısında duran problemlər və onun gələcəyi ilə bağlı bu gün də öz əhəmiyyətini itirməyən mühüm və diqqətə layiq sənədlərdir. Azərbaycan istiqlalına tükənməz inam hissi ilə yazılmış həmin sənədlərin birində deyilirdi: «Doğrudur, bizi hələ dövlət kimi tanımırlar. Lakin getdiyimiz hər yerdə və hamıya artıq il yarımdan bəri bir dövlət kimi mövcud olduğumuzu bildirir, öz parlamenti, hökuməti, administrasiyası, məktəbləri, məhkəməsi, ordusu olan

Azərbaycanın müstəqil yaşadığını göstəririk. O Azərbaycan bolşeviklərə qarşı amansız mübarizəyə tab gətirib. Deməli, azərbaycanlılar siyasi həyat qabiliyyətinə malikdirlər və özlərinin müstəqil dövlətini qura bilərlər. Gücümüz çatdığı qədər, hətta çatmasa belə, bu vəziyyəti qoruyub saxlamalıyıq. Biz istərdik ki, hamı indi müstəqil, ictimai-siyasi və iqtisadi həyata qadir olduğumuzu sübut etmək üçün dünya qarşısında imtahan verdiyimizi yaxşı başa düşsün. İnanırıq ki, buna gücümüz çatacaq. Çünki xalqımız qabiliyyətli, ölkəmiz isə zəngindir. Lakin bizdə indiyə qədər əxlaqi başlanğıca əsaslanan siyasi məktəb olmadığından, geniş xalq kütlələrinin öz gənc dövlətinin müəssisələrindən, qurumlarından nümunə götürməsi və yaşadığımız indiki sınaq anının bütün ciddiyyətini dərk etməsi son dərəcə zəruridir. Paytaxt və rəhbər xadimlər – bax, Azərbaycana bütün varlığı ilə xidmət etməyin nümunəsini geniş xalq kütlələrinə onlar göstərməlidirlər. Ümumi borc xalqı səfərbər etmək və onu müstəqil mövcudluq ideyasının ətrafında sıx birləşdirməkdir. Çünki biz artıq şüurlarda geriyə dönüşə yol olmadığına və ola da bilməyəcəyinə əminik. Qarşımızda yalnız bir yol var: bu da Azərbaycanı əbədi müstəqilliyə aparan yoldur». 1919-cu ildə deyilən bu sözlər bu gün də öz qüvvə və əhəmiyyətini saxlamaqda davam edən müdrik kəlamlardır.

Azərbaycan Cümhuriyyətinin Parlamenti və hökuməti ölkənin müstəqilliyini qorumaq üçün döyüş qabiliyyətinə malik güclü ordunun yaradılmasına xüsusi diqqət yetirirdi. Cümhuriyyət yaranandan az sonra Azərbaycanın arxalana biləcəyi yeganə hərbi güc yuxarıda dediyim kimi, yalnız «Dikaya diviziya»nın qalıqlarından ibarət 600 nəfərlik müsəlman korpusu idi. Hökumətin səyi nəticəsində 1919-cu ilin sonlarına doğru Azərbaycan Ordusu artıq ilk piyada və bir süvari diviziyasından ibarət idi. Ordunu kadrlar ilə təmin etmək üçün qısa müddətdə Bakıda hərbi məktəb və hərbi dəmiryol məktəbi, Gəncədə istehkamçılar məktəbi, Şuşada hərbi feldşer məktəbi açılmış, Gəncədə hərbi sursat zavodu yaradılmışdır. Gürcüstandan və İtaliyadan ordu üçün sursat və texnika alınmışdır. Azərbaycan Ordusunun sərəncamında zirehli qatarlar, hərbi təyyarələr, zirehli avtomobillər vardı. Rusiyanın və Denikin hökumətinin bütün təzyiqlərinə baxmayaraq, Xəzərdə hərbi donanma yaradılması işinə başlanmışdır. Ən başlıcası isə qısa müddət ərzində xalqda öz silahlı qüvvələrinə etimad və məhəbbət hissi tərbiyə edilmişdir. Muğanda rus, Qarabağda erməni separatçılarına qarşı vuruşlarda Azərbaycan Ordusu öz döyüş qabiliyyətini nümayiş etdirmişdir. 1919-cu ilin sentyabrında Bakıda olmuş ingilis hərbi müxbiri Stokland Liddel gənc Azərbaycan dövlətinin qısa müddət ərzində ordu quruculuğunda qazandığı uğurlardan bəhs edərək yazırdı: «Mənə deyirdilər ki, Azərbaycanda ordu yerinə başıpozuq bir yığnaq görəcəyəm, lakin mən nizam-intizamlı, güclü, odlu-alovlu cavanlar ilə rastlaşdım. Yol boyu biz Azərbaycan ordusunun yüzlərlə cavan əsgəri ilə qarşılaşırdıq. Onlar bir il əvvəl gördüyüm əsgərlər deyildi. Onlar hətta bir ay əvvəl gördüyüm əsgərlərə də oxşamırdılar. Azərbaycan ordusu sürətlə təşkil edilirdi. Azərbaycan dərk edirdi ki, intizamsız ordu yaşaya bilməz. Azərbaycanda dəmir intizam hökm sürür, belə bir intizam hətta Rusiyada da yoxdur». İntizamsız və başıpozuq ordunun nəyə qadir olduğunu hər birimiz 1993-cü ilin iyununun acı təcrübəsindən kifayət qədər yaxşı gördük və yaxşı bilirik.

Qısamüddətli mövcudluğu dövründə Azərbaycan Xalq Cümhuriyyəti Azərbaycanın ərazi bülövlüyünü təmin etnıək, güclü ordu quruculuğunda, xalq təsərrüfatının inkişafında və mədəni quruculuğunda müəyyən uğurlar qazanmışdır. Neft istehsalı bərpa edilmiş, ticarət əlaqələri genişləndirilmişdir. Xalqın həyat səviyyəsi qismən yaxşılaşmışdır. Həmin dövrdə Qafqazın hər üç paytaxtında olmuş bir ingilis zabiti etiraf edirdi ki, asketik Tiflisdən və dilənçi İrəvandan sonra Bakı cənnəti xatırladır. Respublikanın prezidentinin bir neçə il ərzində gerçəkləşdirdiyi böyük işlər bu gün də eyni sözləri təkrarlamağa imkan verir.

Mədəni quruculuq sahəsindəki uğurlar da diqqətəlayiqdir. Bakı Dövlət Universiteti təsis edilmiş, ölkənin müxtəlif yerlərində yeddi kişi və bir qadın seminariyası açılmışdır. Kənd Təsərrüfatı İnstitutunun açılması barədə qanun layihəsi parlamentdə müzakirə edilirdi. Təhsilin milliləşdirilməsi istiqamətində müəyyən işlər görülmüş, ana dilində müəllim hazırlığı üçün pedaqoji kurslar təşkil olunmuşdur. Yüz nəfərə yaxın gənc Avropanın ali təhsil müəssisələrinə göndərilmişdir.

Azərbaycan Cümhuriyyəti yarandığı gündən dünyanın bütün dövlətləri, ilk növbədə isə region ölkələri ilə qarşılıqlı əməkdaşlıq prinsiplərinə üstünlük verirdi. Qısa müddət ərzində Azərbaycan-Türkiyə, Azərbaycan-İran və Azərbaycan-Gürcüstan münasibətlərində qarşılıqlı maraqlara əsaslanan anlaşma əldə edilmiş, Gürcüstanla hərbi ittifaq haqqında müqavilə imzalanmışdır. Hələ mövcudluğunun ikinci ilində Azərbaycan Cümhuriyyəti Dağıstan Respublikasına, Türküstana və Gürcüstan Respublikasına, habelə Kamal Atatürk Türkiyəsinə böyük miqdarda maddi yardım göstərmişdir. Azərbaycan Cümhuriyyəti qısa müddət ərzində keçmiş çar Rusiyasındakı bütün türk və müsəlmanların başlıca cazibə mərkəzinə çevrilmişdir. Dövlət qulluqçuları və ordu zabitləri arasında Anadolu və Türküstan türklərinin, Krım və Litva tatarlarının, Dağıstan türklərinin və başqa türkəsilli xalqların nümayəndələri vardı.

Azərbaycan hökumətinin sülhsevər siyasətinə baxmayaraq, bolşevik Rusiyası və daşnak Ermənistanı ilə münasibətləri qaydaya salmaq heç cür mümkün olmamışdır. Onlardan birincisi Bakının neft yataqlarını ələ keçirmək istəyir, ikinci isə Azərbaycan torpaqları hesabına öz ərazisini genişləndirməyə can atırdı. Digər obyektiv və subyektiv amillər ilə birlikdə bolşevik-daşnak alyansı da Azərbaycan Cümhuriyyətinin süqutunda mühüm rol oynamışdır.

1920-ci ilin yazında Azərbaycanda vəziyyət kəskin şəkildə pisləşməyə başladı. Qızıl Ordu hissələri ölkəni şimaldan təhdid edirdi. Bolşeviklər ilə əlbir fəaliyyət göstərən daşnaklar da martın 22-də Xankəndində qiyam qaldırmışdılar. Əsas təhlükənin şimaldan gözlənilməsinə baxmayaraq, hökumət ordu hissələrini Qarabağa çəkməyə məcbur olmuşdur. Bütün bunlar azmış kimi, belə bir məsul anda Azərbaycan həm də ciddi hökumət böhranı yaşamağa başlamışdır. Hökumətin iki üzvü - xarici işlər naziri Fətəli xan Xoyski və daxili işlər naziri Məmməd Həsən Hacınski arasındakı konflikt hökumət böhranına gətirib çıxardı. Xoyski bolşevik Rusiyasına münasibətdə sərt kurs tərəfdarı idi. O, bolşeviklərə münasibətdə loyal mövqe tutan Hacınskinin yerinə daha milli və daha radikal düşüncəli daxili işlər naziri təyin olunmasını, sosialistlərə qarşı sərt mövqe tutulmasını,

parlamentin buraxılmasını və hakimiyyətin Dövlət Müdafiə Komitəsinin əlində cəmləşdirilməsini, yaxın altı ayda Müəssislər Məclisinin çağırılmasını tələb edirdi. Xoyski qrupunun fəaliyyəti nəticəsində Hacınski Daxili İşlər Nazirliyindən uzaqlaşdırılsa da, sənaye və ticarət naziri kimi hökumətin tərkibində qaldı və öz tərəfdarlarının yardımına arxalanaraq Nəsib bəy Yusifbəyli hökumətinin istefasına nail oldu. Parlament yeni hökumət kabineti yaratmağı Hacınskiyə həvalə etdi. O isə parlamentdəki deputat fraksiyaları ilə açıq, bolşeviklərlə gizli sövdələşməyə başladı və yalnız aprelin 22-də hökumətin təşkili ilə bağlı aldığı səlahiyyətlərdən imtina etdiyini bildirdi. Özü isə bolşevik partiyasının sıralarına daxil oldu. Beləliklə, ciddi təhlükə ilə üzləşən Azərbaycan Cümhuriyyəti öz mövcudluğunun sonuncu ayında əslində idarə olunmaq bir şəklə düşdü və bu da öz növbəsində aydın məsələdir ki, işğalçı qüvvələrin xeyrinə idi. Belə bir şəraitdə parlamentdə çoxsaylı deputat fraksiyası olan Müsavatın və onun lideri Məmməd Əmin Rəsulzadənin nisbi fəaliyyətsizliyi ən azı təəccüb doğurur.

1920-ci il aprelin 27-də Qırmızı Ordu hissələri dünya birliyi tərəfindən de-fakto tanınmış Azərbaycan Cümhuriyyətinin dövlət sərhədlərini pozaraq sürətlə paytaxt Bakıya doğru irəliləməyə başladı. Azərbaycan Parlamentinə hakimiyyəti bolşeviklərə vermək barəsində ultimatum təqdim edildi. Parlamentdəki bir günlük qızğın müzakirələrdən sonra aşağıdakı şərtlərlə hakimiyyəti bolşeviklərə təslim etmək qərara alındı:

1. Rus ordusu Bakıya girmədən dəmir yolu ilə birbaşa Anadoluya gedəcək.
2. Azərbaycanın iqtisadi və ərazi bütövlüyü qorunacaq.
3. Azərbaycan ordusu olduğu kimi saxlanılacaq.
4. Azərbaycanın siyasi partiyaları öz hərəkət sərbəstliyini mühafizə edəcək.
5. Keçmiş dövlət xadimləri, hökumət üzvləri və millət vəkillərindən heç biri siyasi cinayətlərdə ittiham edilməyəcək.
6. Azad şəraitdə toplanacaq Azərbaycan Şuralar İİttifaqı hökumətin idarə şəklini müəyyən edəcək. Qırmızı Ordunun, qeyd etdiyim kimi, aprelin 27-də Azərbaycan ərazisinə soxulmasına baxmayaraq, bolşeviklərin yaratdığı Hərbi İnqilab Şurası yalnız aprelin 29-da yardım üçün Sovet Rusiyasına müraciət etdi. Bu da ənənəvi bolşevik riyakarlığının təzahürüdür. Bolşeviklər dünya ictimaiyyətində elə rəy yaratmaq istəyirlər ki, guya milli Azərbaycan dövləti xarici təcavüz nəticəsində deyil, xalq üsyanı nəticəsində süquta uğrayıb. Qəbul edilmiş şərtlərə gəldikdə isə onlar elə ertəsi günü unuduldu. Sonralar Nəriman Nərimanovun ürək ağrısı ilə qeyd etdiyi kimi, Azərbaycanda bolşevik hakimiyyətinin bal ayı başa çatmamış, terror və təqiblər ayı başlandı. Daşnak-bolşevik alyansının əlbir fəaliyyəti nəticəsində Azərbaycanın istiqlalı yolunda çalışmış Fətəli xan Xoyski, Nəsib bəy Yusifbəyli, Həsən bəy Ağayev, Xudadat bəy Rəfibəyli, Firudin bəy Köçərli və onlarla başqaları qırmızı terror və qanunsuz hərbi məhkəmələr yolu ilə aradan götürüldü. Azərbaycan ordusunun komanda heyətinə xüsusi amansızlıqla divan tutuldu. Siyasi partiyalar qadağan edildi. Milli hökumət ilə bu və ya başqa şəkildə bağlı olanların təqibi başlandı. Bu işdə Pankratov və Mikoyanlar, Kirov və

Sarkislər ilə birlikdə 20-ci illərin Surət Hüseynovları, Rəhim Qazıyevləri adlandırıla biləcək Əliheydər Qarayevlər, Mirzə Davud Hüseynovlar, Çingiz İldırımlar da xüsusi fəallıq göstərirdilər. Belə bir şəraitdə Nəriman Nərimanovun siyasi hakimiyyətə gəlişi, onun tutduğu sərt və qətiyyətli mövqe Azərbaycan xalqına qarşı çevrilmiş total terroru nisbətən də olsa səngidə bildi, Azərbaycan dövlətçiliyinin daşıyıcısı olan ikinci respublikanın milli xüsusiyyətlərdən tamamilə təcrid edilməsinin qarşısını aldı.

Azərbaycan Cümhuriyyətinin süqutu, yuxarıda qeyd etdiyim kimi, bir sıra obyektiv və subyektiv amillərlə bağlı idi. Hər şeydən əvvəl, İngiltərə və Fransa kimi klassik müstəmləkə ölkələri keçmiş müstəmləkələrin istiqlaliyyət qazanmasına, dünyanın siyasi xəritəsinin yenidən cızılmasına maraq göstərmirdilər. Çünki bu, onların öz müstəmləkələrində də milli azadlıq əhval-ruhiyyəsini gücləndirə bilərdi. Digər tərəfdən, bolşevik ideyalarının səmtini Avropaya deyil, Şərqə yönəltmək kimi strateji mülahizələr də Qafqaz və Mərkəzi Asiya xalqlarının istiqlalına münasibətdə Avropanın soyuq və laqeyd davranmasına təkan verirdi. Başqa bir mühüm amil, ümumiyyətlə, həmin dövrdə Avropa ölkələrinin proletariatı arasında kommunizm ideyalarına və solçuluğa meylin qüvvətlənməsi idi. Elə bir şəraitdə Avropa ölkələrinin hökumətləri öz xalqlarının iradəsi əleyhinə çıxaraq Rusiyaya qarşı çox sərt və qəti sanksiyalar tətbiq etməkdən çəkinirdilər. Heç şübhəsiz, Azərbaycanın işğal olunmasında və onun dövlət müstəqilliyinə son qoyulmasında neft amili də son dərəcə mühüm rol oynamışdır. Bakı nefti olmadan Sovet Rusiyasının mövcudluğu qeyri-mümkün idi. Təsadüfi deyil ki, 1920-ci ilin martında Azərbaycan dövlətçiliyinin süqutundan bir ay əvvəl Lenin Orconikidzeyə və Smilqaya göndərdiyi teleqramda yazırdı: «Bakını tutmaq bizə son dərəcə, son dərəcə zəruridir. Bütün qüvvələrinizi bu işə sərf edin». Daşnak Ermənistanın ərazi iddiaları və Azərbaycanda apardığı geniş təxribat-pozuculuq işlərində həm Denikin, həm də bolşevik Rusiyası ilə əməkdaşlıq yolu tutan ruspərəst, böyükdövlətçi və şovinist qüvvələr də Azərbaycanda müstəqil dövlətçiliyin dayaqlarını sarsıtmağa xidmət edirdi. Bunu etiraf etmək bizim üçün nə qədər ağır olsa da, 1920-ci ildə Türkiyə də artıq Azərbaycan ilə deyil, bolşevik Rusiyası ilə əməkdaşlıq etməyə daha çox üstünlük verirdi. Öz mövcudluğu uğrunda ölüm-dirim mübarizəsi aparan Mustafa Kamal Türkiyəsi Qafqazdakı maraqlarından Rusiyanın xeyrinə imtina etməklə sonuncudan hərbi dəstək alırdı. Subyektiv səbəblərə gəldikdə isə, burada ilk növbədə dövlətçilik təcrübəsinin olmamasını, partiya maraq və ehtiraslarının bir sıra hallarda milli maraqları üstələməsini, ayrı-ayrı şəxslərin və qrupların hakimiyyət hərisliyini və s. qeyd etmək lazımdır. Azərbaycan hər tərəfdən düşmənlə əhatə olunduğu bir vəziyyətdə qələbədən sərməstlik və arxayınçılıq əhval-ruhiyyəsinin təzahürlərinə də təsadüf edirdi. Hökumət bir sıra hallarda kifayət qədər kəskin və qətiyyətli hərəkət etməyi bacarmırdı. Bu özünü, xüsusilə rus və erməni milli şuralarının təxribatçı, pozucu hərəkətlərinə münasibətlərdə daha aydın göstərirdi. Hakimiyyəti öz məşuqələri ilə bölən nazirlərə, rüşvətxor məmurlara təsadüf olunurdu. Azərbaycan Cümhuriyyətinin iki illik mövcudluğu ərzində beş hökumət kabinetinin meydana çıxması da ölkədə mürəkkəb şəraitin tələblərinə cavab verən stabil dövlət aparatının yaradılmadığını göstərirdi. Nəhayət, belə bir

məsuliyyətli anda milləti öz ətrafına birləşdirən ümummilli liderin yetişməməsi də Cümhuriyyətin məğlubiyyətini şərtləndirən səbəblərdən biri idi.

Lakin bütün uğurları və çatışmazlıqları ilə Azərbaycan Cümhuriyyəti bizim haqlı qürur mənbəyimiz və XX əsrdəki dövlətçilik məktəbimizdir. Əgər 1918-ci ildə Azərbaycanın fədakar oğulları gərgin mübarizələr noticəsində Azərbaycan Cümhuriyyətini yaratmasaydılar, onun dövlət sərhədlərini müəyyənləşdirməsəydilər, Azərbaycanı beynəlxalq hüququn subyektinə çevirməsəydilər, hətta bolşevik eqidası altında olsa da, Azərbaycan dövlətinin qurulması son dərəcə çətin və əzablı bir prosesə çevrilərdi. Nəhayət, bir tərəfdən, Azərbaycan Cümhuriyyəti, o biri tərəfdən isə Araz Respublikası və Cənub-Qərbi Qafqaz Respublikası 1918-1920-ci illərdə Azərbaycan xalqını kütləvi erməni soyqırımından qismən də olsa qorudu. Tarixi Azərbaycan torpaqlarının tam şəkildə ermənilər tərəfindən işğal olunmasının qarşısını aldı.

Azərbaycan Cümhuriyyəti kollektiv ağlın və zəkanın bəhrəsi idi. Onun qurulmasında Azərbaycan xalqının ən yaxşı oğulları iştirak etmişlər. Bu müqəddəs işdə Topçubaşovun, Xoyskinin, Nəsib bəy Yusifbəylinin və Həsən bəy Ağayevin rolu və xidmətləri heç də Məmməd Əmin Rəsulzadənin xidmətlərindən az olmamışdır. Ona görə də bu gün kiminsə rolunun süni surətdə şişirdilməsinə, süni büt axtarışlarına ehtiyac yoxdur. Tarixi olduğu kimi öyrənmək lazımdır.

Ayrı-ayrı müxalifət liderləri bəzən belə bir əsassız iddia ilə çıxış ediblər ki, guya Azərbaycanda milli hökumət yalnız 1918-1920 və 1992-1993-cü illərdə mövcud olmuşdur. Bu iddianın əsassızlığını sübut etməyə belə ehtiyac yoxdur. Az öncə Azərbaycan Cümhuriyyətinin Azərbaycan SSR-in qurulması üçün zəmin hazırladığını qeyd etmişdim. Eləcə də, 70 il ərzində Sovet rejimi şəraitində yaşamasına baxmayaraq, Azərbaycan SSR öz milli varlığını, tarixini və mədəniyyətini qoruyub saxlamış, güclü iqtisadi inkişaf yolu keçmiş və nəticə etibarı ilə üçüncü respublikanın - müstəqil Azərbaycan Respublikasının sələfinə çevrilmişdir. Xüsusilə 1969-1982-ci illərdə, prezident Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə gələcək müstəqilliyimizin siyasi, maddi və mənəvi bazasının yaradılmasına xüsusi diqqət yetirilmişdir.

Tarixin həqiqi mənzərəsi belədir və onun ayrı-ayrı hissələrini, ayrı-ayrı liderlərini özününküləşdirməyə heç kimin mənəvi haqqı yoxdur. Yəqin ki, hələ Kommunist partiyasının hakimiyyətdə olduğu 1974-cü ildə Heydər Əliyevin Azərbaycan Cümhuriyyətinin qurucularından biri olan Əlimərdan bəy Topçubaşovun oğlu Ələkbər bəy Topçubaşini Azərbaycana dəvət etməsi, yenə də eyni dövrdə Azərbaycan Cümhuriyyətinin Parisdə olan arxivinin vətənə qaytarılması yollarının araşdırılması barəsində müvaflq göstəriş verməsi çoxlarına bəlli idi. Hamımızın yadındadır ki, Azərbaycan Cümhuriyyətinin üç rəngli bayrağı ilk dəfə 1990-cı ilin noyabrında Naxçıvanda qaldırılmışdır. 1994-cü ildə Heydər Əliyevin sərəncamı ilə Azərbaycan Cümhuriyyətinin qurucularından biri olan Məmməd Əmin Rəsulzadənin anadan olmasının 110 illiyi ölkəmizdə geniş qeyd edilmişdir. Azərbaycan Cümhuriyyəti 75 illiyinin 1993-cü ildə özlərini bu Cümhuriyyətin birbaşa varisləri və davamçıları sayanların hakimiyyəti dövründə necə qeyd edildiyi hamının

yadındadır. Bu gün, Cümhuriyyətin 80 illiyinin bayram edildiyi günlərdə isə tam yəqinlik hissi ilə demək olar ki, Azərbaycan Prezidentinin Azərbaycan xalqının və Azərbaycan dövlətçiliyinin taleyi ilə bağlı bu mühüm məsələyə böyük qayğısı nəticəsində həm Cümhuriyyət dövrü, həm də onun liderləri ilə bağlı bilik və təsəvvürlərimiz əhəmiyyətli dərəcədə genişlənmişdir. Azərbaycan ordusu və Azərbaycan polisinin yaranma günlərinin Cümhuriyyət dövründəki tarixlərdən hesablanması haqqında Prezident fərmanları, dövlətin varisliyi ənənələrinə qayğının və bu ənənələrə əməl olunduğunun parlaq təzahürüdür.

Respublikanın müxtəlif nəşriyyatlarında bu günlərdə Cümhuriyyət dövrü ilə bağlı 500 müəllif vərəqi həcmində sənəd və materiallar, elmi araşdırma və tədqiqatlar nəşr edilir. Təkcə Azərbaycanda deyil, onun hüdudlarından kənarda – Gürcüstanda, Türkiyədə, Fransada Cümhuriyyət liderlərinin xatirələri əbədiləşdirilib. Yaxın keçmişimizin bu şanlı tarixi ilə bağlı tədbirlər həyata keçirilir.

Azərbaycan Cümhuriyyəti 1920-ci ildə tarixə qovuşub. Lakin öz şanlı ənənələri ilə bizim bugünkü müstəqilliyimiz, dövlətçilik həyatımızda yaşamaqda davam edir. Azərbaycan Prezidenti Heydər Əliyevin xilaskarı və qurucusu olduğu müstəqil Azərbaycan Respublikasının bir zamanlar Cümhuriyyət qurucularının kiçik Gəncədə qaldırdıqları müqəddəs bayrağı bu gün bütün dünya miqyasında qürur ilə dalğalandırır.

Bu dəfəki müstəqilliyin sonsuza qədər davam edəcəyi, əbədi olacağı artıq heç kimdə şübhə doğurmur.

# *AZƏRBAYCANDA QURTULUŞ GÜNÜNÜN 10-CU İLDÖNÜMÜ*

**Qurtuluş Gününün 10 illiyinə həsr olunmuş təntənəli yubiley gecəsi**

Yeni Azərbaycan Partiyası iyunun 13-də Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında Milli qurtuluş gününün 10 illiyinə həsr olunmuş yubiley gecəsi keçirmişdir.

Azərbaycan Respublikasının dövlət himni səsləndi.

Yeni Azərbaycan Partiyası idarə heyətinin üzvü, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov "Qurtuluş gününün 10 illiyi" haqqında geniş məruzə etdi. O dedi ki, öz mürəkkəbliyi və ziddiyyətləri ilə səciyyələnən son onilliklərdə dünyanın siyasi xəritəsində baş vermiş dəyişikliklər, yeni müstəqil dövlətlərin yaranması, qüdrətli milli liderlərin siyasi səhnəyə çıxmasını zəruri etmişdi. Belə bir dövrdə xalqımızın əsrlər boyu arzuladığı güclü Azərbaycan dövlətini qurmaq, xalqımızı problemlər məngənəsindən xilas etmək kimi tarixi missiyanı yalnız Heydər Əliyev kimi şəxsiyyət yerinə yetirə bilərdi. Sovetlər İttifaqı dağıldıqdan sonra müstəqilliyini yenicə əldə etmiş Azərbaycan 1993-cü ilə qədər problemlər, ziddiyyətlər, daxili çəkişmələr məkanına çevrilmişdi. Siyasət dünyasında görkəmli şəxsiyyət kimi tanınan Heydər Əliyev xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra öz aydın və parlaq zəkası, zəngin siyasi və dövlətçilik təcrübəsi ilə ölkəmizi qeyri-sabit, hərc-mərclik məngənəsindən xilas etdi və Azərbaycanı xoşbəxt gələcəyə aparan işıqlı yola çıxardı. Onun qətiyyəti sayəsində vətəndaş müharibəsinin qarşısı alındı, siyasi sabitlik təmin edildi.

Məruzəçi Azərbaycan Prezidenti Heydər Əliyevin xalqımız və müstəqil dövlətimiz qarşısındakı xidmətlərindən danışarkən, onu öz ölkələrinin tarixində əbədi yer tutmuş Corc Vaşinqton, Mustafa Kamal Atatürk, Şarl de Qoll kimi görkəmli şəxsiyyətlərlə müqayisə etdi.

H.Abutalıbov öz istedadı və bacarığı ilə çağdaş Azərbaycanın həyatında mühüm yer tutan, beynəlxalq aləmdə ölkəmizi layiqincə təmsil edən Avropa Şurası Parlament Assambleyası sədrinin müavini və Büro üzvü İlham Əliyevin xidmətlərindən də danışdı, onun böyük siyasətə hazır olduğunu xüsusi vurğuladı. Məruzəçi dedi ki, XX əsrdə tale Azərbaycana iki böyük nemət bəxş etmişdir. Bunlardan birincisi dövlət müstəqilliyimizə yenidən qovuşması, ikincisi isə dünyada görkəmli siyasətçi və dövlət xadimi kimi çox böyük nüfuz qazanmış Heydər Əliyevdir. Xalqımız əmindir ki, Azərbaycan öz dahi oğlunun rəhbərliyi altında həyatın bütün sahələrində bundan sonra daha böyük nailiyyətlər əldə edəcək, dünya dövlətləri arasında özünə layiqli yer tutacaqdır.

Təntənəli yubiley gecəsinin iştirakçıları adından Azərbaycan Prezidenti Heydər Əliyevə müraciət qəbul olundu.

**Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri Zati-Aliləri cənab Heydər Əliyevə ünvanlanmış müraciət**

Möhtərəm cənab Prezident!

Xalqımızın dahi oğlu Heydər Əliyevin tarixi qayıdışından qaynaqlanan Milli qurtuluş gününün 10-cu ildönümü münasibətilə Sizi Yeni Azərbaycan Partiyasının çoxminli üzvləri adından səmimi qəlbdən təbrik edir, Sizə möhkəm cansağlığı, uzun ömür, Vətənimizin tərəqqisi naminə fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayırıq.

Xalqımızın müstəqillik tarixində müstəsna yeri olan Milli qurtuluş günü ilə ölkəmizin həyatında yeni dövr başlanmış, dövlətçiliyimizin möhkəmlənməsi, müstəqilliyimizin dönməz və əbədi olması üçün mühüm və səmərəli fəaliyyətin əsası qoyulmuşdur. Xalqımızın tarixi yaddaşına əbədi həkk olunmuş Qurtuluş bayramı ölkəmizin hər yerində Sizin şəxsiyyətinizə dərin hörmət və məhəbbətlə, xalqa göstərdiyiniz təmənnasız və fədakar xidmətinizə verilən böyük qiymət və minnətdarlıq hissi ilə qeyd olunur.

Böyük bir imperiyanın çökməsi səbəbindən XX əsrin sonlarına doğru yenidən müstəqillik qazanmaq kimi tarixi fürsət əldə edən Azərbaycan qısa vaxtdan sonra bu müstəqilliyin itirilməsi təhlükəsi ilə üzləşdi. Həmin dövrdə iqtidarda olanların səbatsız, səriştəsiz və xəyanətkar əməllərinin məntiqi nəticəsi olan hakimiyyət böhranı 1993-cü ilin iyununda ən yüksək nöqtəsinə çatmış, ölkənin xaos və anarxiya bürümüş, vətəndaş müharibəsi dərəcəsinə yüksəlmiş qarşıdurma nəinki dövlət müstəqilliyimizi, hətta milli varlığımızı belə birbaşa hədəfə almışdı.

10 il bundan əvvəl, doğma Vətənimiz və dövlətçiliyimiz üçün son dərəcə ağır sınaq günlərində xalq yeganə ümid və pənahını Sizdə tapdı, özünün dəfələrlə sınanmış müdrik və qüdrətli oğluna, ümummilli liderinə müraciət etdi. Sizin xalqımızın çağırışına, israrlı və təkidli tələblərinə səs verərək, böyük xilaskarlıq missiyasını öz üzərinizə götürməyiniz və tarixi qayıdışınız Vətənimizi böyük təhlükələrdən xilas etdi, onun həyatının yeni mərhələsinin əsasını qoydu.

10 il ərzində həyata keçirdiyiniz uzaqgörən siyasət sayəsində ölkədə qanunçuluq bərpa olundu, sabitlik təmin edildi, atəşkəsə nail olundu. Müstəqil dövlətimizin ilk Konstitusiyası qəbul edildi. Azərbaycanda demokratik, dünyəvi və hüquqi dövlət quruldu. Müasir demokratiyanın tələblərinə cavab verən ali qanunverici, icraedici və məhkəmə hakimiyəti sistemi formalaşdı, çoxpartiyalı sistem əsasında parlament və bələdiyyə seçkiləri keçirildi. İqtisadi islahatlar aparıldı. İnsanların rifahı yüksəldi.

Bu illər ərzində apardığınız müdrik xarici siyasətin uğurları da göz önündədir. Azərbaycanın beynəlxalq nüfuzu artmış, əlaqələri genişlənmişdir. Ölkəmiz beynəlxalq və regional təşkilatlarda ləyaqətlə təmsil olunur və fəal iştirak edir. İlham Əliyevin Avropa Şurası Parlament Assambleyası sədrinin müavini seçilməsi bunun

bariz ifadəsidir. Dağlıq Qarabağ probleminin sülh yolu ilə həll edilməsi yönündə mühüm irəliləyişlər əldə edilmiş, dünyanın aparıcı dövlətlərinin bu məsələnin həllinə marağı artmışdır.

Sizin rəhbərliyinizlə həyata keçirilən neft strategiyasının uğurlu nəticələri nəinki ölkəmizin vətəndaşlarının, həm də bütün dünyanın diqqət mərkəzindədir. Bakı-Tbilisi-Ceyhan neft boru kəməri artıq reallığa çevrilmişdir. Xalqımızın təminatlı gələcəyinin əsası qoyulmuşdur.

Möhtərəm cənab Prezident!

Sizin tarixi qayıdışınızdan 10 il ötür. Bu illər ərzində Siz xaos, anarxiya və dərin böhran içərisində olan məmləkətdən müstəqil, xoşbəxt, Yeni Azərbaycanı qurdunuz. Həqiqətən də xilaskar, xalqı xoşbəxt gələcəyə aparan dahi bir şəxsiyyət, ümummilli lider olduğunuzu bir daha sübuta yetirdiniz. Xalq müstəqil dövlətimizin banisi və qurucusu kimi Sizə inanır, etimad göstərir, övladlarının gələcək taleyini etibar edir. Qarşıdan gələn növbəti prezident seçkilərində Sizi özünün yeganə və yekdilliklə qəbul edilən namizədi sayır. İnanırıq ki, oktyabrda keçiriləcək prezident seçkiləri Heydər Əliyevə xalq məhəbbətinin və dəstəyinin yeni bariz ifadəsinə çevriləcəkdir.

Möhtərəm cənab Prezident!

Yaradıcısı və sədri olduğunuz Yeni Azərbaycan Partiyasının hər bir üzvü Sizi xalqımızın Milli qurtuluş gününün 10 illiyi münasibətilə bir daha səmimi qəlbdən təbrik edir, Sizə ölkəmizin parlaq gələcəyi naminə göstərdiyiniz yorulmaz fəaliyyətinizdə yeni-yeni zəfərlər arzulayır.

Uca Tanrı Sizi qorusun!

13 iyun 2003-cü il.

«AZƏRTAC», 13.06.03



***NOVRUZ MƏMMƏDOV***
***Azərbaycan Respublikası***
***Prezidentinin İcra Aparatının***
***Xarici əlaqələr şöbəsinin müdiri***
***filologiya elmləri namizədi***

## Prezident Əliyevin xarici siyasət kursu Azərbaycanın təhlükəsiz, davamlı və dinamik inkişafının qarantıdır

SSRİ-nin dağılması və sosializm sisteminin süqutu planetimizin siyasi mənzərəsinin ciddi şəkildə dəyişməsinə və yeni geosiyasi vəziyyətin yaranmasına səbəb oldu. Postsovet məkanında meydana çıxan müstəqil dövlətlərin beynəlxalq münasibətlər sisteminin subyektinə çevrilməsi və öz maraqlarını ifadə edən xarici siyasət xəttini həyata keçirməyə başlaması dövlətlərarası münasibətlərin yeni paradiqma və imperativlərini formalaşdırdı. Bu, bir tərəfdən, beynəlxalq aləmdə siyasi gərginliyin azalması, qlobal qarşıdurmanın aradan qalxması ilə səciyyələnir, siyasi, iqtisadi və hərbi baxımdan strateji əhəmiyyət kəsb edən və mənafelərin kəsişdiyi məntəqələrə çevrilən bir sıra regional mərkəzlərin meydana çıxması ilə müşayiət olunurdusa, digər tərəfdən, müxtəlif dairələr tərəfindən qızışdırılan təcavüzkar separatçılıq meyllərinin güclənməsinə gətirib çıxarırdı.

Bu proseslərin gedişində öz dövlət müstəqilliyini bərpa edən Azərbaycanın qarşısında duran ən mühüm vəzifələrdən biri ümummilli maraqları ehtiva edən xarici siyasət kursunun müəyyənləşdirilərək həyata keçirilməsi idi. Lakin müstəqilliyimizin ilk illərində respublikada siyasi hakimiyyətdə olan dairələr dövlətin qarşısında dayanan ümdə vəzifələri nəinki müəyyən edə bilmədilər, hətta yol verdikləri kobud səhvlər nəticəsində, digər sahələr kimi, xarici siyasəti də bərbad vəziyyətə saldılar.

1991-ci ildə və 1992-ci ilin birinci yarısında Azərbaycan dövlətinin xarici siyasətinin əsasını Rusiya-Azərbaycan əlaqələri və bütövlükdə Rusiyaya meyllilik təşkil edirdi. A.Mütəllibov Respublikada gedən ictimai-siyasi proseslərə, beynəlxalq və regional hadisələrin inkişaf meyllərinə zidd siyasət yeridərək, bütün mümkün vasitələrlə imperiyanı qoruyub saxlamağa çalışanlarla bir sırada dayanırdı.

Hətta SSRİ dağıldıqdan sonra da A.Mütəllibov «solluq uşaq» xəstəliyindən xilas ola bilmədi. Bu isə, təbii ki, həmin dövr üçün Azərbaycanın siyasi, iqtisadi maraqlarını təmin edə bilməzdi, onun müstəqilliyinin, təhlükəsizliyinin, ərazi bütövlüyünün, suveren dövlət hüquqlarının qorunmasına və beynəlxalq təminatına imkan vermişdir. Buna görə də həmin mərhələdə yeridilən siyasət Azərbaycanın dövlət mənafelərini

bütövlükdə dövlətlərarası, regional və beynəlxalq münasibətlərin əsas inkişaf tendensiyası ilə uzlaşdırmağa mane oldu. Bu illərdə Azərbaycan hökumətinin xarici siyasətini xarakterizə edən əsas cəhətlərdən biri vahid xətt üzrə aparılan ardıcıl və prinsipial xarici siyasət kursunun olmaması idi.

Ə.Elçibəy hökumətinin xarici siyasət kursu, ikitərəfli və çoxtərəfli əlaqələr çərçivəsində həyata keçirdiyi tədbirlər bütövlükdə vahid bir konsepsiya və sistem əsasında deyil, ayrı-ayrı vəzifəli şəxslərin təsadüfi bəyanatları, çox vaxt bir-birini təkzib edən, ziddiyyətli və emosional çıxışları üzərində qurulmuşdu. Xarici siyasət və diplomatik missiya qarşısında duran əsas vəzifələri, Azərbaycan dövlətinin strateji mənafelərini, regional və beynəlxalq münasibətlər sahəsində dövlət siyasətini müxtəlif səviyyəli dövlət rəhbərləri fərqli şəkildə interpretasiya edərək, bir-biri ilə uzlaşmayan addımlar atırdılar.

Cənubi və Şimali Azərbaycanın birləşdirilməsinə dair çağırışlar, Ermənistanı atom bombası ilə dağıtmaq, Rusiya və digər keçmiş sovet respublikaları ilə haqq-hesab çəkməyə hazırlıq haqqında məsuliyyətsiz bəyanatlar, bütün türkdilli dövlətləri dərhal «birləşdirməyə», «Çinə türk bayrağı sancmağa» dair yüksək səviyyələrdə səslənən çağırışlar Azərbaycanın xarici siyasətinin ali məqsədi və vəzifələri, əsas prinsip və istiqamətləri haqqında beynəlxalq aləmdə yanlış rəy yaradır, respublikamızın beynəlxalq imicinə zərbə vururdu. Bütövlükdə təsadüfi bəyanatlar, məsuliyyətsiz və ziddiyyətli çıxışlar üzərində qurulmuş xarici siyasət bir ilin içərisində Azərbaycanın regionda və beynəlxalq aləmdə tam təklənməsinə və antiazərbaycan əhval-ruhiyyəsinin daha da güclənməsinə  səbəb oldu.

Bütün bunlar nəticə etibarilə Azərbaycanı çıxılmaz vəziyyətə saldı. Bir tərəfdən region dövlətləri ilə münasibətlər kəskinləşdi, digər tərəfdən isə beynəlxalq birliyin dəstəyi təmin edilmədi, əksinə, bunu təmin edə biləcək dövlətlərlə münasibətlər sərinləşdi. Azərbaycan beynəlxalq birlik tərəfindən dəstəklənmədi.

Daxildə isə, Azərbaycanın siyasi, iqtisadi, sosial, mənəvi həyatını bürümüş böhran 1993-cü ilin yayında özünün kulminasiya həddinə çatdı. Dövlət böhranının, hakimiyyətsizliyin, xaosun, siyasi dərəbəyliyin məntiqi nəticəsi olaraq ölkədə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda xalq təkidlə böyük siyasətçi və təcrübəli dövlət xadimi Heydər Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı və bu, ümummilli hərəkata çevrildi. Dünyanın ən qüdrətli tarixi simaları sırasına yüksəlmiş müdrik siyasətçinin – xalqımızın yeganə ümid çırağı və misilsiz təəssübkeşinin hakimiyyətə tarixi qayıdışı baş verdi. Müstəqil Azərbaycanın tarixinin Heydər Əliyev dövrü özünün yeni, şərəfli, əzəmətli mərhələsinə daxil oldu.

Heydər Əliyevin yenidən ölkə rəhbərliyinə qayıdışı nə qədər təlatümlü, ziddiyyətli, ictimai-siyasi gərginliklərlə səciyyələnən dövrə təsadüf etsə də, ona xas olan müdriklik, illərlə toplanmış böyük dövlətçilik təcrübəsi, iradə yenilməzliyi və ən başlıcası – doğma Vətənini düçar olduğu bəlalardan xilas etmək istəyi və iradəsi ölkəmizi sürətlə fəlakətə sürükləyən təhlükəli proseslərin qarşısını almağa, xalqın müstəqilliyə, azadlığa, firavan gələcəyə inamını qaytarmağa qadir olan amilə çevrildi. Azərbaycan böyük fəlakətlərdən xilas oldu. Hər şeydən əvvəl əmin-amanlığın, qanunçuluğun bərpa olunması, müstəqilliyin qorunub

saxlanması sahəsində tədbirlər görüldü. Sabit siyasi durum, mənəvi-psixoloji atmosfer şəraitində Azərbaycanın gələcək milli inkişaf strategiyası müəyyənləşdirildi, bu sahədə həyati əhəmiyyət kəsb edən bir çox vacib işlər həyata keçirildi.

1993-cü ildən başlayaraq Prezident Heydər Əliyev bütün istiqamətlərdə olduğu kimi, xarici siyasət sahəsində də prinsipial və ciddi dəyişikliklərin əsasını qoydu. Azərbaycanın xarici siyasət kursunda ölkənin geosiyasi mövqeyi, tarixi gerçəkliklər, ictimai-siyasi-iqtisadi və mənəvi-psixoloji inkişafın xüsusiyyətləri, qarşıda duran yaxın və uzaq hədəflər, o cümlədən Ermənistanın davam edən təcavüzü və digər bu kimi amillər əsas götürülərək, prioritet istiqamətləri müəyyən edildi. Dövlətimizin xarici siyasət konsepsiyasını açıqlayan Prezident Heydər Əliyev 1993-cü il oktyabr ayının 10-da prezident seçilməsi ilə əlaqədar keçirilən andiçmə mərasimindəki çıxışında deyirdi: «Respublikamızın qarşısında duran əsas vəzifələrdən biri Azərbaycanın mənafeyini dünya miqyasında müdafiə edə bilən səriştəli xarici siyasət yeridilməsidir. Qarşıda böyük vəzifələr durur. Bizim xarici siyasətimiz birinci növbədə Azərbaycanın dövlət müstəqilliyini təmin etməyə yönəldilməlidir. Vəzifə dünyanın bütün dövlətləri ilə bərabərhüquqlu, qarşılıqlı faydalı əlaqələr yaratmaqdan və inkişaf etdirməkdən, bu əlaqələrdən həm Azərbaycan Respublikasının beynəlxalq mövqeyini möhkəmlətmək üçün, həm də respublikanın iqtisadiyyatını, elmini, mədəniyyətini inkişaf etdirmək üçün səmərəli istifadə etməkdən ibarətdir. Bizim xarici siyasətimiz sülhsevər siyasətdir, biz heç bir dövlətin suverenliyinə, ərazi bütövlüyünə toxunmaq məqsədi güdmürük. Lakin eyni zamanda nəyin bahasına olursa-olsun respublikanın suverenliyini, müstəqilliyini və ərazi bütövlüyünü xarici siyasət vasitəsilə təmin etməyə çalışacağıq. Güman edirəm ki, bundan sonra görülən işlər Azərbaycanın daha geniş tanınmasına şərait yaradacaqdır və respublikamız dünya dövlətləri birliyində öz layiqli yerini tutacaqdır… Bizim daxili siyasətimiz, xarici siyasətimiz dünya demokratiyasının açdığı yolla demokratik prinsirlər əsasında gedəcəkdir».

Xarici siyasətimizin vəzifələri, onun başlıca istiqamətləri, əsas prinsipləri, milli mənafe və yerli şəraitdən irəli gələn xüsusiyyətləri, özünəməxsusluğu Heydər Əliyevin sonrakı çıxışlarında, konkret tövsiyyə və göstərişlərində, bilavasitə rəhbərliyi və iştirakı ilə dövlətimizin beynəlxalq aləmdə atdığı əməli addımlarda yaradıcılıqla inkişaf etdirilərək tez bir zamanda daha da təkmilləşdirildi. Hərtərəfli düşünülmüş elmi-nəzəri əsaslara malik bir proqrama çevrilərək Azərbaycan Respublikasının 1995-ci ilin noyabrında qəbul olunmuş Konstitusiyasında qanunvericilik yolu ilə təsbit edildi. Azərbaycan Konstitusiyasının dövlətimizin xarici siyasi fəaliyyətindən bəhs edən 7 və 10-cu maddələrində deyilir: «Azərbaycan Respublikasında dövlət hakimiyyəti daxili məsələlərdə yalnız hüquqla, xarici məsələlərdə isə yalnız Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən irəli gələn müddəalarla məhdudlaşır… Azərbaycan Respublikası başqa dövlətlərlə münasibətlərini hamılıqla qəbul edilmiş beynəlxalq hüqüq normalarında nəzərdə tutulan prinsiplər əsasında qurur».

1993-cü ilin ikinci yarısından başlayaraq Azərbaycanın geosiyasi vəziyyətinin və beynəlxalq siyasətə təsiretmə imkanlarının dərin nəzəri təhlili əsasında xarici siyasət kursunda mövcud reallıqları nəzərə alan və ölkənin mənafelərinin qorunmasına yönəlmiş əməli dəyişikliklər edildi. Prezident Heydər Əliyev bütün amilləri nəzərə alaraq Azərbaycanın yeni xarici siyasət kursunun əsas istiqamətlərini müəyyənləşdirdi. Bu xarici siyasət kursu ilk növbədə bir sıra ən mühüm və ən başlıca təxirəsalınmaz vəzifələri yerinə yetirməli idi. Həmin vəzifələrdən biri Azərbaycanı beynəlxalq aləmdəki təcrid vəziyyətindən çıxarmaq, ölkəmizin beynəlxalq imicinə zərbə vuran məqamları aradan qaldırmaq, haqq işimizi dünya ictimaiyyətinə olduğu kimi çatdıraraq, respublikamız ətrafındakı informasiya blokadasını yarmaqdan ibarət idi. Digər mühüm vəzifələrdən biri bəzi dövlətlərlə münasibətlərdə yaradılmış əsassız gərginliyi azaltmaqdan, tarazlaşdırılmış xarici siyasət xəttini təmin etməkdən, qonşu ölkələrlə münasibətlərə daha çox diqqət yetirməklə qarşılıqlı faydalı əməkdaşlıq və mehriban qonşuluq əlaqələrinin bərpa edilməsinə və qorunub saxlanılmasına nail olmaqdan ibarət idi. Böyük dövlətlərlə sıx əlaqələr yaratmaq və onları getdikcə genişləndirmək, dünyada mövcud olan müxtəlif universal və regional beynəlxalq təşkilatlara qoşulmaq və orada fəal iştirak etmək, beləliklə də Azərbaycanın dünya siyasi və iqtisadi sisteminə inteqrasiyasını, müxtəlif dünya ölkələri ilə səmərəli əməkdaşlığını təmin etmək də mühüm vəzifə kimi qarşıda dururdu. Nəhayət, daha bir vacib məsələ də ölkəmizin zorla cəlb edildiyi münaqişənin sülh yolu ilə ədalətli şəkildə həll olunması işinə böyük dövlətləri, nüfuzlu beynəlxalq təşkilatları qoşaraq onların fəal dəstəyinə nail olmaq idi.

Bu illərdə Ermənistanın davam edən təcavüzünün qarşısının alınması və müharibənin dayandırılması xüsusi əhəmiyyət kəsb edirdi. Ən başlıcası isə, erməni təcavüzünün mahiyyətini, ermənilərin vəhşiliklərini dünyaya yaymaq, Azərbaycan ətrafında yaradılmış informasiya blokadasını yarmaq, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətləri dünya birliyinin diqqətinə çatdırmaq kimi vacib işlər öz həllini gözləyirdi.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli yönümündə Prezident Heydər Əliyevin geniş və çoxşaxəli fəaliyyətinin substansiyasını konfliktin beynəlxalq normalara uyğun və dünya ictimaiyyətinin dəstəyi ilə nizama salınması təşkil edir. Vaxtilə dünya siyasətindən demək olar ki, təcrid olunmuş, informasiya blokadasında sıxılan, haqqı tapdandığı halda erməni təbliğatı sayəsində üstəlik dünya birliyinin də qınağına tuş gələn, ABŞ Konqresinin 1992-ci ildə qəbul etdiyi məlum 907-ci düzəlişlə diskriminasiyaya məruz qalan Azərbaycan yalnız Prezident Heydər Əliyevin fəal diplomatiyası nəticəsində dünyanın bütün demokratik dövlətlərinin və aparıcı təşkilatlarının ölkəmizə, onun zorla cəlb edildiyi silahlı münaqişəyə münasibətini kökündən dəyişdirməyə nail ola bildi. 1993-cü ilin sonları və 1994-cü ilin əvvəllərində ATƏT-in, MDB-nin və digər vasitəçilərin səyləri ilə aparılan danışıqlar nəticəsində 1994-cü ilin mayında Ermənistanla Azərbaycan arasında atəşkəs əldə edildi. 1993-1995-ci illərdə Azərbaycan prezidentinin bir sıra xarici ölkələrə rəsmi səfərləri, keçirdiyi görüşlər, eləcə də dünyanın ayrı-ayrı dövlətlərindən respublikamıza

gələn nümayəndələrlə aparılan danışıqlar Ermənistanın Azərbaycana təcavüzü haqqında həqiqətlərin beynəlxalq aləmə çatdırılması baxımından əhəmiyyətli rol oynadı. Azərbaycana, onun problemlərinə dünya birliyinin münasibətindəki təkamül prosesi özünü ATƏT-in Budapeşt, Lissabon və İstanbul zirvə toplantılarında qabarıq şəkildə büruzə verdi. Lissabon sammitində ilk dəfə olaraq ATƏT-in 54 üzvündən 53-ü Dağlıq Qarabağ münaqişəsinin həll edilməsində Azərbaycanın milli mənafelərini əks etdirən prinsipləri birmənalı şəkildə dəstəklədi. Bu, Azərbaycanın xarici siyasətinin böyük uğuru olmaqla yanaşı, münaqişənin nizama salınmasında keyfiyyətcə yeni mərhələ idi.

Dağlıq Qarabağ münaqişəsinin ATƏT çərçivəsində həll edilməsi ilə bağlı Azərbaycanın diplomatik səyləri Ermənistanın mövqeyinin xeyli zəifləməsinə gətirib çıxarmışdır. Munaqişənin nizamlanması üçün ATƏT-in yaratdığı Minsk qrupu və həmin qrupun həmsədrləri olan ABŞ, Rusiya və Fransanın nümayəndələrinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ problemi ilə bağlı təkliflərinin ermənilər tərəfindən rədd edilməsi Ermənistanı qeyri-konstruktiv bir ölkə kimi tanıtmışdır. Azərbaycanın bu münaqişənin həlli yolu ilə bağlı beynəlxalq hüquqa əsaslanmış qəti mövqeyi vardır. Heç bir şübhə yoxdur ki, münaqişə Azərbaycanın ərazi bütövlüyu çərçivəsində, beynəlxalq hüququn norma və prinsiplərinə uyğun həll ediləcək. Ermənilər bunu istəsələr də, istməsələr də, tez-gec bu belə olmalıdır. Zaman Azərbaycanın xeyrinə işləyir və erməni hərbi qüvvələrinin işğal olunmuş Azərbaycan torpaqlarından qovulacağı gün uzaqda deyil.

Azərbaycanın xarici siyasəti çoxşaxəli istiqamətlərdə inkişaf edir, bütünlükdə ölkəmizin beynəlxalq siyasətə fəal qoşulmasını, dünya birliyinə, Avropa təhlükəsizlik sistemi və NATO strukturlarına inteqrasiyasını nəzərdə tutur. Müstəqil Azərbaycan Respublikasının dövlətçilik və milli maraqları baxımından səmərəli, realist və praqmatik siyasət kursunu uğurla həyata keçirən Prezident Heydər Əliyev bütün ölkələrlə münasibətlərin qarşılıqlı surətdə faydalı əməkdaşlıq, mehriban qonşuluq və dinc yanaşı yaşamaq prinsipləri əsasında qurulmasına çalışır. Bu məqsədlə ötən illərdə Prezident Heydər Əliyev ABŞ, Rusiya, Böyük Britaniya, Fransa, Almaniya, Polşa, Rumıniya, Yaponiya, Çin Xalq Respublikası, Ukrayna, Türkiyə, İran, Pakistan, Səudiyyə Ərəbistanı və başqa kimi dövlətlərə dəfələrlə rəsmi səfərlər etmiş, ölkələrimiz arasında səmərəli bərabərhüquqlu əlaqələrin yaradılmasına nail olmuşdur. Bu səfərlər zamanı ölkəmizin başçısının keçirdiyi yüksək səviyyəli görüşlər tarixi əhəmiyyət kəsb etmişdir. Ölkə başçısının islam ölkələrinə rəsmi və işgüzar səfərləri respublikamızın islam dövlətləri ilə əlaqələrinin inkişafında müstəsna rol oynamışdır. Asiya-Sakit okean regionu, Afrika və Latın Amerikası ölkələri ilə diplomatik münasibətlər yaradılması və əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsi sahəsində də səmərəli tədbirlər həyata keçirilmişdir. MDB ölkələri ilə əlaqələrin inkişafına xüsusi yer verilmiş, tarixi əlaqələrin yeni müstəvidə inkişafı üçün əhəmiyyətli işlər görülmüşdür. Bütün bunlar Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun artmasına həlledici təsir göstərmişdir.

Azərbaycanın xarici siyasətinin özünəməxsus xüsusiyyətlərindən biri onun tarazlaşdırılmış xarakter daşımasıdır. Ölkəmizin geosiyasi vəziyyəti və üzləşdiyi problemlər xarici siyasət kursunda müəyyən tarazlığı gözləməyi, Azərbaycanın manevr imkanlarını saxlamağı və regionda möhkəmlənmək uğrunda mübarizə aparan müxtəlif güc mərkəzləri arasındakı münasibətlərdən səmərəli istifadə olunmasını zəruri edir.

İndi Azərbaycan bütün dünyaya açıqdır, çoxşaxəli diplomatik əlaqələrə malikdir, ən nüfuzlu beynəlxalq təşkilatların, birliklərin, iqtisadi və maliyyə qurumlarının üzvüdür. Azərbaycan Prezidenti xarici siyasətdə beynəlxalq təşkilatlarla əməkdaşlığın genişləndirilməsi məsələlərinə böyük diqqət yetirir. Hazırda dünyada təxminən 4 mindən çox beynəlxalq və regional təşkilat mövcuddur ki, bunlardan 300-dən çoxu hökumətlərarası təşkilatlardır. Beynəlxalq təşkilatlara üzv olmaq, onlarla səmərəli iş qurmaq, Azərbaycanın probelmlərini, Azərbaycan həqiqətlərini dünyaya çatdırmaq üçün böyük əhəmiyyət daşıyır. Məhz buna görə də Azərbaycan Birləmiş Millətlər Təşkilatı, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı, Avropa Şurası, Müstəqil Dövlətlər Birliyi, GUÖAM, İslam Konfransı Təşkilatı, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, Parlamentlərarası İttifaq, İqtisadi Əməkdaşlıq Təşkilatı kimi beynəlxalq təşkilatların üzvü olmaqla bərabər, Avropa Birliyi, NATO, Dünya Bankı, Beynəlxalq Valyuta Fondu, Avropa Yenidənqurma və İnkişaf Bankı, İslam İnkişaf Bankı və digər təşkilatlarla fəal əməkdaşlıq edir. Azərbaycan müxtəlif kollektiv sənədlərə və beynəlxalq müqavilələrə qoşulur. Ölkəmizin dünya birliyində nüfuzu günü-gündən artır.

Ötən il Azərbaycanın beynəlxalq strukturlarda fəaliyyəti baxımından da çox səmərəli olub. Təhlükəsizlik Şurasından sonra BMT strukturunda əhəmiyyətinə görə ikinci olan İqtisadi və Sosial Şuraya üzv seçilmiş Azərbaycan orada Şərqi Avropa ölkələrini təmsil edir. Eyni zamanda Azərbaycan NATO Parlament Assambleyasına assosiativ üzv qəbul olunmuşdur.

NATO ilə əlaqələrin genişləndirilməsi və dərinləşdirilməsi ölkəmizin dünya birliyinə inteqrasiya olunması, öz maraqlarını bilavasitə təmsil etməsi baxımından xüsusi əhəmiyyət kəsb etdiyindən bu sahədə fəaliyyət müstəqil Azərbaycan dövlətinin xarici siyasətinin prioritet istiqamətlərindən birini təşkil edir.

Azərbaycanın NATO ilə əməkdaşlığı respublikamızın xarici siyasət strategiyasının bir neçə əsas amili baxımından qiymətləndirilməlidir. Əvvəla, Azərbaycan dövləti öz xarici siyasətində universal və regional beynəlxalq təşkilatlarla əməkdaşlığa xüsusi önəm verir. İkincisi, Azərbaycan beynəlxalq təşkilatların üzvü olan bütün dünya dövlətləri ilə əməkdaşlıqda və dünya iqtisadi, siyasi və təhlükəsizlik sisteminə inteqrasiyada maraqlıdır və çoxtərəfli diplomatiya siyasəti yeridir. Üçüncüsü, Azərbaycanın müharibə vəziyyətində olması dünya birliyinin müstəqillik və təhlükəsizlik problemlərimizin həllinə daha fəal şəkildə cəlb edilməsini şərtləndirir. Bu üç faktor Azərbaycanın NATO-nun «Sülh naminə tərəfdaşlıq» proqramına qoşulmasında əsas rol oynamışdır.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunmasında, işğal edilmiş torpaqlarımızın azad edilməsində, qaçqınların öz doğma yurdlarına dönməsində NATO kimi nüfuzlu

beynəlxalq təşkilatın müstəsna rol oynaya biləcəyi inkaredilməzdir. Şimali Atlantika Bloku ilə münasibətlərin Azərbaycan dövləti üçün mühüm əhəmiyyəti bir də onunla ölçülür ki, respublikamız «Sülh naminə tərəfdaşlıq» proqramına qoşulmaqla həm NATO-nun müxtəlif struktur və institutları vasitəsilə dünyanın kollektiv təhlükəsizlik sisteminə daxil olmaq, öz təhlükəsizliyini beynəlxalq təhlükəsizlik məsələləri ilə uyğunlaşdırmaq, həm də quruma daxil olan ölkələrlə ayrı-ayrılıqda və birgə sülhməramlı və humanitar aksiyalarda iştirak etmək imkanı qazanır.

Azərbaycanın müdafiə qabiliyyətinin yüksəldilməsi xarici təhlükələrin dəf olunmasında, o cümlədən, Ermənistanın işğalçılıq siyasətinin qarşısının alınmasında həlledici amildir. Bu amilin mövcudluğu, şübhəsiz ki, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunması ehtimalını da artırır. Azərbaycan Respublikasının Prezidenti tərəfindən bu istiqamətdə ardıcıllıqla həyata keçirilən tədbirlərlə yanaşı, müxtəlif beynəlxalq təşkilatlarla və, o cümlədən, NATO strukturları ilə apardığımız əməkdaşlıq bizi məqsədimizə yaxınlaşdırır.

Prezident Heydər Əliyevin gərgin fəaliyyəti sayəsində cəmiyyətin bütün sahələrində həyata keçirilən islahatların nəticəsi olaraq Azərbaycan 2001-ci ildə Avropa Şurasına tamhüquqlu üzv qəbul edilərək ümumavropa ailəsinə qovuşdu və burada öz layiqli yerini tutdu. Bununla da ölkəmizdə hüquqi islahatların uğurla aparılması, demokratik, hüquqi dövlət quruculuğu və insan hüquqlarının müdafiəsi kimi bəşəri dəyərlərə dönmədən əməl olunması özünün layiqli qiymətini aldı.

Xatırladaq ki, hələ 1996-cı ilin iyununda ölkəmiz Avropa Şurasının Parlament Assambleyasında xüsusi dəvətli qonaq statusu almışdı. 1996-cı il iyulun 13-də isə Azərbaycan rəhbərliyi tamhüquqlu üzv olmaq barədə Avropa Şurasına rəsmən müraciət etdi. Avropa Şurasının üzvü olan ölkələrin 1997-ci ilin oktyabrında Strasburqda keçirilən ikinci sammitində Prezident Heydər Əliyevin iştirakı ölkəmizin bu qurumla əməkdaşlığının tarixində yeni dövrün başlanğıcını qoydu. Əslində Azərbaycan Prezidentinin bu beynəlxalq qurumun zirvə görüşündə iştirakı ölkəmiz üçün tarixi bir hadisəyə çevrildi. Və nəticə etibarilə Azərbaycanın Avropa Şurasına inteqrasiyası yönümündə zəruri addımlar atıldı. Azərbaycan qanunvericiliyinin Avropa standartlarına unifikasiyası prosesi intensivləşdirildi. Venesiya komissiyası mütəxəssislərinin yaxından iştirakı ilə respublikamızın məhkəmə-hüquq sistemində əsaslı islahatlar aparıldı. Prezident Heydər Əliyev Avropa Şurası ilə əməkdaşlığın genişləndirilməsinə xidmət edən bir sıra mühüm fərman və sərəncamlar imzaladı. 1998-ci ildə məhz Prezident Heydər Əliyevin təşəbbüsü ilə Şərqdə ilk dəfə bizim ölkəmizdə ölüm hökmü ləğv olundu. Bundan başqa ölkəmiz bir sıra konvensiyalara qoşuldu. Azərbaycanın Avropaya inteqrasiyası istiqamətində atılan addımlar Avropa Şurasının Siyasi və Hüquq komitələrində yüksək qiymətləndirildi və bunun nəticəsi olaraq, 2000-ci ilin iyununda Avropa Şurasının Parlament Assambleyası özünün növbəti sessiyasında Azərbaycan Respublikasının bu beynəlxalq quruma tamhüquqlu üzv qəbul olunması barədə yekdil qərar qəbul etdi. 2001-ci il yanvarın 17-də isə Avropa Şurasının Nazirlər Komitəsi Parlament

Assambleyasının bu qərarını təsdiq etdi və beləliklə Azərbaycan Avropa ölkələri ailəsinə daxil oldu. Yanvarın 25-də Prezident Heydər Əliyev Strasburqa səfər edərək Avropa Şurasının iqamətgahı qarşısında üçrəngli bayrağımızı qaldırdı.

Azərbaycanın dövlət başçısı üzvlüyə qəbul mərasimindəki çıxışında deyirdi: «Ölkəmizin Avropa Şurasına qəbul olunması müstəqil dövlətimiz üçün tarixi hadisədir. Azərbaycan Prezidenti kimi mən bütün xalqımızın iftixar hissini ifadə edirəm. Demokratik, hüquqi, dünyəvi Azərbaycan Avropa dəyərlərinə daim sadiq olacaqdır». Azərbaycan Prezidenti dəfələrlə bəyan etmişdir ki, Avropa Şurasına daxil olmaq ölkəmizin son məqsədi deyil, Avropa Şurasına daxil olmaq Azərbaycanda gedən demokratikləşmə prosesini daha sürətlə irəlilətmək üçün bir imkandır. Artıq indi tam əminliklə demək olar ki, ölkəmiz ötən müddət ərzində həmin imkandan son dərəcə səmərəli istifadə etmişdir. Belə ki, Azərbaycan Avropa Şurasına tamhüquqlu üzv qəbul edildikdən sonra İnsan hüquqları və əsas azadlıqlarının qorunması haqqında Avropa konvensiyasını imzalamış, Ekstradisiya üzrə Avpora konvensiyasına, Məhbusların dəyişdirilməsi haqqında konvensiyaya, Yerli özünüidarəetmə haqqında Avropa Xartiyasına, İşgəncələrin və qeyri-insani rəftarın qadağan olunması haqqında Avropa konvensiyasına və Avropa Şurasının bir sıra mühüm konvensiyalarına qoşulmuş, ölkədə ombudsman təsisatı yaratmış, avropalı ekspertlərin müsbət rəyini almış Seçki Məcəlləsi hazırlamışdır. Bütün bunlar bir daha sübut edir ki, Azərbaycan Avropa ailəsinin tamhüquqlu üzvü kimi demokratiyanın layiqli davamçısı və yayıcısıdır.

Ötən illər ərzində millət vəkili İlham Əliyevin rəhbərlik etdiyi Azərbaycanın parlament nümayəndə heyəti ölkəmizi Avropa Şurasında layiqincə təmsil etmişdir. Nümayəndə heyətimiz Parlament Assambleyasında Azərbaycanın mənafeyinə uyğun olan onlarla sənədin qəbul edilməsinə nail olmuş və bütün bu sənədlərdə ölkəmizin 20 faiz ərazisinin Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunduğu, 1 milyondan artıq soydaşımızın qaçqın və məcburi köçkün vəziyyətində yaşadığı xüsusi qeyd edilmişdir. İlham Əliyevin təşəbbüsü və fəal rəhbərliyi ilə hazırlanan və Avropa Şurasının rəhbər orqanlarına təqdim olunan «Azərbaycanlıların ermənilər tərəfindən etnik təmizlənmələrinin tanınması haqqında» və «Dağlıq Qarabağda və Ermənistanda saxlanılan girovlar və hərbi əsirlər haqqında» adlı sənədlər Ermənistana ən tutarlı zərbə olmaqla yanaşı, həm də bütün Avropa ictimai fikrinin narahatlığına səbəb olmuşdur. İlham Əliyev Ermənistanın terrorçu, işğalçı ölkə və narkobiznes mərkəzi olduğunu təsdiqləyən faktları AŞPA tribunasından səsləndirməklə bütün sivil dünyanı təhdid edən real təhlükə mənbələrindən birini beynəlxalq ictimaiyyətin diqqətinə təqdim etmişdir. Bu, Ermənistanın təcavüzkar siyasətinin ifşa olunması baxımından əhəmiyyətli rol oynamışdır.

Millət vəkili İlham Əliyevin 800 milyon insanı təmsil edən auditoriyanın rəhbərliyinə – Avropa Şurası Parlament Assambleyasının sədr müavini və büro üzvü seçilməsi diplomatiyamızın uğuru olmaqla yanaşı, həm də ölkəmizdə insan hüquq və azadlıqlarının təmin edilməsi sahəsində olan irəliləyişin, tərəqqinin,

Azərbaycanda demokratik dəyərlərin bərqərar olmasının və vətəndaş cəmiyyətinin əsaslarının qurulmasının bariz təzahürüdür. Son on ildə Azərbaycan bu sahələr üzrə diqqətə çarpacaq tərəqqiyə nail olmuşdur. İlham Əliyevin bu yüksək vəzifəyə seçilməsi Azərbaycanın xarici siyasətinin Avropa məkanında mövqelərinin möhkəmlənməsinə daha bir parlaq sübutdur və onu göstərir ki, İlham Əliyev Avropa məkanında Ermənistanın mövqelərinə qarşı aparılan fəal informasiya müharibəsinə uğurla rəhbərlik edir və bu mübarizənin taktiki və strateji hədəflərinin müəyyənləşməsi məhz onun adı ilə bağlıdır.

Prezident Heydər Əliyevin uğurlu xarici siyasət kursunun mühüm tərkib hissələrindən biri 11 sentyabr hadisələrindən dərhal sonra Azərbaycanın ABŞ başda olmaqla antiterror koalisiyasına qoşulması və terrorizmə qarşı mübarizədə fəal iştirakıdır. Erməni terrorundan əziyyət çəkən bir ölkə kimi Azərbaycan dövləti bu problemin aradan qaldırılması üçün beynəlxalq qurumlar və ayrı-ayrı ölkələrlə geniş əməkdaşlıq edir.

Beynəlxalq terrorizmə qarşı mübarizədə Azərbaycanın ardıcıl, qətiyyətli mövqeyi və antiterror koalisiyasının etibarlı üzvü kimi tanınması Azərbaycan-Amerika münasibətlərində vacib keyfiyyət dəyişikliyinə səbəb olmuşdur. Bu amil və ümumiyyətlə, demokratik və iqtisadi islahatların aparılması, mühüm iqtisadi layihələrin həyata keçirilməsi Amerika ilə birgə əməkdaşlığımızın səmərəliliyini sübut etmişdir. Amerikanın hərbi siyasətində bölgəmizə maraq xeyli artmışdır. Belə ki, Xəzər dənizi hövzəsi 2002-ci ilin oktyabrından etibarən Birgə Döyüş Komandanlıq Planına əsasən, Birləşmiş Ştatların Avropadakı silahlı qüvvələri komandanlığının əhatə dairəsinə aid edilmişdir. Amerika hökuməti ilk dəfə olaraq, Azərbaycan və Ermənistanla hərbi əməkdaşlıq siyasətində tarazlığın saxlanılmasından imtina edərək, ölkəmizlə hərbi-siyasi, təhlükəsizlik, hüquq-mühafizə sahələrində əməkdaşlığı sürətlə genişləndirmişdir. Hərbi nazirliklərimiz arasında imzalanmış birgə bəyanatda sülhməramlı bölmələr də daxil olmaqla, hər iki tərəfin hərbi qüvvələri arasında əlaqələndirmənin, hərbi-dəniz qüvvələrimizin imkanlarının genişləndirilməsi, Azərbaycanın təyyarə meydanlarının və hava məkanının idarə olunmasına nəzarət sistemlərinin NATO standartlarına uyğunlaşdırılması barədə razılıq əldə edilmişdir. Respublikamız 2002-ci il ərzində ABŞ-ın təklifi ilə təhlükəsizlik və müdafiə sahələrini əhatə edən 11 proqrama qoşulmuşdur. Ümumi təhlükəsizlik və müdafiə proqramı çərçivəsində ABŞ tərəfindən Azərbaycana ayrılmış maliyyə vəsaiti 2001-ci ilə nisbətən 2002-ci ildə təxminən 4 dəfə artmışdır. Ötən ildə dövlət sərhədlərimizin təhlükəsizliyinə ayrılmış vəsait hesabına dəniz sərhədlərimizin mühafizəsi üçün 6 gəmi təmir edilmiş, 2 nəzarət kateri alınmışdır. Sülhməramlı qüvvələrimizin imkanlarını genişləndirmək məqsədi ilə ABŞ Dövlət Departamenti ölkəmizə 1 milyon dollar əlavə vəsait ayırmışdır.

Prezident Heydər Əliyevin antiterror koalisiyasına verdiyi dəstək və ümumiyyətlə, Bakı-Tbilisi-Ceyhan neft kəməri layihəsinin gerçəkləşdirilməsi, Xəzər hövzəsinin karbohidrogen ehtiyatlarının Azərbaycan vasitəsilə Qərbə nəql edilməsi yönümündə dövlətimizin başçısının göstərdiyi ardıcıl və qətiyyətli səylər nəticə etibarilə

illər boyu xalqımızın haqlı narazılığına səbəb olan məlum 907-ci düzəlişin qüvvəsinin dayandırılmasına gətirib çıxardı. 2001-ci ilin oktyabrında prezident Corc Buş və dövlət katibi Kolin Pauell Konqresə müraciət edərək 907-ci düzəlişin aradan qaldırılmasının ABŞ-ın milli maraqlarına xidmət etdiyini vurğuladılar. Senator S. Braunbək isə adı çəkilən düzəlişin qüvvəsinin dayandırılması üçün prezident Corc Buşa səlahiyyət verilməsi təklifi ilə Konqres qarşısında məsələ qaldırdı. 2001-ci ilin oktyabrında Senat 907-ci düzəlişin qüvvəsinin dayandırılması üçün Corc Buşa səlahiyyət verdi. Senatın qəbul etdiyi həmin qərar Konqresin hər iki palatasının nümayəndələrindən ibarət razılaşdırıcı komitənin müsbət rəyini aldıqdan sonra ötən ilin yanvarında prezident Corc Buş tərəfindən imzalandı.

Ötən ilin iyununda ABŞ Prezidenti Corc Buş Prezident Heydər Əliyevə ünvanladığı məktubunda yazırdı: «Mən, ABŞ şirkətlərinin Azərbaycanın enerji sektorunun inkişafında və hərtərəfli iqtisadi artımda daha böyük iştirakına ümidlə baxıram. Amerika Birləşmiş Ştatları Sizinlə sıx işləyərək, qlobal enerji təhlükəsizliyini təmin etmək və Azərbaycan xalqı üçün daha firavan dinc gələcək qurmağa yardım etməyə hazırdır». Məhz Birləşmiş Ştatlarla daha sıx əməkdaşlığımızın nəticəsində ikinci dəfə olaraq 907-ci düzəlişin qüvvəsinin dayandırılması müddəti uzadıldı. ABŞ prezidenti bu addımını ölkəsinin beynəlxalq terrorizmə qarşı mübarizəsinin dəstəklənməsi və Azərbaycan sərhədlərinin təhlükəsizliyinin təmin edilməsinin zəruriliyi ilə əsaslandırdı.

Erməni lobbisinin ABŞ Konqresinə təsir imkanlarının miqyasını nəzərə alsaq, 907-ci düzəlişin qüvvəsinin dayandırılması Azərbaycan diplomatiyasının uğurudur.

Prezident Heydər Əliyevin uğurlu xarici siyasət kursunun ən mühüm, strateji tərkib hissələrindən birini Azərbaycanın təbii ehtiyatlarından və coğrafi-strateji mövqeyinin üstünlüklərindən milli mənafelərə uyğun şəkildə bəhrələnməklə ölkəmizin iqtisadi maraqlarının təmin edilməsi təşkil edir. Bu baxımdan ötən onillik ərzində ciddi nailiyyətlər əldə edilmişdir. 1994-cü ilin sentyabrında «Əsrin müqaviləsi» adı almış irimiqyaslı neft sazişinin bağlanması, sonralar Xəzərin Azərbaycan sektorunun karbohidrogen ehtiyatlarının istismarı ilə əlaqədar yeni-yeni müqavilələrin imzalanması ölkəmizin iqtisadi potensialının dirçəldilməsi, xarici investisiyaların həcminin artması üçün geniş imkanlar yaratmışdır.

Lakin neft müqavilələrinin əhəmiyyətini yalnız iqtisadi kateqoriyalarla müəyyənləşdirmək düzgün sayıla bilməz. İmzalanmış sazişlərin siyasi dəyəri heç də az əhəmiyyət daşımır. Dünyanın aparıcı dövlətlərinin ən nəhəng şirkətlərinin iştirak etdiyi, investisiya qoyduğu neft müqavilələri Azərbaycanın geostrateji mövqeyini və beynəlxalq siyasətdə rolunu əhəmiyyətli dərəcədə gücləndirən amil funksiyasını da uğurla həyata keçirir. Qərb dövlətlərinin iqtisadi maraqlarını təmsil edən neft şirkətləri ilə müqavilələrin imzalanması transmilli maraqların, o cümlədən region dövlətləri də daxil olmaqla böyük dövlətlərin mənafelərinin kəsişdiyi Azərbaycan kimi hərbi-strateji və zəngin sərvətli bir bölgədə aparıcı dövlətlərin iqtisadi maraqlarının təmsil olunmasına şərait yaratmaq, Azərbaycana qarşı yönəldilmiş təzyiqlərin aradan qaldırılması üçün Qərb

dövlətləri amilindən istifadə etməyə imkan verir. Nüfuzlu dövlətlərin regionda siyasi təsir vasitələrinin güclənməsi Azərbaycan dövlətinin də manevretmə dairəsini genişləndirir.

Prezident Heydər Əliyevin reallaşdırdığı neft strategiyası ölkəmizin region dövlətləri ilə qarşılıqlı münasibətlərinin daha konstruktiv və intensiv xarakter almasına əhəmiyyətli təsir göstərmişdir. Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri layihəsinin, bütövlükdə Şərq-Qərb enerji dəhlizinin gerçəkləşməsi və Asiyanı, xüsusilə də Mərkəzi Asiyanı Avropa ilə birləşdirən ən qısa, etibarlı və iqtisadi cəhətdən faydalı Transqafqaz yolunun fəaliyyətə başlaması iqtisadi maraqları üst-üstə düşən Azərbaycanın, Gürcüstanın və Orta Asiya dövlətlərinin siyasi mövqelərinin yaxınlaşmasına və beləliklə, Azərbaycanın regional təhlükəsizliyinin möhkəmlənməsinə əlverişli şərait yaratmışdır.

Xəzərin karbohidrogen ehtiyatlarının mənimsənilməsi prosesi region dövlətləri arasında iqtisadi inkişaf tempinin disproporsional şəkildə gedəcəyini göstərir. Heydər Əliyevin həyata keçirdiyi uğurlu neft strategiyası Azərbaycanın iqtisadi baxımdan inkişafına öz müsbət töhfələrini verməkdədir və Ermənistanın qlobal iqtisadi layihələrdən kənarda qalması fonunda Azərbaycanın sürətlə irəli çıxması Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli prosesinə də öz müsbət təsirini göstərəcək. Bir neçə il bundan əvvəl ABŞ politoloqu Zbiqnev Bzejinskinin Bakı-Tbilisi-Ceyhan əsas ixrac kəmərinin Cənubi Qafqazda münaqişələrin həlli prosesində əsaslı rol oynayacağını qeyd etdiyini xatırlatmaq yerinə düşər. Belə olan təqdirdə Xəzərin karbohidrogen ehtiyatları kimi ciddi iqtisadi resurslara və Şərq-Qərb enerji dəhlizinin yaradılmasında son dərəcə əhəmiyyətli strateji mövqeyə malik olan Azərbaycanın Dağlıq Qarabağ probleminin həllində bu üstünlüklərdən istifadə etmək imkanı daha çoxdur.

Neft strategiyasının uğurla həyata keçirilməsi beynəlxalq aləmdə Azərbaycan haqqında ictimai rəyin formalaşmasına xidmət edən bir vasitə kimi respublikamızın həyatından bəhs edən gerçək məlumatların dünya ictimaiyyətinə çatdırılması üçün geniş imkanlar açmışdır. Neft müqavilələrinin mahiyyəti və həyata keçirilməsi ilə bağlı müxtəlif məsələlərin müntəzəm olaraq dünya dövlətlərinin rəsmi dairələrində, kütləvi informasiya vasitələrində müzakirə edilməsi Azərbaycan haqqında ictimai-siyasi və iqtisadi xarakterli məlumatların beynəlxalq ictimaiyyətin nəzərinə çatdırılmasında mühüm rol oynamışdır. Neft şirkətlərinin, onların təmsil etdikləri dövlətlərin Azərbaycan ilə səmərəli qarşılıqlı faydalı iqtisadi əməkdaşlığın genişlənməsində maraqlı olmaları Azərbaycan haqqında obyektiv müsbət ictimai fikrin formalaşmasına şərait yaradır.

Heydər Əliyevin şəxsi təşəbbüsü və nüfuzü, uzaqgörən siyasəti sayəsində tarixi İpək yolunun bərpası ilə bağlı Şərq-Qərb, Şimal-Cənub kommunikasiya layihələrinin həyata keçirilməsində Azərbaycanın həlledici rol oynaması, proqramın icraçı katibliyinin Bakıda yerləşməsi haqqında qərarın qəbul edilməsi də ölkəmizin iqtisadi inkişafına təkan verməklə yanaşı, onun beynəlxalq və regional siyasətdə mövqeyinin güclənməsinə səbəb olmuşdur.

Tarixi İpək yolunun bərpası ilə bağlı ilk beynəlxalq konfrans Prezident Heydər Əliyevin təşəbbüsü ilə Bakıda keçirilmişdir. 1998-ci ilin Bakı beynəlxalq konfransında 32 ölkənin və 15 beynəlxalq təşkilatın yüksək nümayəndəliyinin, o cümlədən 7 ölkənin prezidentinin təmsil olunması bu tədbirin xüsusi statusunu göstərməklə bərabər, Avropa ilə Asiyanı birləşdirəcək kommunikasiya sisteminin yaradılmasında Azərbaycana böyük önəm verildiyini də təsdiqləyir.

«Əsrin müqaviləsi», «İpək yolu» və digər nəhəng layihələrin həyata keçirilməsi Azərbaycanın xarici siyasətinin uğurlarıdır. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft və qaz kəmərləri layihələri, onların həyata keçirilməsi üçün görülən işlər bu siyasətin tərkib hissəsidir.

Təqribən 10 il bundan əvvəl sadəcə əfsanə kimi görünən Bakı-Tbilisi-Ceyhan əsas ixrac kəməri layihəsinin reallığa çevrilməsi heç də asan başa gəlməyib. 1999-cu ilin noyabr ayında ATƏT-in İstanbul sammiti zamanı Azərbaycan, Gürcüstan və Türkiyənin dövlət başçıları Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərinin inşa olunması haqqında saziş imzaladılar. İmzalanma mərasimində ABŞ Prezidenti B.Klintonun iştirak etməsi və bu sazişi dəstəkləməsi onu göstərdi ki, Bakı-Tbilisi-Ceyhan neft kəməri təkcə region ölkələrinin deyil, həm də Qərb dövlətlərinin dəstəklədiyi əsl beynəlxalq layihədir.

Ötən müddətdə saziş əleyhdarlarının cidd-cəhdlərinə baxmayaraq, layihəyə dair bütün detalları aydınlaşdırmaq, onun iqtisadi və kommersiya baxımından əhəmiyyətini tam dəqiqləşdirmək üçün lazımi tədbirlər həyata keçirildi. Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri layihəsinə aid mühəndis işləri görüldü. Kəmərin rentabelliyini dəqiqləşdirmək üçün «Azəri», «Çıraq» və «Günəşli» yataqlarının dərinlikdə yerləşən hissəsində əlavə tədqiqat və qiymətləndirmə işləri aparıldı.

2002-ci ilin sentyabr ayının 18-də Səngəçal terminalında Azərbaycan, Gürcüstan və Türkiyənin dövlət başçılarının iştirakı ilə Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin təməli qoyuldu. Bu bir daha sübut etdi ki, Bakı-Tbilisi-Ceyhan layihəsi dövrümüzün reallığıdır.

Artıq Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri layihəsinin gerçəkləşdirilməsi üçün lazım olan bütün hüquqi sənədlər imzalanıb. Layihənin maliyyələşdirilməsi üçün beynəlxalq maliyyə qurumları ilə danışıqlar isə sona çatmaq üzrədir. Dəyəri 2,9 milyard dollar olan bu layihənin 30 faizi Bakı-Tbilisi-Ceyhan kəmərinin tərəfdaşları, 70 faizi isə beynəlxalq maliyyə qurumları tərəfindən maliyyələşdiriləcəkdir.

Xəzərin Azərbaycan sektorundakı «Şahdəniz» qaz-kondensat yatağının açılması ölkəmizin yaxın illərdə potensial qaz ixracatçısına çevrilməsinə yaxşı imkanlar yaradıb. Artıq «Şahdəniz» qazının Türkiyəyə, oradan isə dünya bazarına çıxarılmasını nəzərdə tutan Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin çəkilişi gündəlikdədir. «Azəri», «Çıraq», «Günəşli» neft və «Şahdəniz» qaz-kondensat yataqları Şərq-Qərb enerji dəhlizinin formalaşdırılmasının əsasını qoyub.

Bakı-Tbilisi-Ərzurum qaz kəməri layihəsinin iqtisadi cəhətdən səmərəliliyi heç kimdə şübhə doğurmur. Hətta bu layihənin rentabelli olması üçün zəruri miqdarda ixrac qazının tapılmayacağını iddia edənlər də indi

susmağa məcbur olublar. Çünki reallıq bunun tamamilə əksini söyləyir. İlkin qiymətləndirmələrə görə, Xəzərin Azərbaycan sektorunda 5 trilyon kubmetrdən artıq qaz ehtiyatı var.

Bu ilin fevral ayında Vaşinqtonda «Şərq-Qərb enerji dəhlizi reallıqdır» mövzusunda keçirilmiş beynəlxalq konfransda iştirak edən Prezident Heydər Əliyev deyirdi: «…4 milyard ton neft və 5 trilyon kubmetr qaz. Bunlar ancaq Azərbaycan sektorundadır. Demək, bu 50-100 ilə qədər işlənilməsi mümkün olan bir sahədir. Ona görə də bu həm Azərbaycan üçün, onun iqtisadiyyatını inkişaf etdirmək, xalqımızın rifah halını yaxşılaşdırmaq üçün, həm də bizimlə əməkdaşlıq edən Qərb ölkələri, şirkətləri üçün çox böyük mənfəət, fayda gətirəcəkdir».

Avrasiya nəqliyyat dəhlizinin ən mühüm qollarından sayılan Bakı-Tbilisi-Ceyhan neft və Bakı-Tbilisi-Ərzurum qaz boru kəmərlərinin reallaşması Prezident Heydər Əliyevin təkcə öz xalqı qarşısında deyil, həm də beynəlxalq miqyasda ən böyük xidmətlərindən biridir. Artıq regionda, eləcə də Xəzərin karbohidrogen ehtiyatlarının işlənməsində marağı olan ölkələrdə bu amil məhz belə qiymətləndirilir. Təsadüfi deyildir ki, ABŞ Dövlət Departamentinin Xəzərin enerji diplomatiyası üzrə müşaviri Stiven Mən regionun çox mühüm enerji layihələrinin məhz Azərbaycan Prezidentinin uzaqgörənliyi və liderliyi sayəsində uğur qazandığını söyləmiş, Birləşmiş Ştatların sabiq prezidentinin milli təhlükəsizlik məsələləri üzrə müşaviri Brent Skoukroft Azərbaycanın dövlət başçısının ölkənin zəngin neft sərvətlərini xalqın rifahına müvəffəqiyyətlə yönəltdiyini bildirmişdir.

Prezident Heydər Əliyevin neft diplomatiyasının başlıca istiqamətlərindən biri, məlum olduğu kimi, Xəzər dənizinin hüquqi statusu məsələsidir.

Ümumiyyətlə, indiyədək Xəzər dənizi dövlətlər arasında nüfuz bölgüsü məsələsi olmuşdur. Hələ XIX əsrdə Rusiya-İran müharibələri nəticəsində Rusiya bütün Xəzəryanı dövlətləri işğal etməyə nail olduğu üçün Xəzər iki dövlət arasında şərti olaraq iki hissəyə bölünmüşdü və hər bir hissə müvafiq dövlətin ərazisinə daxil edilmişdi. Başqa sözlə desək, Xəzər məhz göl kimi qəbul olunmuşdu. Sonradan-1921-ci ilin fevralında və 1940-cı ilin martında SSRİ ilə İran arasında ticarət və dənizçilik haqqında müqavilə imzalandı; İranla olan su sərhədi və bu dövlətin Xəzərdə hərbi donanma saxlamaq hüququnun olmaması rəsmi formada təsdiq edildi. Bu müqavilələrdən əlavə 1924, 1925, 1927, 1957, 1963, 1972, 1980-ci illərdə Xəzər barədə bir neçə Sovet-İran sənədləri imzalandı ki, bunlar da ticarət, gəmiçilik və əməkdaşlıq məsələlərini əhatə edirdi. Sovet İttifaqı dağıldıqdan sonra Rusiya və yeni Xəzəryanı dövlətlər – Azərbaycan, Qazaxıstan, Türkmənistan keçmiş SSRİ-nin daxili su sərhədləri statusuna və ümumiyyətlə, mövcud praktikaya uyğun olaraq, Xəzərin öz sektorlarına aid olan hissələrinə nəzarət etməyə başladılar.

1921-ci və 1940-cı illərdə bağlanmış Sovet-İran müqavilələrində də Xəzər hüquqi cəhətdən göl hesab edilmişdi və bu rejimə uyğun olaraq bölunmuşdü. Göl öz hüquqi rejiminə görə onu əhatə edən dövlətlər arasında bölünür və bu ölkələrin hər biri öz sektoruna aid olan hissədə tam suveren hüquqlara malik olur.

Xəzərin statusu keçmişdə yalnız Rusiya ilə İran arasında müəyyənləşib. Rusiya ilə İran arasında Xəzər Astara-Həsənqulu xətti üzrə bölünüb. Bu müqavilələr Xəzərin ortasında ümumi istifadə üçün heç bir neytral zona nəzərdə tutmamışdır.

Xəzər SSRİ dövründə onun tərkibində olan respublikalar arasında sektorlara ayrılıb. Bu bölgü 1976-cı ildə baş verib. 1978-ci ildə qəbul edilmiş «Hüquq varisliyi haqqında konvensiya»ya görə, keçmiş sovet respublikalarının əsasında yaranan yeni müstəqil dövlətlər bütün keçmiş quru və dəniz sərhədlərinin varisləridirlər.

Ümumiyyətlə, postsovet məkanında cərəyan edən mürəkkəb və ziddiyyətli proseslər Xəzəryanı regionda beynəlxalq münasibətlərə təsirsiz qalmamışdır. Əvvəllər Xəzərə münasibətdə israrlı mövqe nümayiş etdirən Rusiya anlaşma istiqamətində qəti addım atmışdır. Qazaxıstan Xəzərin statusu probleminə yanaşmada Rusiyanın müttəfiqinə çevrilmişdir. 1998-ci ilin iyulunda Rusiya ilə Qazaxıstan arasında Xəzərin şimal hissəsində dənizin dibinin bölünməsi haqqında saziş imzalanmışdır. Bu sənəd imzalandıqdan sonra Rusiya Xəzərin milli sektorlara bölünməsini, yəni sututarın delimitasiyasının sektoral prinsipini tamamilə tanıdı. Bu isə ilkin mövqelərin xeyli yumşalmasına gətirib çıxardı.

Rusiya və Qazaxıstanın qərarını Azərbaycan müsbər qarşıladı. Çünki Azərbaycan Xəzərin təkcə dibinin yox, həm də su qatının və səthinin bölünməsinin zəruriliyi mövqeyindən çıxış edir. Xəzər dənizinin hüquqi statusunun müəyyən edilməsi diplomatiya və beynəlxalq münasibətlər tarixində analoqu olmayan bir hadisədir. Düşünürük ki, Xəzər dənizinin hüquqi statusunun müəyyən edilməsi prosesində Xəzəryanı dövlətlərin 1994-cü ildən sonra başlamış çoxtərəfli əməkdaşlığı indiyədək formalaşmış praktika və dövlətlərin razılaşdırılmış siyasi iradəsi mühüm rol oynayacaqdır.

Göründüyü kimi, Prezident Heydər Əliyevin həyata keçirdiyi tarazlaşdırılmış, Aərbaycanın stateji maraqlarının müdafiəsinə yönəldilmiş realist və paraqmatik xarici siyasət kursunun məntiqi yekunu olaraq ölkəmiz bu gün Avrasiyanın mühüm geopolitik mərkəzlərindən birinə çevrilmişdir. Hazırda Xəzərin karbohidrogen ehtiyatlarının dünya bazarlarına çıxarılması və Avrasiya dəhlizinin gerçəkləşməsi xeyli dərəcədə Azərbaycanın qətiyyətli mövqeyindən asılıdır. Geosiyasi baxımdan Azərbaycan regionda xüsusi yer tutur və bu, ona qlobal qüvvələr – geopolitik vektorlar arasında mühüm tarazlaşdırıcı rol oynamağa imkan verir. Prezident Heydər Əliyevin realist və ölçülüb-bicilmiş siyasəti, onun unikal siyasi və dövlət xadimi təcrübəsi dövlətlərarası münasibətlərin nizamlanması sahəsində bütün tərəfləri təmin edən mühitin bərqərar olması istiqamətində müstəsna rol oynayır.

Azərbaycan Prezidentinin 2001-ci ilin sentyabr hadisələrinə dərhal reaksiya verərək, beynəlxalq antiterror koalisiyası çərçivəsində Amerika Birləşmiş Ştatlarına kömək etməyə hazır olduğu barədə bəyanatı Qərbdə yüksək qiymətləndirilmiş və ölkəmizin beynəlxalq aləmdə imicinin yüksəlməsinə gətirib çıxarmışdır. Təsadüfi deyildir ki, ABŞ dövlət katibinin Avropa və Asiya məsələləri üzrə müavini Elizabet Cons hələ bir il

bundan əvvəl Bakıda olarkən Prezident Heydər Əliyevə bu ölkənin antiterror kampaniyasına verdiyi səmərəli dəstəyə görə Ağ Evin minnətdarlığını çatdırmışdı. Bundan əlavə, ABŞ Prezidenti Corc Buş dövlət başçısı Heydər Əliyevə xüsusi məktubunda Azərbaycanın beynəlxalq terrorizmə qarşı tutduğu qətiyyətli mövqeyə görə təşəkkürünü ifadə etmişdir: «Bir daha istərdim ki, Sizə yazıb Amerika xalqı adından şəxsən Sizə və hökumətinizə bu günədək qlobal terrorizmə qarşı müharibədə göstərdiyiniz dəstəyə görə minnətdarlığımı bildirim. Biz bu günlər bizimlə bir cərgədə dayananları unutmarıq».

Hazırda Azərbaycan-ABŞ münasibətləri keyfiyyətcə yeni mərhələyə qədəm qoymuşdur. 907-ci düzəlişin qüvvəsinin iki ildir ki, dayandırılması iki dövlət arasında münasibətlərə yeni nüanslar gətirmişdir. Prezident Heydər Əliyevin bu ilin fevral ayında ABŞ-a səfəri Azərbaycan üçün müsbət nəticələr vermişdir. ABŞ Prezidenti Corc Buş Azərbaycanın dövlət başçısı ilə söhbətində bir daha bəyan etmişdir ki, Vaşinqtonun Xəzərin karbohidrogen ehtiyatlarının hasil edilməsi və Qərbə nəqli sahəsində həyata keçirdiyi siyasət dəyişməyəcək. Prezident Corc Buşun Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin tikilməsində maraqlı olduqlarını və bundan sonra layihəni müdafiə edəcəklərini və lazımi kömək göstərəcəklərini qeyd etməsi Heydər Əliyevin uzaqgörən siyasətçi olduğunu bir daha təsdiqləmişdir. Səfərin əhəmiyyətli nəticələrindən biri də ABŞ prezidentinin Dağlıq Qarabağ problemi ilə yaxından məşğul olmaq üçün dövlət katibi Kolin Pauellə müvafiq tapşırıqlar verəcəyini bildirməsidir. İndi Birləşmiş Ştatlarla müxtəlif sahələrdə, o cümlədən hərbi sahədə də tərəfdaşlıq həyata keçirilir ki, bu da daha təhlükəsiz və sabit dünya nizamı yaradılmasına yönəldilmişdir.

Azərbaycan nefti, gələcəkdə isə Qazaxıstan nefti bu boru kəməri vasitəsilə dünya bazarlarına daşınacaqdır. Bununla yanaşı, Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin çəkilməsi perspektivləri də ölkə iqtisadiyyatının inkişafı üçün böyük əhəmiyyətə malikdir. Bu layihənin gerçəkləşməsi ilə Azərbaycan qazının Türkiyəyə və dünya bazarlarına göndərilməsi imkanı artacaqdır.

Beləliklə, Prezident Heydər Əliyevin 1994-cü ildə irəli sürdüyü neft strategiyası Azərbaycan üçün hazırda real nəticələr verməkdədir. Bu gün tam yəqinliklə demək olar ki, neft kontraktları imzalandıqdan, neftin ixrac marşurutları, Xəzər dənizinin statusu məsələsinin bir sıra problemləri müəyyənləşdirildikdən sonra Azərbaycan ABŞ-ın strateji partnyoruna çevrilmişdir. Azərbaycan Prezidenti Heydər Əlyievi bu ilin fevralında Vaşinqtona səfərə dəvət edərək onunla Ağ Evdə görüşdüyü zaman ABŞ Prezidenti Corc Buş bu fikri bir daha təsdiq etmişdir: «Siz bizim, Amerikanın yaxın dostusunuz və sizi belə də qəbul edirik.»

Ümumiyyətlə, müstəqilliyimiz dövründə Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu neft strategiyası Ermənistanın bölgədə təklənməsi ilə nəticələnib və iqtisadi amili Dağlıq Qarabağ münaqişəsinin həlli prosesinə cəlb etməklə Azərbaycan problemin sülh yolu ilə nizamlanmasında mühüm təzyiq vasitəsi əldə edib. Azərbaycanın neft siyasəti və diplomatiyası bu prosesin hərəkətverici qüvvəsinə çevrilib. Bütün bunlar ölkəmizin beynəlxalq mövqelərinin möhkəmlənməsinə, dünyada onun dostlarının və həmfikirlərinin sayının

artmasına və deməli, xarici siyasətimizin nüfuz dairəsinin genişlənməsinə səbəb olub. Azərbaycanın dünya siyasətindəki rolu nəzərə çarpacaq dərəcədə artıb. Ölkəmiz məhz belə bir şəraitdə XXI-ci əsrə qədəm qoyaraq Prezident Heydər Əliyevin rəhbərliyi ilə milli dövlətçiliyimizin davamlı və dinamik inkişafına nail olmuşdur. Bu gün Azərbaycan xalqının Heydər Əliyevə əvvəlkindən daha çox ehtiyacı var. Çünki qarşıda keyfiyyətcə yeni vəzifələrin həlli durur. Ölkə dinamik inkişafdadır, xalqımızı yeni nailiyyətlər, yeni uğurlar gözləyir. Son on il ərzində yaşadığımız tarix bir daha sübut edir ki, Azərbaycanın qarşısında duran bu ali məqsədlər yalnız Heydən Əliyevin müdrik siyasəti, dərin zəkası, dəmir iradəsi, böyük idarəçilik məharəti və təcrübəsi sayəsində həyata keçirilə bilər.

# *AZƏRBAYCAN RESPUBLİKASININ SİLAHLI QÜVVƏLƏRİNİN 85-Cİ İLDÖNÜMÜ*

## Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Azərbaycan Respublikası silahlı qüvvələrinin şəxsi heyətinə təbriki

Əziz əsgərlər, çavuşlar, matroslar və miçmanlar!
Hörmətli zabitlər və generallar, Silahlı Qüvvələrin veteranları!
2003-cü ilin mayında xalqımız Azərbaycan Xalq Cümhuriyyətinin elan olunmasının 85 illiyini təntənə ilə qeyd etdi. Bu il həm də ilk milli ordu hissəmizin – Əlahiddə Azərbaycan Korpusunun yaradılmasının 85 ili tamam olur. Azərbaycan Xalq Cümhuriyyətinin ənənələrinə hörmət və sədaqət nümayiş etdirərək, mən həmin tarixi hadisənin baş verdiyi günü – iyunun 26-nı Azərbaycan Respublikasının Silahlı Qüvvələri günü elan etmişəm. Bu əlamətdar gün hər il dövlət bayramı kimi xalqımız tərəfindən layiqincə qeyd edilir.
Azərbaycanda ordu quruculuğu prosesi çox çətin, mürəkkəb və ziddiyyətli mərhələlərdən keçmişdir. Xalq Cümhuriyyətinin mövcud olduğu 1918-1920-ci illərdə Səməd bəy Mehmandarov, Əliağa Şıxlinski və digər peşəkar hərbçilərin rəhbərliyi altında yüksək intizama və hərbi hazırlığa malik, döyüş qabiliyyətli milli ordu hissələri formalaşdırılmışdı. Azərbaycanın yeni yaradılmış ordusu Ermənistanın təcavüzünün qarşısının alınması, Qarabağda və digər ərazilərdə separatçı hərəkatların yatırılması və ölkə sərhədlərinin qorunmasında mühüm rol oynamış, öz hərbi qabiliyyətini nümayiş etdirə bilmişdi.
Azərbaycanın bolşevik Rusiyası tərəfindən işğalından sonra müstəqilliyin ən mühüm atributu olan milli ordu hissələri ləğv edilmiş, azərbaycanlılar Sovet Silahlı Qüvvələri sıralarında hərbi xidmətə cəlb edilmişdir.

Azərbaycanın SSRİ tərkibində olduğu illərdə milli zabit korpusunun formalaşmasına, azərbaycanlıların yüksək hərbi vəzifələrə irəli çəkilməsinə müxtəlif süni maneələr yaradılırdı. Belə bir şəraitdə biz hələ ötən əsrin 70-ci illərində xeyli çətinliklə C.Naxçıvanski adına hərbi məktəbin açılmasına nail olduq. İndi Hərbi Litsey adlanan bu məktəbin o zaman təsis edilməsi ölkəmizdə hərbçi sənətinə marağın güclənməsinə, zabit kadrları hazırlığının yüksəlməsinə, respublikamızın müstəqil gələcəyinə hesablanmış bir addım idi. Bu gün iftixar hissi ilə deyə bilərik ki, hal-hazırda Azərbaycan ordusunda xidmət edən zabitlərin böyük əksəriyyəti məhz C.Naxçıvanski adına hərbi məktəbin yetirmələridir.

1991-ci ildə öz müstəqilliyini yenidən bərpa etmiş Azərbaycan mürəkkəb sosial-iqtisadi, ictimai-siyasi və beynəlxalq vəziyyətlə üzləşdi. Müstəqilliyin ilk illərində ordu quruculuğunda kobud səhvlərə yol verildi, ordu daxili siyasi mübarizəyə cəlb olundu, ayrı-ayrı şəxslərə və siyasi qruplara xidmət edən silahlı dəstələr yaradıldı. Bu səhvlər son nəticədə torpaqlarımızın 20 faizinin işğalı, milyona yaxın soydaşımızın köçkün vəziyyətinə düşməsi ilə nəticələndi.

1993-cü ilin sonlarından başlayaraq həyata keçirilmiş xüsusi tədbirlər nəticəsində milli ordu quruculuğu keyfiyyətcə yeni mərhələyə qədəm qoydu, qısa müddətdə vahid komandanlığa tabe olan nizami ordu formalaşdırıldı. Hazırda Azərbaycanın Silahlı Qüvvələri müasir hərbi texnika ilə təchiz edilmiş, möhkəm nizam-intizam, yüksək döyüş ruhu ilə seçilən, düşmənə sarsıdıcı zərbə vurmağa qadir olan bir ordudur.

Milli ordumuz müstəqil dövlətimizin ən böyük dayağı, xalqımızın təhlükəsizliyinin və ölkəmizin ərazi bütövlüyünün təminatçısıdır.

Bu gün biz xalqımızın ən ağrılı problemi olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq və ədalət prinsiplərinə uyğun həlli üçün bütün vasitələrdən istifadə edirik. Münaqişənin həllində dinc yola, diplomatik danışıqlara, beynəlxalq birliyin dəstəyinə üstünlük verdiyimizi dəfələrlə bəyan etmişik. Lakin danışıqların uğurla nəticələnməsi üçün ordumuzu daha da gücləndirməli, ölkəmizin müdafiə qüdrətini və hərbi potensialını daim artırmalıyıq. Övladlarımız hərbi xidməti Vətən qarşısında ən müqəddəs borc və ən şərəfli vəzifə saymalıdırlar. Silahlı Qüvvələrin şəxsi heyəti öz fiziki və hərbi hazırlığını dönmədən təkmilləşdirməli, döyüş texnikasına dərindən yiyələnməli, ən mürəkkəb şəraitdə ondan istifadə etməyi bacarmalıdır. Şəxsi heyətin təlim-tərbiyəsi ilə məşğul olan bütün zabit korpusu əsl vətənpərvərlik nümayiş etdirməli, fədakarlıq və mətinlik nümunəsi olmalıdır. Tərxis olunmuş hər bir gənc bizim cəmiyyətdə, həyatımızın bütün sahələrində ən dəyərli insan hesab edilməli, hərbi xidmət keçmiş şəxslərin təcrübəsindən, bilik və bacarığından geniş istifadə olunmalıdır.

Azərbaycan ordusu dövlət orqanlarının, bütün vətəndaşların diqqət və qayğısı ilə əhatə olunmalı, yeniyetmə və gənclərin hərbi-vətənpərvərlik tərbiyəsi ön plana çəkilməlidir. Ədəbiyyat və incəsənət əsərləri, kütləvi informasiya vasitələri ilk növbədə hər bir azərbaycanlıda Vətənə məhəbbət, dövlətçiliyə sədaqət, Silahlı Qüvvələrə hörmət hissinin tərbiyə olunmasına yönəlməlidir. Bir sözlə, hər bir dövlət orqanı, respublikamızın

hər bir vətəndaşı müstəqilliymizin dönməz və əbədi olması, dövlətçiliyimizin möhkəmləndirilməsi üçün əlindən gələni əsirgəməməli, ordu quruculuğu prosesinə öz layiqli töhfəsini verməlidir.

Bu bayram günündə Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olmuş bütün vətəndaşlarımızın xatirəsini dərin hörmət və minnətdarlıq hissi ilə yad edir, onlara Allahdan rəhmət diləyirəm.

Əziz hərbçilər! Vətənin şanlı müdafiəçiləri!

Sizin hamınızı əlamətdar bayram – Silahlı Qüvvələr günü münasibətilə səmimi qəlbdən təbrik edir, hər birinizə möhkəm cansağlığı, uzun ömür, ailə xoşbəxtliyi və hərbi xidmətdə uğurlar arzulayıram!

Yaşasın qəhrəman Azərbaycan əsgəri!

Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə eşq olsun!

## Azərbaycan silahlı qüvvələri şəxsi heyətinin Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan Heydər Əliyevə müraciəti

Möhtərəm Prezident!

Cənab Ali Baş Komandan!

Sizi Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaranmasının 85-ci ildönümü münasibətilə ürəkdən təbrik edirik. Müdrik rəhbərliyiniz və hərtərəfli qayğınızla əhatə olunan ordumuz bu bayramı ölkəmizin müdafiə qüdrətinin daha da möhkəmləndirilməsində, döyüş hazırlığı və mənəvi-psixoloji hazırlıqda qazanılan yüksək nailiyyətlərlə qarşılayır. Biz Vətən, xalq, dövlət qarşısında əsas vəzifələrimizi – müstəqilliyimizin, dövlətçiliyimizin möhkəmləndirilməsi və ölkəmizin ərazi bütövlüyünün bərpası üçün üzərimizə düşən məsuliyyəti dərk edir, müasir hərb elminin sirlərinə inadla yiyələnirik.

Sizin müdrik rəhbərliyiniz sayəsində tərəqqi və inkişaf yolu ilə inamla irəliləyən ölkəmizin müdafiə qabiliyyətinin daha da yüksəldilməsi, dövlət müstəqilliyimizin əbədiliyinin təmin olunması yolunda üzərimizə düşən bütün vəzifələri layiqincə yerinə yetirmək üçün öz bilik və bacarığımızı, lazım gələrsə, canımızı belə əsirgəməyəcəyik. Əgər düşmən öz məkrli niyyətlərindən əl çəkməsə, Sizin rəhbərliyiniz altında ədalətin qələbəsi, respublikamızın ərazi bütövlüyünün bərpası naminə döyüşlərə atılaraq, torpaqlarımızı düşmən tapdağından azad etməyə hazırıq.

Möhtərəm Prezident!

Cənab Ali Baş Komandan!

Əmin ola bilərsiniz ki, biz növbəti prezident seçkilərində ölkəmizin gələcəyi, xalqımızın rifahı və ordumuzun daha da qüdrətlənməsi naminə yalnız və yalnız öz Ali Baş Komandanımıza – zəmanəmizin böyük oğlu, yenilməz sərkərdə Heydər Əlirza oğlu Əliyevə səs verəcəyik.

Sizə bir daha möhkəm cansağlığı, uzun ömür və bundan sonra da müstəqil Azərbaycanımızın qüdrətlənməsi, tərəqqisi naminə yeni-yeni uğurlar arzulayırıq.

**Azərbaycan Respublikasının Müdafiə Naziri general-polkovnik Səfər Əbiyevin Silahlı Qüvvələrin yaradılmasının 85-ci ildönümünə həsr edilmiş təntənəli mərasimdə çıxışı**

Hörmətli mərasim iştirakçıları,

Yoldaş generallar və zabitlər!

Əziz veteranlar və qonaqlar!

Xanımlar və cənablar!

Bu gün biz Azərbaycan Respublikası Silahlı Qüvvələrin yaradılmasının 85-ci ildönümünə həsr edilmiş təntənəli bayram mərasimə toplaşmışıq.

İcazə verin Sizi, Silahlı Qüvvələrin şəxsi heyətini və xalqımızı bu bayram münasibətilə təbrik edim, hər birinizə uzun ömr, can sağlığı və xoşbəxtlik arzulayım.

Bu bayram ərəfəsində xalqımız Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab Heydər Əliyevin anadan olmasının 80 illik yubileyini və «Qurtuluş günü»nün 10 illik yubiley bayramını böyük məhəbbətlə qeyd etmişdir.

Əgər məndən soruşsaydılar ki, 2003-cü il Azərbaycan Silahlı Qüvvələrinin şəxsi heyəti üçün hansı hadisə ilə yadda qalandır, mən Prezident Heydər Əliyevin anadan olmasının 80 illik və «Qurtuluş günü»nün 10 illik yubileyi bayramları ilə yanaşı, C.Naxçıvanski adına Hərbi Litseyin yaradılmasının 30 illik yubileyinin təntənəli şəkildə qeyd edilməsini də söyləyərdim.

Litseyin 30 illik yubiley mərasimi Respublika sarayında keçirilmiş və ümumxalq bayramı kimi qeyd edilmişdir.

Bu yubileyin hazırlığı dövründə və keçirilməsi prosesində Heydər Əliyev şəxsiyyətinin əzəməti, iradəsinin yenilməzliyi və böyük sərkərdə qətiyyətinin sarsılmazlığı bir daha özünü göstərdi. O, Azərbaycan əsgərləri, zabitləri və generalları qarşısında çıxış edərək onlara əsl Ali Baş Komandana məxsus dözüm və dəyanətin, mənəvi böyüklüyün və sərkərdə mətinliyinin nə olduğunu göstərdi. Onun bu çıxışları Azərbaycan Silahlı Qüvvələrinin şəxsi heyəti üçün igidlik, mərdanəlik və hünər dərsləri idi.

Hörmətli mərasim iştirakçıları,

Fürsətdən istifadə edərək sizə məlum edirəm ki, bu il cənab Heydər Əliyevin Ali Baş Komandan kimi Silahlı Qüvvələrimizə rəhbərlik etməsinin də 10 ili tamam olur.

Bu 10 il ərzində Silahlı Qüvvələrimiz onilliklərə bərabər bir inkişaf yolu keçərək, vahid komandanlıq əsasında bir mərkəzdən idarə olunan çevik qüvvəyə çevrilmişdir.

Mən cənab Heydər Əliyevi Silahlı Qüvvələrimizin Ali Baş Komandanı kimi 10 illik fəaliyyəti ilə bağlı Silahlı Qüvvələrimizin bütün şəxsi heyəti adından və şəxsən öz adımdan alqışlayır və arzu edirəm ki, onun Ali Baş Komandanlığı altında Silahlı Qüvvələrimiz tezliklə erməni işğalçılarını məhv edərək, Respublikamızın ərazi bütövlüyünü bərpa etsin, dövlət bayrağımız azad edilmiş şəhər və kəndlərimizin üstündə dalğalansın.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab Heydər Əliyev yubiley mərasimində əsgər və zabitlərə ata məhəbbətilə müraciət edərək demişdir: «Bilirsiniz, sizə səmimi deyirəm, C.Naxçıvanski adına Litsey mənim üçün bir övladdır. Ona öz övladım kimi baxıram və nə qədər yaşayıramsa, ona, bax bu cür baxacağam».

Ali Baş Komandanın bu fikirlərindən istifadə edərək, onun ünvanını bir az genişləndirərək qeyd edərdim ki, elə Azərbaycan Silahlı Qüvvələrinin bütün şəxsi heyəti Prezident Heydər Əliyevin övladıdır. Prezident Heydər Əliyevin Silahlı Qüvvələrimizin şəxsi heyətini həmişə diqqət mərkəzində saxlamasının, ona ata məhəbbəti bəsləməsinin ən yeni təzahürü kimi, onun Müdafiə Nazirliyinin hərbi qulluqçularının orden və medallarla təltif edilməsi haqqında iyunun 14-də Fərman imzalanmasını göstərmək olar.

Mən bu münasibət ilə Silahlı Qüvvələrimizin Ali Baş Komandanına təltif edilən bütün şəxsi heyət adından və şəxsən öz adımdan minnətdarlığımı bildirirəm …

Azərbaycan Ordusunun əsası ilk dəfə Azərbaycan Xalq Cümburiyyət dövründə qoyulmuşdur. Həmin dövrdə əsası qoyulmuş Milli Ordunun ən yaxşı ənənələri bu gün də qurulmaqda və damam etdirilməkdədir.

Cümhuriyyət ordusunun qısa tarixi – milli dövlətçiliyimizin maraqlı səifələrindən biri, xalqa və Vətənə sədaqətli xidmətin ən gözəl nümunəsidir. Cümburiyyət Ordusu ilə bugünkü Milli Ordu arasında varislik bağlılığı vardır. Ona görə də bu gün biz 85 il əvvəl Ordumuzun əsasını qoyan, onun formalaşmasında bilik və qüvvələrini sərf edən sərkərdələri və hərbiçiləri xatırlayır, onları Vətən yolundakı xidmətlərini minnətdarlıq hissi ilə yad edirik…

Hörmətli mərasim iştirakçıları!

Hazırda Respublikada siyasi, iqtisadi, elm, mədəniyyət, incəsənət və digər sahələrdə olduğu kimi Silahlı Qüvvələr quruculuğu sahəsində də planlı və ahəngdar işlər davam etdirilir.

Azərbaycan Silahlı Qüvvələrinin döyüşə və səfərbərliyə hazırlığı, döyüş və mənəvi-psixoloji hazırlığı, idarəetmə orqanlarının, hərbi kadrların hazırlanması və yerləşdirilməsi, maddi-texniki təminatı, beynəlxalq hərbi əməkdaşlıq üzrə illik hazırlıq planı Müdafiə nazirinin təşkilat-metodiki göstərişləri və digər direktiv sənədlər əsasında həyata keçirilir.

Silahlı Qüvvələrin bütün növlərində, hərbi hissə və birləşmələrdə komanda-qərargah və real döyüş şəraətinə yaxınlaşdırılmış səhra təlimləri keçirilir, qoşunların döyüşə və səfərbərliyə hazırlığı yüksək səviyyədə saxlanılır.

Zabit heyətinin peşə hazırlığının səviyyəsi əhəmiyyətli dərəcədə yüksəlmişdir. Bu da öz növbəsində birlik, birləşmə, hərbi hissə və bölmələrin şəxsi heyətinin döyüş hazırlığını xeyli artırmışdır.

Silahlı Qüvvələrin şəxsi heyətlə komplektləşdirilməsi Ali Baş Komandanın göstərişlərinə və Azərbaycan Respublikasının hərbi qanunvericilik aktların tələblərinə uyğun olaraq həyata keçirilir.

Məlumdur ki, kadr zabitlərinin hazırlanmasında hərbi təhsil müəssisələri əsas rol oynayır. Silahlı Qüvvələrdə muasir tələblərə uyğun aparılan islahatların nəticəsində respublikada yeni hərbi təhsil sistemi yaradılmışdır.

Hörmətli mərasim iştirakçıları!

Bu gün Azərbaycan gərçəkliyinin ən ümdə məsələlərindən biri də Silahlı Qüvvələrin sıralarına fiziki və mənəvi cəhətdən sağlam gənclərin gəlməsidir.

Respublikamızda sağlam gəncliyin yetiştirilməsi istiqamətində əsas ağırlıq gənclik təşkilatlarının və Respublika Milli Olimpiya Komitəsinin, onun Prezidenti cənab İlham Əliyevin üzərinə düşür.

Qeyd edilməlidir ki, cənab İlham Əliyevin fəaliyyəti təkçə Respublika Milli Olimpiya Komitəsinin Prezidenti vəzifəsi ilə məhdudlaşmır. Onun siyasət və dövlət xadimi kimi yaradıcılığı geniş miqyaslıdır.

Cənab İlham Əliyevin Azərbaycan Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti kimi Azərbaycan iqtisadiyyatının inkişafında, Yeni Azərbaycan Partiyasının birinci müavini kimi Respublikanın siyasi həyatında, Milli Məclisin deputatı, Avropa Şurası Parlament Assambleyasında Azərbaycanın daimi deputat qrupunun rəhbəri, Assambleya sədrinin müavini və büro üzvü kimi Respublikamızın nüfuzunun dünyada güclənməsində və Ermənistanın işğılçı dövlət kimi tanınmasında rolu böyükdur.

Bilidyiniz kimi, hazırda İlham Əliyev Avropa Şurası Parlament Assambleyasının yay sessiyasında iştirak edir. O, Avropa Şurasında Azərbaycan dövlətinin milli mənafeyinə zidd olan iddialarla çıxış edən bədxahlarımızla mübarizə aparır.

Biz İlham Əliyevin bu mübarizəsinin məntiqi sonluqla başa çatacağına inanırıq. Biz buna da inanırıq ki, İlham Əliyev öz fəaliyyətini daha da genişləndirəcək, Azərbaycan tarixində siyasət və dövlət xadimi kimi öz tam təsdiqini tapacaqdır.

Hörmətli mərasim iştirakçıları!

Azərbaycan Respublikası Silahlı Qüvvələri inkişafının və formalaşmasının əsas istiqamətlərindən biri onun beynəlxalq əlaqələrinin genişləndirməsi və qabaqcıl dünya dövlətləri Silahlı Qüvvələrinin təcrübəsindən öyrənəcək onların təhlükəsizlik strukturlarına inteqrasiya etməsidir.

Bu baxımdan Azərbaycan Silahlı Qüvvələrinin NATO-nun «Sülh Naminə Tərəfdaşlıq» proqramında iştirakı və bir sıra dövlətlərin Silahlı Qüvvələri ilə ikitərəfli əməkdaşlıq etməsi əlamətdardır.

Azərbaycan Respublikası NATO üzvü və tərəfdaş dövlətlərlə ikitərəfli proqramların hazırlanmasına və inkişafına böyük əhəmiyyət verir. Bu mənada Azərbaycan Respublikasına Türkiyə Respublikası tərəfindən yardım göstərilir. Eyni zamanda «Azədlığı Dəstəkləmə Aktına» 907-ci Düzəlişin müvəqqəti ləğvindən sonra

Amerika Birləşmiş Ştatları ilə əməkdaşlıq üzrə proqramlar müəyyənləşmiş və artıq onların gerçəkləşməsinə başlanmışdır.

Azərbaycan Respublikası öz Silahlı Qüvvələrini NATO standartlarına uyğunlaşdırmağa səy göstərir və bu sahədə artıq müəyyən işlər görülmüşdür.

Azərbaycanın Ali Hərbi-Tədris Müəssisələrində kursantların təlimi tam şəkildə NATO standartlarına keçirilmişdir.

Hər il Azərbaycan Respublikasının NATO ilə Fərdi Tərəfdaşlıq Proqramı hazırlanır və təsdiq edilir. Bu proqramlar əsasında Azərbaycan Respublikası silahlı qüvvələrinin nümayəndələri 1997-ci ildən başlayaraq, bu günə qədər NATO-nun «Sülh Naminə Tərəfdaşlıq» Proqramı çərçivəsində və Sülh Naminə Tərəfdaşlıq «ruhunda» keçirilən 403 təlim və tədbirdə iştirak etmişlər.

Azərbaycan Respublikasında da NATO-nun «Sülh Naminə Tərəfdaşlıq» Proqramı çərçivəsində onlarca kurslar, konfranslar, məşğələlər, seminarlar, təlimlər və digər tədbirlər keçirilmişdir. Bunlardan ən əhəmiyyətlisi, məlum olduğu kimi, 2001-ci ilin noyabrında «Kooperativ Determineyşn-01» çoxmillətli sülhməramlı komanda-qərargah təlimlərini göstərmək olar. Bu təlimlərdə 9 NATO üzvü və 9 tərəfdaş dövlətlərdən 379 nəfər rümayəndə və beynəlxalq təşkilatlar iştirak etmişlər.

2004-cü ilin payızında isə Azərbaycan Respublikasında NATO üzvü və tərəfdaş dövlətlərin sülhməramlı qüvvələrinin iştirakı ilə «Kooperativ Best Effort-04» səhra təlimlərinin keçirilməsi planlaşdırılır.

Azərbaycan Respublikasının «Sülh Naminə Tərəfdaşlıq» Proqramında səmərəli, faydalı və məqsədyönlü əməkdaşlığının nəticəsi və bəhrəsi kimi Silahlı Qüvvələrimizin sülhməramlı bölmələri dünyanın müxtəlif bölgələrində sülhməramlı əməliyyatlarda iştirak edir.

Belə ki, 1999-cu il sentyabrın 1-də Azərbaycan Silahlı Qüvvələri sülhməramlı taburunun bir taqımı Yuqoslaviyanın Kosovo vilayətinə, 2002-ci il noyabrın 18-də isə ikinci taqımı Əfqanıstanın Kabul şəhərinə yola salınmışdır.

Azərbaycan Respublikası beynəlxalq terrorizmə qarşı mübarizə koalisiyasının üzvü kimi bu fəaliyyətini daim gündəlikdə saxlayaraq, sülhməramlı əməliyyatlarda iştirakını genişləndirmək əzmindədir. Belə ki, Silahlı Qüvvələrimizin sülhməramlı taburunun bir bölüyü İraqda keçirilən əməliyyatlarda iştirak etmək üçün bu günlərdə bu ölkəyə yola düşəcəkdir.

Hörmətli mərasim iştirakçıları!

Mən sizin diqqətinizi bir məsələyə də cəlb etmək istəyirəm. Məlum olduğu kimi, artıq Respublikamızda növbəti prezidentliyə namizədlərin irəli sürülməsi kampaniyasına start verilmişdir. Yeni Azərbaycan Partiyası öz sədrinin, Respublika Prezidenti Heydər Əliyevin namizədliyini irəli sürmüşdür.

Azərbaycan əsgərinin və zabitinin yaddaşı çox möhkəmdir. O, müstəqilliyimiz bərpa edildikdən sonra tariximizin ən mürəkkəb və çətin anlarında cənab Heydər Əliyevin dövlət quruculuğu, o cümlədən Silahlı Qüvvələr quruculuğu sahəsində hansı nailiyyətlər və uğurlar əldə etdiyini yaxşı xatırlayır.

O yaxşı bilir ki, Heydər Əliyev torpaqlarımızı zəbt etmiş erməni işğalçıları üzərində hansı yolla olursa-olsun, son qələbənin qarantıdır.

Mən əminəm ki, hazırda Silahlı Qüvvələrdə xidmət etməyən, ehtiyatda olan və Silahlı Qüvvələrimizin sıralarında Vətən qarşısında öz borcunu ləyaqətə yerinə yetirən əsgər və zabitlərimiz xalqımızın böyük hissəsilə bir yerdə səslərini öz Ali Baş Komandanına, cənab Heydər Əliyevə verəcəklər.

Hörmətli mərasim iştirakçıları!

Bu gün Azərbaycan Silahlı Qüvvələrinin qarşısında tarixi bir vəzifə vardır. Ermənistan-Azərbaycan münaqişəsi başa çatmamışdır.

İşğalçı Ermənistanın dövlət rəhbərliyinin qeyri-konstruktiv mövqeyi ucbatından bu münaqişə həll edilmir. O, güc mövqeyindən çıxış edərək, «qalib» dövlət kimi öz iradəsini diqtə etmək istəyir. Lakin onlar başa düşməlidilər ki, Azərbaycan müharibəni uduzmamışdır. Əslində o zaman ölkədaxili və onun ətrafında yaranmış şərait nəticəsində Azərbaycan xalqı və dövləti bu müharibədə öz gücünü və qətiyyətini mütəşəkkil şəkildə düşmənə göstərə bilməmişdir.

Bu gün isə şərait kökündən dəyişmişdir. Əgər Azərbaycan torpaqlarının 20 faizini işğal etmiş, 1 milyondan artıq qaçqını və köçkünü öz yurd-yuvasından didərgin salmış, günahsız Azərbaycan vətandaşlarını müsibətlərə düçar etmiş təcavüzkar Ermənistan dövlətinin rəhbərliyi bu siyasətdən əl çəkməsə, tarixin haqq və ədalət cəzasından yaxa qurtara bilməyəcəkdir. Buna Azərbaycan xalqının hərbi qüdrətinin, iradəsinin və QƏLƏBƏ əzminin gücü çatacaqdır.

Qətiyyətlə deyə bilərik ki, Azərbaycan Silahlı Qüvvələri xalqımızın təhlükəsizliyinin və müstəqilliyinin sipəridir. O, Azərbaycanın ərazi bütövlüyünü bərpa etmək iqtidarındadır.

Bu gün hər bir Azərbaycan əsgəri, zabiti və generalı döyüşlərə atılmağa hazırdır. Bu illər ərzində yetişdirilən hərbiçilər nəsli birinci növbədə Vətənə məhəbbət, sonsuz sədaqət, düşmənə nifrət hissilə tərbiyə edilmişdir.

Hörmətli mərasim iştirakçıları!

Mən sizi bir daha Silahlı Qüvvələrimizin yaradılmasının 85 illik yubileyi münasibətilə təbrik edirəm, hər birinizə düşmən üzərində tam qələbə naminə cansağlığı və işinizdə uğurlar arzulayıram.

Diqqətinizə görə təşəkkür edirəm.

«Azərbaycan Ordusu» qəzeti, 28 iyun 2003

# *MƏQALƏLƏR*



***RAMİZ ABUTALIBOV***
***YUNESKO üzrə Azərbaycan***
***Milli Komissiyasının Baş Katibi***

## *FRANSADA İLK AZƏRBAYCAN DİPLOMATİK NÜMAYƏNDƏLİYİNİN İNFORMASİYA VƏ NƏSR SAHƏSİNDƏKİ FƏALİYYƏTİ*

7 may 1919-cu il tarixində Versal Sülh danışıqlarında iştirak etmək məqsədilə tərkibinə Əlimərdanbəy Topçubaşının, Məmmədhəsən Hacınskinin, Əkbərağa Şeyxülislamovun, Miryaqub Mirmehdiyevin, Ceyhunbəy Hacıbəylinin, Məmmədbəy Məhərrəmovun və digər şəxslərin daxil olduğu Azərbaycan nümayəndə heyəti Parisə gəldi.

Nümayəndə heyətinin rəhbəri kimi, Əlimərdanbəy Topçubaşı ilkin olaraq Azərbaycan ətraftnda yaranmış informasiya blokadasının aradan qaldırılması ilə məşğul olmağa başladı. Ermənilər diasporalarının yardımı vasitəsilə, gürcülər Sosialist İnternasionalının liderləri vasitəsilə informasiya yaymaqla məşğul olduqları zaman Azərbaycan tərəfi bu işi sıfırdan başlamalı olmuşdu. Fərəhlə qeyd etmək lazımdır ki, onlar bu işin öhdəsindən bacarıqla gəlmişlər. Əlimərdanbəy Azərbaycan ziyalılarının görkəmli bir nümayəndəsi kimi Azərbaycanın digər nümayəndə heyətinin üzvləri ilə birlikdə 11 ay ərzində (may 1919-cu il – aprel 1920-ci il) üç kitab, 12 informasiya bülleteni və Fransa mətbuatında çoxsaylı məqalələr dərc etdirmişdir.

Kitablardan biri «Qafqaz Azərbaycan Respublikası» adlanır. On dörd bölmədən ibarət 51 səhifəlik kitabça nümayəndəliyin ən operativ nəşri idi. Birinci bölmə «Azərbaycanın mənşəyi: müstəqil xanlıqlar və onların təşəkkülü» adlanır. İkinci bölmə «Azərbaycanın yerli əhalisi, onlann keçmiş rus imperiyasına münasibəti», üçüncü «Transqafqaz Seymi Federasiyasi: onun zəifləməsi və süqutu» və i.a. Kitabçanın on dördüncü bölməsində isə Azərbaycanın Sülh konfransına ümidləri və tələbləri öz əksini tapmışdır.

Parisdə olduğu ilk aylardan, hətta deyərdik ki, ilk günlərdən çox gərgin işləyən Azərbaycan nümayəndəliyi hadisələri dərindən izləyərək, «Azərbaycanın iqtisadi və maliyyə vəziyyəti» adlı ikinci kitabçanı nəşr etdirmişdir. Kitabçada Azərbaycanın və xüsusilə də Bakının iqtisadi və maliyyə vəziyyəti təsvir edilmişdir. Rəqəmlər və faktlar əsasında dəqiq məlumatlar Sülh konfransının iştirakçılarına çatdırılır. Kitabçanın ayrıca

bölməsində gəlir və xərclər, gömrükdən gələn mənfəətlər, fövqəladə xərclər haqqında ətraflı məlumat verilmişdir. 1919-cu ilin büdcəsi də kitabçaya daxil edilmişdir. Büdcədən aydın olur ki, gəlir və xərclər bərabər, yəni 665 milyon rubl olmuşdur. Bu rəqəmlərdən maraqlı bir fakt aydınlaşır. Gənc Azərbaycan Demokratik Respublikası ağır iqtisadi və siyasi şəraitdə yaşasa da, xalq təhsilinə xüsusi fikir verilmiş, onun inkişafı üçün 45 milyon rubl ayrılmışdır. Yalnız hərbi sahə üçün ayrılan xərc (140 milyon rubl) xalq təhsilinə, maarifə ayrılan xərcdən çoxdur. Kitabçada verilmiş rəqəmlərdən aydın olur ki, xalq maarifinə ayrılmış xərc kənd təsərrüfatına ayrılan xərclərə bərabərdir.

Nümayəndəliyin çap etdirdiyi üçüncü kitabça isə «Azərbaycan Respublikasının antropoloji və etnik tərkibi» adlanır. Bu kitabçada Qafqaz ərazisində Azərbaycan əhalisinin məskunlaşması tarixi, Azərbaycan əhalisinin yaşadığı ərazilərin sahəsi, qonşu xalqlarla münasibətləri öz əksini tapmışdır. Kitabçada verilmiş rəqəmlər və faktlar «Qafqaz təqvimi»ndən, «Qafqaz xalqlarının yerləşdiyi ərazi və yerlər» külliyyatından, 1897-ci ildə nəşr olunmuş «Rusiyada əhalinin siyahıyaalınması» kitabından götürülmüşdür.

1919-cu ilin sonunda isə Ceyhunbəy Hacıbəylinin «Birinci müsəlman respublikası: Azərbaycan» adlı məqaləsi «Revü dü mond müzülman» jurnalında çap edilmişdir. Məqalədə Azərbaycanın tarixi, coğrafi, iqtisadi inkişafi barədə əsaslı faktlar verilmişdir.

İndi də nümayəndəliyin hazırladığı bülletenlər haqqında qısa məlumat vermək istəyirəm. Hazırda həmin bülletenlərin 3-cü, 7-ci, 9-cu, 10-cu 11-ci və 12-ci nömrələri şəxsi arxivimdə mühafizə olunur. Əgər bu bülletenlərdəki materiallardan əlavə, nümayəndəliyin o zaman keçirdiyi mətbuat konfranslarını, müxtəlif mətbuat orqanlarına verdikləri müsahibələri də nəzərə alsaq, onda görülmüş böyük və gərgin işin mənzərəsi tam aydınlaşar.

Bülletenin 3-cü nömrəsində Naxçıvan məsələsi, orada erməni işğalçılarının Azərbaycan əhalisinə verdiyi zülm və işgəncələr dünya ictimaiyyətinin nəzərinə çatdırılır. Bülletendə verilmiş ikinci məqalə isə müsəlman əhalisinin Ermənistandakı vəziyyəti barədədir. Üçüncü məqalədə Denikinin Qafqaz istiqamətində hərəkətindən, onun işğalçı planlarından bəhs edilir. Bülletenin sonunda isə Azərbaycana aid qısa xəbərlər dərc olunmuşdur.

Bülletenin 7-ci nömrəsində İngiltərənin siyasi xadimlərindən olan cənab Skotlend Lidelin Bakıya səfəri haqqında məlumat dərc olunmuşdur. Bülletenin sonunda isə Azərbaycana aid müxtəlif ölkələrin mətbuat orqanlarında dərc olunmuş yazıların xülasəsi verilmişdir.

Bülletenin 9-cu nömrəsində 1919-cu ilin dekabr ayında Bakıda keçirilən Azərbaycan-Ermənistan və Azərbaycan-İran konfransları haqqında məlumat verilir. Bülleten Azərbaycan Demokratik Respublikasının bir illik fəaliyyətinə həsr olunmuş geniş məqalə ilə tamamlanır.

Bülletenin 10-cu nömrəsində Çiçerinin 1920-ci il yanvarın 2-də F.X.Xoyskiyə göndərdiyi notası və Xoyskinin ona cavabından bəhs edən yazı çap olunmuşdur. Bülletendə Parisdə Qafqaz üzrə keçirilən könfransın

materialları, Azərbaycan-İran münasibətlərinə aid məqalə və Azərbaycanın cənub-qərbində məskunlaşmış müsəlman qaçqınlarının vəziyyəti haqqında məlumat dərc olunmuşdur.

Bülletenin 11-ci nömrəsinäə Azərbaycanın xarici ölkələr tərəfindən rəsmi tanınması, Azərbaycan nümayəndəliyinin Qərbi Avropadaki fəaliyyəti, Azərbaycanda vəziyyət, Qarsdaki hadisələr barədə geniş yazılar dərc olunmuşdur. Bülletenin sonunda isə ingilis və Azərbaycan mətbuatının qısa xülasəsi verilmişdir.

Bülletenin 12-ci nömrəsində isə yenə də Qars hadisələri, F.X.Xoyskinin Ermənistanın xarici işlər nazirinə notası, Çiçerinin F.X.Xoyskiyə üçüncü notası dərc olunmuşdur. Bülletenin sonunda mətbuat xidmətinin hazırladığı xülasə verilmişdir.

Bunu da qeyd etmək lazımdır ki, o zaman nümayəndəliyin fransız dilində hazırladığı mətnlərin tərtibi və redaktəsində Azərbaycan ədəbiyyatının yorulmaz təbliğatçısı, fransız şərqşünası Lüsyen Büvanın (1872-1942) xüsusi xidməti olmuşdur.

Göründüyü kimi, Azərbaycanın Fransadakı birinci nümayəndəliyinin informasiya və nəşr sahəsindəki fəaliyyəti çox gərəkli, çətin və məqsədyönlü olmuşdur. Diqqətinizə çatdırdığımız sənədlər nümayəndəliyin çox geniş və operativ, məhsuldar işinin silinməz izləridir.

Azərbaycanın Parisdə fransız dilində nəşr edilən ilk məlumat bulleteni

(Ramiz Abutalıbovun şəxsi arxivindən)



N° 11 1[illegible] 920

# BULLETIN D'INFORMATIONS DE L'AZERBAÏDJAN

ORGANE BI-MENSUEL

*RÉDACTION : Hôtel Claridge, 74, avenue des Champs-Élysées, PARIS (VIII^e)*

TÉLÉPHONE : ÉLYSÉE 48-13

En Dépôt aux ÉDITIONS ERNEST LEROUX, 28, rue Bonaparte, Paris-VI^e

## La reconnaissance des Républiques transcaucasiennes

Paris, le 10 février 1920

*A Son Excellence*
*M. l'ambassadeur des États-Unis d'Amérique,*
*Paris.*

Les soussignés, présidents des Délégations de la Géorgie et de l'Azerbaïdjan, ont l'honneur de déclarer ce qui suit à Son Excellence M. l'ambassadeur des États-Unis d'Amérique à Paris :

Les deux Républiques transcausiennes, savoir : la Géorgie et l'Azerbaïdjan, viennent d'être reconnues en tant qu'États indépendants, *de facto*, par le Conseil suprême des grandes puissances alliées siégeant à Paris, c'est-à-dire par la France, la Grande-Bretagne et l'Italie, le Japon ayant adhéré par la suite à cette décision. La reconnaissance *de facto*, sans parler de la reconnaissance formelle et définitive, n'a pas été jusqu'ici accordée aux Républiques transcaucasiennes par la Puissance qui, aux yeux de leurs peuples, incarne le mieux les grands principes de liberté et de justice par les États-Unis.

Or, dans ces derniers temps, de nombreuses missions américaines ont visité les pays susmentionnés et ont réuni sur ces Républiques toutes les informations nécessaires. Le Gouvernement fédéral n'ignore pas les sentiments de sympathie qu'inspire le pays américain aux pays transcaucasiens, ni leur désir d'entrer en relations suivies avec la grande démocratie américaine, et cela indépendamment de la décision que l'Amérique prendra en ce qui concerne les responsabilités à assumer par elle dans certains pays de l'Asie antérieure.

Aussi est-il naturel que les peuples et les Gouvernements de Géorgie et d'Azerbaïdjan attacheraient une très grande importance à ce que leur indépendance fût, dès maintenant, reconnue aussi par les États-Unis.

Les soussignés ont, par conséquent, l'honneur de prier Son Excellence de bien vouloir transmettre ce qui précède au Gouvernement qu'Elle représente, et de ne pas refuser son appui personnel à ce que la Géorgie et l'Azerbaïdjan soient au plus tôt reconnues en tant que Républiques indépendantes par le Gouvernement de Washington.

*Le Président de la Délégation géorgienne,*
*Signé :* M. TCHÉIDZÉ.

*Le Président de la Délégation* D'AZERBAÏDJAN :
*Signé :* M. TOPTCHIBACHEFF.

Azərbaycanın Parisdə ilk səfirliyi

(Ramiz Abutalıbovun şəxsi arxivindən)





***XƏLƏF XƏLƏFOV***

***Azərbaycan Respublikası***

***Xarici İşlər Nazirinin müavini***

## İNSAN HÜQUQ VƏ ƏSAS AZADLIQLARININ MÜDAFİƏSİ VƏ BEYNƏLXALQ TERRORİZMLƏ MÜBARİZƏNİN AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT SİYASƏTİNDƏ YERİ

11 sentyabr hadisələri ilə əlaqədar terrorizmə qarşı mübarizə nəinki dövlətlərin təhlükəsizliyinin, həmçinin bütün beynəlxalq təhlükəsizlik sisteminin təmin edilməsində ön plana çəkilmişdir. Azərbaycan Respublikasının Hökuməti bu istiqamətdə ardıcıl surətdə beynəlxalq birliyin səylərini dəstəkləyir və siyasi, iqtisadi, dini və digər səbəblərdən asılı olmayaraq, terrorizmin bütün forma və təzahürlərini pisləyərək, terrorizmlə mübarizənin heç bir din və ya mədəniyyətə qarşı yönəldilməməsi mövqeyindən çıxış edir.

Terrorizmin qlobal təhlükə xarakteri kəsb etdiyini nəzərə alaraq, ayrı-ayrı dövlətlərin maraqları deyil, ümumi yanaşma əsasında bu cür cinayətə qarşı beynəlxalq birliyin səylərinin birləşdirilməsinin vacibliyi artmaqdadır. Terrorizmə qarşı beynəlxalq mübarizənin məqsədi ayrı-ayrı terrorçu təşkilatlar, qruplar və ya insanlar deyil onun mənbə və səbəbinin aradan qaldırılması olmalıdır. Terror aktları siyasi cəhətdən təhrik edilmiş ekstremizmin bir hissəsidir və onların hər birini siyasi məqsədlərə nail olmaq üçün törədilən zorakılıq kimi ümumi xüsusiyyət birləşdirir.

Terrorizm təcavüzkar separatizm, mütəşəkkil cinayətkarlıq, narkobiznes, silah və insan alveri ilə sıx bağlıdır. Münaqişə zonalarının mövcudluğu, xüsusilə işğal olunmuş və «nəzarət olunmayan» ərazilər terrorçu və cinayətkar qruplarının yaradılmasına səbəb olur.

Terrorizmin beynəlxalq hüquqda dəqiq anlayışının olmaması beynəlxalq birliyin nəinki ayrı-ayrı terrorçuları və təşkilatları, həm də terrorizmi təşviq edən, dəstəkləyən və maliyyələşdirən dövlətləri də məsuliyyətə cəlb etməsini çətinləşdirir.

Azərbaycanın özü terrorizmin qurbanı olmuşdur. 80-ci illərin axırlarından başlayaraq, Ermənistan dövlətinin və nüfuzlu erməni diasporasının maliyyə və təşkilati yardımı ilə dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən erməni terror təşkilatları Azərbaycana qarşı ardıcıl və dəhşətli terror müharibəsinə başlamışdır. Azərbaycanın Dağlıq Qarabağ bölgəsi və onun ətrafındakı 7 rayonun işğalı zamanı kütləvi vahimə yaratmaq, çoxlu insan tələfatına nail olmaq məqsədilə Ermənistan xüsusi xidmət orqanları hərbi əməliyyatların baş verdiyi ərazilərdən xeyli uzaqda, dinc azərbaycanlı əhalinin yaşadığı məntəqələrdə terror aktları təşkil etmiş və nəticədə günahsız insanlar həlak olmuşdur. Ermənistan Respublikası dövlət

səviyyəsində terroru dəstəkləyərək, onu təcavüzkar siyasətinin əsas vasitələrindən birinə çevirmişdir. Çoxsaylı faktlar, məhkəmə materialları sübut edir ki, Azərbaycanın dinc əhalisinə qarşı, o cümlədən nəqliyyat vasitələrində törədilən terror aktları Ermənistan hökuməti tərəfindən maliyyələşdirilərək bu ölkənin xüsusi xidmət orqanları tərəfindən həyata keçirilmişdir.

BMT-nin Təhlükəsizlik Şurasının 1269(1999) saylı 19 oktyabr 1999-cu il tarixli Qətnaməsində, dövlət səviyyəsində terrorizmə qarşı mübarizə və insan hüquqlarına və beynəlxalq humanitar hüquqa riayət olunması da daxil olmaqla, BMT Nizamnaməsinin prinsipləri və beynəlxalq hüquq normaları əsasında BMT-nin himayəsi altında həmin məsələ ilə bağlı səmərəli beynəlxalq əməkdaşlığı gücləndirməyin vacibliyi qeyd olunmuşdur. Həmin Qətnamə dövlətləri terrorçuluq aktlarını planlaşdıran, terrorizmi maliyyələşdirən və həyata keçirənlərin məsuliyyətə cəlb olunmasını və ekstradisiya edilməsini təmin edərək onlara sığınacaq verilməsindən imtina etməyə və qaçqın statusu verməzdən əvvəl milli qanunvericiliyin müvafıq müddəalarına və beynəlxalq hüquqa, həmçinin insan hüquqları sahəsində mövcud olan beynəlxalq standartlara uyğun olaraq sığınacaq axtaranların terrorçuluq aktlarında iştirak etmədiyini müəyyən edilməsi məqsədilə müvafiq tədbirlər görməyə çağırır.

Eyni zamanda, BMT-nin Təhlükəsizlik Şurası tərəfindən məsələ ilə əlaqədar 1368 saylı 12 sentyabr 2001-ci il tarixli Qətnamə qəbul olunmuşdur. Həmin Qətnamə beynəlxalq birliyi terrorizmlə mübarizə sahəsində mövcud olan Beynəlxalq Konvensiyaların və Təhlükəsizlik Şurası qətnamələrinin, xüsusilə yuxarıda qeyd olunmuş 1269(1999) saylı 19 oktyabr 1999-cu il tarixli Qətnamənin həyata keçirilməsi vasitəsilə terrorçuluq aktlarının qarşısının alınması üçün səylərin artırılmasına çağırmışdır.

Həmçinin BMT-nin Təhlükəsizlik Şurası 1373 (2001) saylı 28 sentyabr 2001-ci il tarixli Qətnaməsində qeyd etmişdir ki, dövlətlər terrorizmlə əlaqəsi olan təşkilatlara və şəxslərə köməklik göstərməkdən çəkinməli və həmin şəxsləri cinayət məsuliyyətinə cəlb etməli, terrorçuluq aktlarının qarşısının alınması məqsədilə müvafiq tədbirlər görməli, terrorizmi maliyyələşdirən, təşkil edən, dəstəkləyən və həyata keçirənlərə sığınacaq verməməlidirlər. Həmin Qətnamədə BMT-nin Təhlükəsizlik Şurası dövlətləri terrorçuluq aktlarının qarşısının alınması üçün əməkdaşlıq etməyə, terrorizmlə mübarizə sahəsində mövcud olan Beynəlxalq Konvensiyalara və Protokollara qoşulmağa, həmin sənədlərin və BMT-nin Təhlükəsizlik Şurasının yuxarıda qeyd olunmuş qətnamələrinin həyata keçirilməsi və bu sahədə əməkdaşlığın gücləndirilməsinə, milli və beynəlxalq hüququn müvafıq müddəalarına uyğun olaraq, qaçqın statusunun verilməsindən əvvəl sığınacaq axtaran şəxslərin terrorizmlə əlaqəsini müəyyən etməyə çağırmışdır.

BMT-nin Baş Məclisi 54/164 saylı 17 dekabr 1999-cu il tarixli Qətnaməsində insan hüquqlarının pozulmasını və həmçinin etnik nifrəti, zorakılığı və terrorizmi təşviq edən təbliğatı, eyni zamanda insan hüquq və əsas azadlıqlarının və demokratiyanın məhv edilməsinə, dovlətlərin ərazi bütövlüyünə və təhlükəsizliyinə təhlükə yaradılmasına, dövlətlərin sabitliyinin pozulmasına, pluralist vətəndaş cəmiyyətini sarsıtmağa, ölkələrin iqtisadiyyatının və sosial inkişafının qarşısının alınmasına yönəldilmiş fəaliyyət kimi terrorizmi pisləmiş və

beynəlxalq birliyi insan hüquqları sahəsində mövcud olan müvafiq beynəlxalq sənədlərə uyğun olaraq regional və beynəlxalq səviyyələrdə terrorizmlə mübarizəyə çağırmışdır.

Azərbaycan Respublikasının müvafiq dövlət qurumları beynəlxalq terrorçuluq aktlarının təşkilində, maliyyələşdirilməsində, dəstəklənməsində və həyata keçirilməsində günahkar olan şəxslərin müəyyən edilməsi və məhkəməyə cəlb olunması üçün mütəmadi olaraq lazımi təbdirləri görürlər. Belə ki, 1996-cı ildən başlayaraq beynəlxalq terrorçuluğa qarşı mübarizə daha da fəallaşdı, xüsusilə Azərbaycanın sərhədlərinin operativ-fiziki müdafiəsi, pasport və qeydiyyat rejimləri müddəalarına ciddi riayət olunması üzərində nəzarət və sərhəd məntəqələrində nəzarət-buraxılış rejimi gücləndirilmişdir. Habelə, xarici şəxslərin Azərbaycana qeyri-qanuni axınının qarşısının alınması, qeyri-qanuni yolla məskunlaşmış şəxslərin müəyyən zaman ərzində deportasiya edilməsi sahəsində müvafiq tədbirlər həyata keçirilir.

Həyati əhəmiyyətli obyektlərin, qaz və neft kəmərlərinin, müvafiq çənlərin, terminalların, radioaktiv və zəhərləyici maddələrin, hava və dəniz limanlarının, tərsanələrin, səfirliklərin, beynəlxalq təşkilatların və nümayəndəliklərin, xarici şirkətlərin, dini qurumların mühafizəsinin gücləndirilməsi üzrə ciddi kompleks profilaktik və əməliyyat-axtarış tədbirləri həyata keçirilir. Beynəlxalq terror təşkilatlarının üzvlərinin, transmilli və regionlararası mütəşəkkil cinayatkarlıqla məşğul olan qruplaşmaların, yaxud onlarla sıx əlaqədə olan şəxslərin, həmçinin cinayətkar fəaliyyətə və dini ekstremizmə meylli şəxslərin müəyyənləşdirilməsi və ifşa edilməsi məqsədilə əlavə tədbirlər görülür. Azərbaycanın hüquq-mühafizə orqanları tərəfindən terror qrupları və terrorçuların müəyyənləşdirilməsi, aşkar və həbs edilməsi üzrə əməliyyat-axtarış tədbirləri, həmçinin Azərbaycan Respublikasının qanunlarına müvafiq olaraq, terrorçuluqla bağlı hər hansı bir fəaliyyətin qarşısının alınması üzrə profilaktik tədbirlər həyata keçirilir.

1937-ci ildə hələ Millətlər Liqasının himayəsi altında qəbul olunmuş «Terrorizmin qarşısının alınması və cəzalandırılması haqqında» Beynəlxalq Konvensiyanın həyata keçirilməsi üçün birgə beynəlxalq səylər nəticəsiz qalmışdır[1]. Bu uğursuzluqdan sonra beynəlxalq birlik terrorizm məsələsinə hərtərəfli şəkildə deyil, yalnız hissə-hissə baxılmasına üstünlük vermişdir. Terrorizm məsələsinə müxtəlif perspektivlərdən və kontekstlərdən baxıldığına görə beynəlxalq birlik tərəfindən bu günə kimi ona ümumi bir anlayışın verilməsi mümkün olmamışdır. Alimlər və mütəxəssislər tərəfindən bir sıra anlayışlar irəli sürülsə[2] də, onlar ya həddindən artıq geniş mənalıdır, yaxud da ayrı-ayrı terrorçuluq aktlarının növləri ilə məhdudlaşır[3]. Həqiqətən, terrorizmin anlayışı ilə əlaqədar problem terrorizmlə bağlı müzakirənin ən əsas faktorudur.

Qeyd etmək lazımdır ki, terror aktlarının kim tərəfindən törədilməsindən asılı olmayaraq, onlar insan hüquqlarının müdafiəsi üçün nəzərdə tutulan normalara birbaşa təsir göstərir və elə bir hüquq yoxdur ki, ona

---

[1] Bax. Murphy, United Nations p.179, T.M. Franck and B.Lockwood, "Preliminary Thoughts Towards an International Convention on Terrorism", 68 AJIL, 1974, p. 69

[2] Áàõ. «Международное публичное право», К.Бекяшев, 2000, стр.548

[3] Áàõ. «Международное право», Ю.Н.Колосов, стр. 389

terrorizmin təsiri olmasın. Dövlətlər öz yurisdiksiyaları altında olan bütün şəxslərin hüquqlarının təşviq edilməsi və müdafiəsi öhdəliyi daşıyırlar. Terrorizmi dəstəkləyən dövlətlər insan hüquqlarının əsas prinsiplərini kobud şəkildə pozur və həmin dövlətlərə qarşı insan hüquqları sahəsində mövcud olan sənədlər və müvafıq mexanizmlər, lazım gəldikdə isə humanitar hüquq çərçivəsində beynəlxalq tədbirlər görülməlidir. Həmin tədbirlərin görülməsi şübhəsiz terror aktlarının xeyli azaldılmasına gətirib çıxaracaqdır.

Terror aktlarının azaldılmasının vacib üsulu həmin aktları törədənlərin məsuliyyətə cəlb edilməsindən ibarətdir. Cəzasızlıq təcrübəsi terrorizmə dəstək vermək kimi qiymətləndirilə bilər[4]. Terror aktlarını törədən şəxslərin ekstradisiya edilməsinə cəzasızlığın aradan qaldırılmasına yönəldilmiş vasitədir. Ekstradisiya terrorizmlə mübarizədə beynəlxalq əməkdaşlığın səmərəli həyata keçirilməsi üçün zəruri olan prosedur hesab edilir. Cinayətkarların ekstradisiya edilməsinin cəzasızlığın qarşısının alınmasında güclü bir vasitə kimi baxıldığına görə terrorizmə qarşı mübarizə sahəsində mövcud olan beynəlxalq sənədlərdə cinayətkarların ekstradisiya edilməsi məsələsinə geniş yer ayrılmışdır. Eyni zamanda, məsələn, sorğu edilən şəxsin ölüm cəzasını tətbiq edən dövlətə ekstradisiya edilməsindən dövlətin imtina edə biləcəyini nəzərə alaraq, terror aktını törətmiş şəxslərin digər dövlətə verilməsi çağırışı dəqiq öyrənilməli və təhlil edilməlidir. Bununla əlaqədar olaraq, terrorizmə qarşı təsirli üsul kimi ekstradisiyadan istifadə edilməsinə xələl gətirməmək üçün dövlətlərdə insan hüquqlarına və beynəlxalq humanitar hüquq normalarına uyğun olan hüquq sisteminin yaradılması xususi əhəmiyyət kəsb edir.

Terrorizmlə mübarizə sahəsində Azərbaycan Respublikasının qanunvericiliyi beynəlxalq-hüquqi sənədlərə uyğunlaşdırılmışdır və onun təkmilləşdirilməsi üzrə iş davam etdirilir. Bu sahədə ən mühüm dövlətdaxili normativ-hüquqi akt 18 iyun 1999-cu il tarixli «Terrorçuluğa qarşı mübarizə haqqında» Azərbaycan Respublikasının Qanunudur. Həmin Qanun Azərbaycan Respublikasında terrorçuluğa qarşı mübarizənin hüquqi və təşkilati əsaslarını müəyyən edir, terrorçuluq əleyhinə mübarizəni həyata keçirən dövlət orqanlarının fəaliyyətini əlaqələndirir, habelə həmin orqanların və vətəndaşların hüquqlarını və vəzifələrini təsbit edir.

Qeyd olunmuş Qanunun 1-ci maddəsinə uyğun olaraq, terrorçuluq anlayışı altında içtimai təhlükəsizliyin pozulması, əhali arasında vahimə yaradılması, yaxud dövlət hakimiyyət orqanları və ya beynəlxalq təşkilatlar tərəfindən qərar qəbul edilməsinə təsir göstərmək məqsədilə insanların həlak olması, onların sağlamlığına zərər vurulması, əhəmiyyətli əmlak ziyanının vurulması və ya başqa içtimai təhlükəli nəticələrin baş verməsi təhlükəsi yaradan partlayış, yanğın və ya digər hərəkətlərin törədilməsi, habelə həmin məqsədlə bu cür hərəkətlərin törədiləcəyi ilə hədələmə başa düşülür.

Azərbaycan Respublikasında terrorçuluğa qarşı mübarizə insan hüquqları və azadlıqları, cəmiyyətin və dövlətin təhlükəsizliyinin təmin edilməsi, terrorçuluğun aşkar edilməsi, qarşısının alınması və terrorçuluq nəticəsində gözlənilən zərərin minimuma endirilməsi, terrorçuluğun yaranması və həyata keçirilməsi səbəbinin və şəraitinin,

---

[4] Áàõ. Õöñóñè Ì ÿðóçÿ÷è õàíû ì Ê.Êàóôà òÿðÿôèíäÿí ùàçûðëàí ì ûø «Òåððîðèç ì âÿ èíñàí ùöãóãëàðû» ààëû ì ÿðóçÿ (Å/Æ Í.4/Ñóá.2/2001/31, 27.06.2001)

habelə terrorçuluğun maliyyələşdirilməsi və digər yardımlar edilməsi hallarının aşkar və ləğv edilməsi məqsədləri ilə həyata keçirilir. Terrorçuluğa qarşı mübarizə qanunçuluğun təmin edilməsi, terror fəaliyyətinin həyata keçirilməsinə görə Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş cəzanın labüdlüyü, terrorçuluğa qarşı mubarizə zamanı açıq və gizli metodların əlaqələndirilməsi, hüquqi, siyasi, sosial, iqtisadi və təşkilati-profilaktik tədbirlərin kompleks istifadəsi, terror fəaliyyəti nəticəsində təhlükəyə məruz qalmış şəxslərin hüquqlarının müdafiəsinin üstünlüyü, terrorçuluq əleyhinə aparılan əməliyyatlara cəlb olunmuş qüvvələrin idarə edilməsində müstəqillik, terrorçuluq əleyhinə aparılan əməliyyatların həyata keçirilməsində iştirak edən şəxsi heyətin, o cümlədən bu məqsədlə istifadə edilən texniki üsulların və taktikanın elan edilməsində minimal aşkarlıq prinsiplərinə əsaslanır.

Yuxarıda göstərilən Qanunun 17-ci maddəsinə əsasən, terror fəaliyyətində iştirak edən şəxslər Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar. İnsan hüquqları və azadlıqları, dövlət təhlükəsizliyinin və beynəlxalq təhlükəsizliyin təmin olunması maraqlarını rəhbər tutaraq, terror əməlləri törədən və ya bu cür əməllərin törədilməsində iştirakçı olan şəxslər bu əməllərin planlaşdırılması və ya həyata keçirilməsi yerindən asılı olmayaraq, Azərbaycan Respublikasının qanunvericiliyi, habelə Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələrə əsasən cinayət məsuliyyətinə cəlb edilir və cəzalandırılırlar və ya cinayət məsuliyyətinə cəlb edilməsi, yaxud təyin edilmiş cəzanın icrası üçün xarici dövlətə geri verilə bilərlər.

Azərbaycan Respublikası tərəfdar çıxdığı dövlətlərarası müqavilələrə əsasən terrorçuluğa qarşı mübarizə sahəsində xarici dovlətlərlə, onların hüquq-mühafizə orqanları ilə, habelə terrorçuluğa qarşı mübarizə aparan beynəlxalq təşkilatlarla əməkdaşlıq edir.

Qeyd olunan Qanunun 19-cu maddəsinə əsasən, terror fəaliyyəti ilə əlaqəsinə görə Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən təşkilat (onun filialı, nümayəndəliyi) Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada məhkəmənin qərarı əsasında ləğv edilə bilər. Terror fəaliyyəti ilə əlaqəsi Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq müəyyən edilmiş təşkilat ləğv edilərkən ona mənsub olan əmlak Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq müsadirə edilir və dövlətin hesabına keçirilir.

Azərbaycan Respublikasının yeni qəbul olunmuş Cinayət Məcəlləsində terrorçuluğa (maddə 214) və dövlət və ya içtimai xadimin həyatına qəsd edilməsinə (maddə 277) görə cinayət məsuliyyəti nəzərdə tutulmuşdur. Bu maddələrdə sadalanan hərəkətlər öz xarakteri və içtimai təhlükəlilik dərəcəsinə görə ağır və xüsusi ağır cinayətlərə aiddir. Eyni zamanda, Cinayət Məcəlləsinin 12.3 maddəsinə uyğun olaraq, terrorçuluğu törətmiş xarici vətəndaşlar və vətəndaşlığı olmayan şəxslər cinayətin törədilmə yerindən asılı olmayaraq, cinayət məsuliyyətinə və cəzasına cəlb olunurlar. Həmin Məcəllədə terrorçuluqla yanaşı, digər cinayət tərkibləri də təsbit olunur. Məsələn, girov götürülməsi, hava və ya su nəqliyyatı gəmisinin, yaxud dəmir yolu qatarının

qaçırılması, qeyri-qanuni silah hazırlanması, silah, sursat, partlayıcı maddə və partladıcı qurğuların oğurlanması və ya zorla ələ keçirilməsi, qanunla nəzərdə tutulmayan silahlı qruplaşmaların və ya qrupların təşkil edilməsinə görə də cinayət məsuliyyəti nəzərdə tutulur.

«Qaçqınlar və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında» 21 may 1999-cu il tarixli Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq, beynəlxalq hüquqda təyin edildiyi kimi, sülhə qarşı cinayət, hərbi cinayət, bəşəriyyətə və ya insanlığa qarşı cinayət törətdiyi müəyyənləşdirilmiş şəxsə; Azərbaycan Respublikasının ərazisinə gələnə qədər onun hüdudlarından kənarda qeyri-siyasi xarakterli ağır və ya xüsusilə ağır cinayət törətmiş şəxsə; BMT-nin məqsəd və prinsiplərinə zidd əməllər törətməkdə müqəssir olan şəxsə qaçqın statusu verilmir.

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası terrorçuluqla mübarizə sahəsində Birləşmiş Millətlər Təşkilatı çərçivəsində qəbul olunmuş 16 dekabr 1970-ci il tarixli «Hava gəmilərinin qeyri-qanuni olaraq ələ keçirilməsi ilə mübarizə haqqında Konvensiya»[5], 23 sentyabr 1971-ci il tarixli «Mülki aviasiyanın təhlükəsizliyinə qarşı yönəlmiş qeyri-qanuni aktlarla mübarizə haqqında» Konvensiya[6], 14 dekabr 1973-cü il tarixli «Beynəlxalq müdafiədən istifadə edən şəxslərə, o cümlədən diplomatik agentlərə qarşı cinayətlərin qarşısının alınması və cəzalandırılması haqqında» Konvensiya[7], 24 fevral 1988-ci il tarixli «Mülki aviasiyanın təhlükəsizliyinə qarşı yönəlmiş qeyri-qanuni aktlarla mübarizə haqqında Konvensiyanı tamamlayan, beynəlxalq mülki aviasiyaya xidmət edən aeroportlarda qeyri-qanuni zorakı aktlarla mübarizə haqqında» Protokol[8], 18 dekabr 1979-cu il tarixli «Girov götürülməyə qarşı mübarizə haqqında» Beynəlxalq Konvensiya[9], 1 mart 1991-ci il tarixli «Plastik partlayıcı maddələrin aşkar edilməsi üçün markalanma haqqında» Konvensiya[10], 15 dekabr 1997-ci il tarixli «Bomba terrorizmi ilə mübarizə haqqında» Beynəlxalq Konvensiya[11], 9 dekabr 1999-cu il tarixli «Terrorizmin maliyyələşdirilməsi ilə mübarizə haqqında Beynəlxalq Konvensiya»ya[12] qoşulmuşdur. Həmçinin Azərbaycan Avropa Şurası tərəfindən qəbul olunmuş 24 noyabr 1983-ci il tarixli «Zorakı cinayətlərin qurbanlarına vurulmuş ziyanın ödənilməsi haqqında Avropa Konvensiyası», 13 dekabr 1957-ci il tarixli «Ekstradisiya haqqında Avropa Konvensiyası», 15 oktyabr 1975-ci il tarixli «Ekstradisiya haqqında Avropa Konvensiyasına Əlavə Protokol», 17 mart 1978-ci il tarixli «Ekstradisiya haqqında Avropa Konvensiyasına Ikinci Əlavə Protokol», 8 noyabr 1990-ci il tarixli «Cinayətkar fəaliyyət nəticəsində əldə edilmiş gəlirlərin leqallaşdırılması (yuyulması), aşkar olunması, götürülməsi və müsadirəsi haqqında Avropa Konvensiyası», 20 aprel 1959-cu il tarixli «Cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım

[5] Àçÿðáàéæàí Ðåñïóáëèêàñûíûí ìöíàñèáÿòäÿ 2 àïðåë 2000-æè èë òàðèõèíäÿí ãöââÿäÿäèð
[6] Àçÿðáàéæàí Ðåñïóáëèêàñûíûí ìöíàñèáÿòäÿ 14 àïðåë 2000-æè èë òàðèõèíäÿí ãöââÿäÿäèð
[7] Àçÿðáàéæàí Ðåñïóáëèêàñûíûí ìöíàñèáÿòäÿ 2 àïðåë 2001-æè èë òàðèõèíäÿí ãöââÿäÿäèð
[8] Àçÿðáàéæàí Ðåñïóáëèêàñûíûí ìöíàñèáÿòäÿ 22 àïðåë 2000-æè èë òàðèõèíäÿí ãöââÿäÿäèð
[9] Àçÿðáàéæàí Ðåñïóáëèêàñûíûí ìöíàñèáÿòäÿ 29 ôåâðàë 2000-æè èë òàðèõèíäÿí ãöââÿäÿäèð
[10] Àçÿðáàéæàí Ðåñïóáëèêàñûíûí ìöíàñèáÿòäÿ 2 ñåíòéàáð 2000-æè èë òàðèõèíäÿí ãöââÿäÿäèð
[11] Àçÿðáàéæàí Ðåñïóáëèêàñûíûí ìöíàñèáÿòäÿ 2 àïðåë 2001-æè èë òàðèõèíäÿí ãöââÿäÿäèð
[12] Àçÿðáàéæàí Ðåñïóáëèêàñûíûí ìöíàñèáÿòäÿ 26 îêòéàáð 2001-æè èë òàðèõèíäÿí ãöââÿäÿäèð

haqqında Avropa Konvensiyası» və 17 mart 1978-ci il tarixli «Cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım haqqında Avropa Konvensiyasına Əlavə Protokol»un iştirakçısıdır.

Eyni zamanda qeyd etmək lazımdır ki, Birləşmiş Millətlər Təşkilatı çərçivəsində qəbul olunmuş 14 sentyabr 1963-cü il tarixli «Təyyarə göyərtəsində törədilən cinayət və bir sıra aktlar haqqında Konvensiya», 3 mart 1980-ci il tarixli «Nüvə materialının fiziki mühafizəsi haqqında Konvensiya», 10 mart 1988-ci il tarixli «Dəniz gəmiçiliyinin təhlükəsizliyi əleyhinə qeyri-qanuni aktların qarşısının alınması haqqında Konvensiya» və 10 mart 1988-ci il tarixli «Kontinental şelfdə yerləşən bərkidilmiş platformaların təhlükəsizliyi əleyhinə qeyri-qanuni aktların qarşısının alınması haqqında Protokol»a qoşulmaq və Avropa Şurası tərəfindən qəbul olunmuş 15 may 1975-ci il tarixli «Cinayət işləri üzrə məhkəmə icraatının verilməsi haqqında Avropa Konvensiyası» və 27 yanvar 1977-ci il tarixli «Terrorizmin qarşısının alınması haqqında Avropa Konvensiyası»nı ratifikasiya etmək məqsədilə Azərbaycan Respublikasında müvafiq dövlətdaxili prosedurlar həyata keçirilir.

Ümumiyyətlə, Azərbaycan Respublikası BMT və Avropa Şurası çərçivəsində bu sahədə qəbul olunmuş 15 sənəddə iştirak edir və daha 6 sənəddə iştirak etməsi üçün müvafiq tədbirlər görür.

Qeyd edilməlidir ki, Azərbaycan Respublikası BMT Baş Məclisinin Altıncı Komitəsi çərçivəsində «Terrorizmlə mübarizə haqqında ümuməhatəli Konvensiya» layihəsinə dair aparılan müzakirələrdə fəal iştirak edir. Bu Konvensiyanın yekun mətni qəbul edildikdən sonra Azərbaycan Respublikasının həmin Konvensiyada iştirak etməsinə müvafiq qaydada baxılacaqdır.

Eyni zamanda qeyd etmək lazımdır ki, terrorizmlə mübarizə məsələsinə həmçinin Avropa Şurası çərçivəsində xüsusi diqqət yetirilir. Həmin Təşkilat tərəfindən terrorizmə qarşı mübarizəyə təşviq edən bir sıra qətnamə və tövsiyyələr qəbul olunmuşdur[13].

2001-ci ilin 11 sentyabr tarixindən sonra Avropa Şurasının Nazirlər Komitəsi tərəfindən 12 sentyabr 2001-ci ildə beynəlxalq terrorizmə qarşı Bəyannamə qəbul olunmuşdur. Həmin Bəyannamənin icrasını təmin etmək məqsədilə Avropa Şurasının Nazirlər Komitəsi 11 iyul 2002-ci il tarixində 804-cü iclasında İnsan hüquqları və terrorizmlə mübarizə sahəsində Rəhbər Prinsipləri təsdiq etmişdir.

İlk növbədə, «İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında Konvensiya»nın iştirakçısı olan dövlətlər ilə bağlı mövcud olan vəziyyət xüsusi qeyd olunmalıdır. Həmin Konvensiyanın 46-ci maddəsinə uyğun olaraq, Konvensiyanın iştirakçısı olan dövlətlər Avropa İnsan hüquqları Məhkəməsinin onların tərəfdar olduqları işlər üzrə yekun qərarına riayət etməyi öhdəliklərinə götürürlər və Məhkəmənin yekun qərarı onun icrasına nəzarəti həyata keçirən Nazirlər Komitəsinə göndərilir.

Bununla əlaqədar olaraq, həm Konvensiya, həm də Məhkəmənin təcrübəsi insan hüquq və azadlıqlarının təmin edilməsi məqsədilə terrorizmə qarşı mübarizənin aparılmasında rəhbər prinsiplərin müəyyən edilməsi üçün əsas

---

[13] The Parliamentary Assembly Resolutions 1132 (1997), 1426 (1999), 1258 (2001), 1271 (2002) and Recommendations 1426 (1999), 1534 (2001), 1550 (2002)

mənbə olmuşdur. Eyni zamanda, həmin prinsiplərin tərtibi zamanı 16 dekabr 1966-ci il tarixli «Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakt» kimi digər beynəlxalq mənbələr istifadə edilmişdir.

Həmin Rəhbər Prinsiplər terrorizmə qarşı Avropa Şurasının ümumi fəaliyyətinə daxil edilməlidir. Göstərilən sənədin əsasını terrorizmə qarşı mübarizədə insan hüquqlarına hörmət etmək prinsipi təşkil edir.

Dövlətlərin terror aktlarından öz ərazisi daxilində hər bir insanın əsas hüquqlarının, xüsusilə yaşamaq hüququnun müdafiəsi öhdəliyi terrorizmə qarşı mübarizə aparmaq məqsədilə onlar tərəfindən müvafiq lazımi tədbirlərin görülməsini tələb edir. Lakin həmin tədbirlər əsaslı və məqsədlərə uyğun olmalıdır. Tarazlıq terrorizmə qarşı müdafiə tədbirlərinin görülməsi öhdəliyi ilə insan hüquq və azadlıqlarının müdafiəsi arasında tapılmalıdır.

Həmin Rəhbər Prinsiplərdə qeyd olunmuşdur ki, dövlətlər tərəfindən terrorizmlə mübarizə məqsədilə görülən hər hansı bir tədbirin hüquqi əsası olmalıdır. Əgər hər hansı bir tədbir insan hüquqlarını məhdudlaşdırırsa, həmin məhdudiyyətlər mümkün qədər dəqiq müəyyən edilməli, zəruri olmalı və təqib edilən məqsədə münasibətdə proporsional olmalıdır.

Rəhbər Prinsiplər xüsusilə «İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Konvensiya» əsasında tərtib edilmiş və ilk növbədə Avropa Şurasının üzvü olan dövlətlərə istiqamətlənmişdir. Bununla əlaqədar olaraq, həmin sənəd insan hüquqlarına, demokratiyaya və qanunun aliliyinə hörmət etmək öhdəliyi götürmüş dövlətləri birləşdirən Avropa Şurası çərçivəsində təfsir edilməlidir.

Qeyd etmək lazımdır ki, həmin Rəhbər Prinsiplərin əsas məqsədi terrorizmin səbəbi və nəticələri kimi vacib məsələlərin baxılmasından ibarət deyil. Eyni zamanda, həmin Rəhbər Prinsiplərdə Nazirlər Komitəsi terrorizmin insan hüquqlarını ciddi şəkildə pozan, demokratiyaya təhlükə yaradan və xüsusilə qanuni şəkildə yaradılmış hökumətlərin qeyri-sabitliyinə və plüralistik mülki cəmiyyətə ziyan vuran ağır qəsd olduğunu hesab edərək, istənilən terrorçuluq fəaliyyəti, metodları və praktikasını qətiyyətlə pisləmişdir.

Həmçinin, həmin sənəddə Nazirlər Komitəsi dövlətlərin terrorizmlə mübarizə zamanı insan hüquqları sahəsində mövcud olan beynəlxalq sənədlərə, Avropa Şurasının üzv-dövlətlərinin isə xüsusilə «İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında Konvensiya»ya və Avropa İnsan hüquqları Məhkəməsinin təcrübəsinə riayət etmək öhdəliyini bir daha təsdiqləmişdir.

Həmin Rəhbər Prinsiplərdə qeyd olunmuşdur ki, terror aktlarının törədilməsində şübhəli bilinən icraçıların, təşkilatçıların və himayədarların ədalət mühakiməsinə verilməsi və bütün törətdikləri əməllərə görə onların məsuliyyətə cəlb edilməsi üçün dövlətlər əməkdaşlıq etməli və terror aktlarının qurbanlarına dəymiş ziyanın ödənilməsi imkanının yaradılmasında dövlətlər tərəfindən köməklik göstərilməlidir.

Qeyd olunmalıdır ki, Rəhbər Prinsiplər terrorizmə qarşı mübarizədə tətbiq edilməli olan məhdudiyyətləri nəzərdə tutur, yaşamaq hüququna hörmətə və özbaşınalığın və işgəncələrin qadağan edilməsi prinsiplərinə əsaslanır, habelə terrorizmə qarşı mübarizədə tətbiq edilən preventiv tədbirləri əks etdirir.

Rəhbər Prinsiplər dövlətlər tərəfindən öz ərazilərində insan hüquqlarının müdafiəsi məqsədilə terrorizmə qarşı müvafiq tədbirlərin görülməsi və həmin tədbirlərin qanuniliyi, işgəncələrin və digər qəddar, insanlıqdan kənar, yaxud ləyaqəti alçaldan davranış və ya cəzanın tətbiqinin qadağan edilməsi, terrorizmə qarşı mubarizə baxımından səlahiyyətli orqanlar tərəfindən şəxsi məlumatın toplanılmasının mümkünlüyü, şəxsi həyata müdaxilə tədbirləri, terrorizm fəaliyyətində şübhəli bilinən şəxsin əsassız saxlanılmasının yolverilməzliyi, habeas corpus və məhkəmə prosedurları, təqsirsizlik prezumsiyasının tətbiq edilməsi, terror fəaliyyəti ilə məşğul olduğuna görə ittiham olunmuş şəxsin qanuni məhkəmə qarşısında cavab verməsi, həmin şəxsə ölüm cəzasının tətbiq edilməməsi, lakin ona qarşı lazımi saxlama məhdudiyyətlərinin qoyulması, terror fəaliyyəti ilə məşğul olan şəxsə sığınacağın verilməməsi, terrorizmə qarşı mübarizədə beynəlxalq əməkdaşlıq üçün ekstradisiyanın vacibliyi, terror fəaliyyəti ilə məşğul olan şəxslərə və təşkilatlara məxsus olan əmlakdan istifadənin dayandırılması və ya məhdudlaşdırılması, öhdəliklərdən geriçəkilmə imkanı, terrorizmə qarşı mübarizədə dövlətlər tərəfindən beynəlxalq hüququn və beynəlxalq humanitar hüququn normalarına riayət edilməsi və terror aktlarının qurbanlarına dəymiş ziyanın ödənilməsi kimi məsələləri tənzimləyir.

Həmin Rəhbər Prinsiplərin həm dövlət orqanları, həm də geniş oxucu kütləsi arasında yayılmasının təmin edilməsi məqsədilə onun Azərbaycan və rus dillərindəki mətnlərini təqdim edirik[14].

## İNSAN HÜQUQLARI VƏ TERRORİZMLƏ MÜBARİZƏ SAHƏSİNDƏ AVROPA ŞURASI NAZİRLƏR KOMİTƏSİNİN

## RƏHBƏR PRİNSİPLƏRİ

Nazirlər Komitəsinin 11 iyul 2002-ci il tarixində 804-cu iclası zamanı təsdiq edilmişdir

## PREAMBULA

Nazirlər Komitəsi,

(a) Terrorizmi insan hüquqlarını ciddi şəkildə pozan, demokratiyaya təhlükə yaradan və xüsusilə də qanuni şəkildə yaradılmış hökumətlərin qeyri-sabitliyinə və plüralistik mülki cəmiyyətə ziyan vuran ağır qəsd hesab edərək;

(b) İstənilən terrorçuluq fəaliyyəti, metodları və praktikasını, onların harada və kim tərəfindən törədilməsindən asılı olmayaraq, cinayət və bəraət qazandırılmayan əməl kimi qətiyyətlə pisləyərək;

(c) Terror aktının heç bir zaman bağışlanılmayacağını, insan hüquqlarına istinadən bəraət qazandırıla bilməyəcəyini və hüquqdan sui-istifadənin heç bir zaman müdafiə olunmayacağını xatırladaraq;

---

[14] Ùÿ ìèí Ðÿùáÿð Ïðèíñèïëÿð ÿëàâÿ îëóíóð

(d) İnsan hüquqlarına, qanunun aliliyinə və tətbiq edilə biləcəyi yerdə humanitar hüquqa hörmət edərək, terrorizmlə mübarizənin nəinki mümkün, hətta zəruri olduğunu xatırladaraq;

(e) Dövlətlər tərəfindən bütün mümkün səylərin göstərilməsi, xüsusilə də terror aktlarının törədilməsində şübhəli bilinən icraçıların, təşkilatçıların və himayədarların ədalət mühakiməsinə verilməsi və bütün törətdikləri əməllərə görə onların məsuliyyətə, o cümlədən cinayət və mülki məsuliyyətə cəlb edilməsi üçün əməkdaşlığın həyata keçirilməsi zərurətini xatırladaraq;

(f) Dövlətlərin öz əhalisini mümkün terror aktlarından müdafiə etmək üçün imperativ öhdəlik daşıdığını bir daha xatırladaraq;

(g) Terror aktlarının qurbanlarına dəymiş ziyanın ödənilməsi imkanının yaradılmasında, xüsusilə ədalətlilik və sosial həmrəylik baxımından Dövlətlər tərəfindən qayğının göstərilməsi zərurətini xatırladaraq;

(h) Terrorizmlə mübarizənin, onun səbəblərinin aradan qaldırılmasına yönəlmiş, xüsusilə içtimaiyyətlərimizin birləşməsi, çoxmədəniyyətli və dinlərarası dialoqun həyata keçirilməsi yolu ilə uzunmüddətli tədbirlərin görülməsinin nəzərdə tutduğunu xatırladaraq;

(j) Dövlətlərin terrorizmlə mübarizə zamanı insan hüquqları sahəsində mövcud olan beynəlxalq sənədlərə, Avropa Şurası üzv-dövlətlərinin isə xüsusilə «İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Konvensiya»ya və Avropa İnsan hüquqları Məhkəməsinin təcrübəsinə riayət etmək öhdəliyini bir daha təsdiqləyərək, aşağıdakı Rəhbər Prinsipləri qəbul edir və bütün üzv-dövlətlərdən, üzərinə terrorizmlə mübarizə aparmaq vəzifəsi qoyulmuş bütün hakimiyyət orqanları arasında onların geniş yayılmasının təmin edilməsini xahiş edir.

## I. Dövlətin istənilən şəxsi terrorizmdən müdafiə etmək vəzifəsi

Dövlətlər öz yurisdiksiyaları altında olan şəxslərin əsas hüquqlarının, xüsusilə yaşamaq hüquqlarını terror aktlarından müdafiə etmək üçün bütün zəruri tədbirləri görməlidir. Bu cür pozitiv öhdəlik hazırkı Rəhbər Prinsiplərə hörmət etməklə dövlətlərin terrorizmlə mübarizə aparmasına tam bəraət qazandırır.

## II. Özbaşınalığın qadağan edilməsi

Dövlətlər tərəfindən terrorizmlə mübarizə məqsədilə görülən tədbirlər, hər hansı bir özbaşınalığı, habelə ayrıseçkiliyi və ya irqi münasibəti istisna edərək, insan hüquqlarına və qanunun aliliyi prinsipinə riayət etməklə həyata keçirilməli və müvafiq nəzarət altına alınmalıdır.

## III. Terrora qarşı tədbirlərin qanuniliyi

1. Dövlətlər tərəfindən terrorizmlə mübarizə məqsədilə görülən hər hansı bir tədbirin hüquqi əsası olmalıdır.

2. Əgər hər hansı bir tədbir insan hüquqlarını məhdudlaşdırırsa, həmin məhdudiyyətlər mümkün qədər dəqiq müəyyən edilməli, zəruri olmalı və təqib edilən məqsədə münasibətdə proporsional olmalıdır.

## IV. İşgəncələrin tamamilə qadağan edilməsi

İşgəncələrin və ya qeyri-insani və ya ləyaqəti alçaldan davranış və ya cəzanın tətbiqi bütün hallarda, xüsusilə terror hərəkətlərinin törədilməsində şübhəli bilinən və ya bu cür hərəkətlərə görə məhkum edilmiş şəxsin, onun şübhəli və ya təqsirli bilindiyi hərəkətin nədən ibarət olmasından asılı olmayaraq, həbs edilmə, dindirilmə və həbsdə saxlanılma zamanı qadağandır.

**V. Dövlət təhlükəsizliyi sahəsində səlahiyyətə malik olan hər hansı orqan tərəfindən şəxsi məlumatın toplanması və yenidən işlənilməsi** terrorizmlə mübarizə çərçivəsində dövlət təhlükəsizliyi sahəsində səlahiyyətə malik olan hər hansı orqan tərəfindən şəxsi məlumatın toplanması və yenidən işlənilməsi şəxslərin şəxsi həyatına hörmətin edilməsinə yalnız o zaman xələl gətirə bilər ki, həmin məlumatın toplanması və yenidən işlənilməsi, xüsusilə:

(i) daxili hüququn müvafiq müddəaları ilə tənzimlənmiş olsun;

(ii) həmin məlumatın toplanması və yenidən işlənilməsi nəzərdə tutulan məqsədə proporsional olsun;

(iii) digər müstəqil səlahiyyətli orqan tərəfindən nəzarət altında olsun.

## VI. Şəxsi həyata müdaxilə tədbirləri

1. Şəxsi həyata müdaxilədən ibarət olan terrorizmlə mübarizə tədbirləri (xüsusilə axtarış, götürmə, qulaqasma, o cümlədən telefon danışıqlarına qulaq asma, yazışmanın yoxlanılması və məxfi agentlərin cəlb edilməsi) qanunda nəzərdə tutulmalıdır. Bu cür tədbirlər məhkəmə nəzarətini mümkün etməlidir.

2. Terrorizmlə mübarizə üçün görülən tədbirlər hakimiyyət tərəfindən elə bir qaydada hazırlanmalı və nəzarət altında olmalıdır ki, məhv etməyə yönəldilmiş gücün təsirini mümkün qədər azalda bilsin və bu baxımdan da təhlükəsizlik qüvvələri tərəfindən silahın istifadəsi digər şəxslərin qeyri-qanuni zorakılıqdan müdafiə edilməsi zərurətinə və ya adi həbsi həyata keçirmək zərurətinə tamamilə proporsional olsun.

## VII. Saxlama və ibtidai həbs

1. Terrorçuluq fəaliyyətində şübhəli bilinən şəxs şübhəyə kifayət qədər əsas olmadıqda saxlanıla bilməz. Saxlamanın səbəbləri saxlanılan şəxsə bildirilməlidir.

2. Terror fəaliyyətinə görə saxlanılmış və ya həbs edilmiş şəxs təxirə salınmadan hakimin yanına gətirilməlidir. İbtidai həbsin müddəti məntiqə uyğun olmalı və onun həddi qanunla müəyyən edilməlidir.

3. Terror fəaliyyətinə görə saxlanılmış və ya həbs edilmiş şəxsin saxlanılmasının və həbs edilməsinin qanuniliyi haqqında məhkəməyə şikayət vermək imkanı olmalıdır.

## VIII. İbtidai həbsə mütəmadi nəzarət

Terror fəaliyyətində şübhəli bilinən və müvəqqəti saxlama təcridxanasına yerləşdirilmiş şəxs, onun həbsdə saxlanılmasının qanuniliyi üzrə məhkəmə tərəfindən mütəmadi nəzarət altında olmaq hüququna malikdir.

## IX. Məhkəmə prosedurları

1. Terror fəaliyyətində təqsirləndirilən şəxs, öz işinə münasib müddət ərzində qanun əsasında təsis edilmiş müstəqil və qərəzsiz məhkəmə tərəfindən baxılması hüququna malikdir.

2. Terror fəaliyyətində təqsirləndirilən şəxs təqsirsizlik prezumpsiyasına malik olmalıdır.

3. Buna baxmayaraq, terrorizmlə mübarizə ilə əlaqədar olan xüsusiyyətlər müdafiə hüququnu ayrı-ayrı məhdudiyyətlərlə şərtləndirə bilər, xüsusilə aşağıdakılara munasibətdə:

(i) vəkillə görüşmək və onunla əlaqə yaratmaq şəraiti;
(ii) işlə tanış olmaq şəraiti;
(iii) anonim şahid ifadələrinin istifadəsi.

4. Müdafiə hüququnun belə məhdudiyyətləri təqib məqsədinə tamamilə proporsional olmalı və məhkəmə araşdırmasının ədalətli xarakterini qoruyub saxlamaq və müdafiəçi hüququnun mahiyyətinin tamamilə aradan götürülməməsi üçün təqsirləndirilən şəxsin maraqlarını müdafiə etməyə imkan yaradan kompensasiya tədbirləri görülməlidir.

## X. Tətbiq edilən cəzalar

1. Terror fəaliyyətində təqsirləndirilən şəxs barəsində tətbiq edilən cəzalar, onun törədildiyi zaman artıq hüquq pozuntusu hesab edilən hərəkət və ya hərəkətsizliyə görə qanunda nəzərdə tutulmalıdır; hüquq pozuntusu törədilən zaman tətbiq edilmiş olan cəzadan daha ağır hər hansı bir cəza tətbiq edilə bilməz.

2. Hər bir halda terror fəaliyyətində təqsirləndirilən şəxs ölüm cəzasına məhkum edilə bilməz; bu cür hökmün çıxarılması mümkünlüyü saxlanıldıqda, həmin hökm icra edilə bilməz.

## XI. Azadlıqdan məhrum etmə

1. Terror fəaliyyəti ilə bağlı azadlıqdan məhrum edilmiş şəxsə, hər bir halda, insanın şəxsiyyətinə xas olan ləyaqətə hörmət göstərilməlidir.

2. Terrorizmlə mübarizənin məqsədləri terror fəaliyyəti ilə bağlı azadlıqdan məhrum edilmiş şəxs barəsində, digər məhkumlara tətbiq edilən məhdudiyyətlərdən fərqli olaraq, görülmüş tədbirin təqib edilən məqsədə proporsional olmasına riayət etmək şərtilə, daha əhəmiyyətli məhdudiyyətlərin tətbiq edilməsini tələb edə bilər, xüsusilə aşağıdakılara munasibətdə:

(i) məlumatın göndərilməsi qaydasının və yazışmanın, həmçinin vəkil və onun müştərisi arasında olan yazışmanın yoxlanılmasının tənzimlənməsinə;

(ii) terror fəaliyyəti ilə bağlı azadlıqdan məhrum edilmiş şəxslərin xüsusi təhlükəsizlik tələblərinə cavab verən həbsxana bloklarına yerləşdirilməsinə;

(iii) görülən tədbirlərin təqib edilən məqsədə proporsional olmasına riayət etmək şərtilə həmin şəxslərin bir penitensiar müəssisə daxilində və ya müxtəlif müəssisələrdə ayrı-ayrı yerləşdirilməsinə.

## XII. Sığınacaq, ölkədən çıxarma, sürgün etmə

1. Sığınacağın verilməsi haqqında hər bir müraciət fərdi qaydada baxılmalıdır. Onun əsasında qəbul edilmiş qərardan şikayət vermək üçün həqiqi imkan olmalıdır. Lakin əgər dövlətin kifayət qədər güman etməyə əsası varsa ki, sığınacaq hüququndan istifadə etmək istəyən şəxs terror fəaliyyətində iştirak etmişdir, həmin şəxsə qaçqın statusunun verilməsindən imtina edilməlidir.

2. Sığınacağın verilməsi haqqında müraciəti almış dövlət əmin olmalıdır ki, sığınacağı axtaran şəxsin öz ölkəsinə və ya digər ölkəyə göndərilməsi ehtimalı olduqda, ona ölüm cəzasının, işgəncələrin və ya qeyri-insani rəftarın və ya cəzanın tətbiq edilməsi təhlükəsi yoxdur. Həmin qayda sürgün olunmaya münasibətdə də tətbiq edilir.

3. Əcnəbilərin kütləvi sürgün edilməsi qadağandır.

4. Hər bir halda, ölkədən çıxarma və ya sürgün etmə haqqında qərarın icrası, ona fiziki zərərin vurulmasına imkan verməyən və onun ləyaqətinə hörmət edilməsini təmin edən, habelə hər hansı bir qeyri-insani və ya ləyaqəti alçaldan rəftarı istisna edən şərtlər əsasında həyata keçirilməlidir.

## XIII. Ekstradisiya

1. Ekstradisiya, terrorizmlə mübarizədə beynəlxalq əməkdaşlığın səmərəli həyata keçirilməsi üçün zəruri olan prosedur hesab edilir.

2. Şəxs, ölüm cəzasına məruz qalmaq riskinə düşən ölkəyə ekstradisiya edilə bilməz. Buna baxmayaraq, ekstradisiya haqqında müraciət almış dövlət aşağıdakılar barədə kifayət qədər təminat alarsa onun tətbiqinə razılıq verə bilər:

(i) ekstradisiya edilməli olan şəxs ölüm cəzasına məhkum edilməyəcək;

(ii) bu cür hökmün çıxarılması ehtimalı olduqda, həmin hökm icra edilməyəcək.

3. Əgər kifayət qədər güman etməyə əsas varsa ki:

(i) ekstradisiya edilməli olan şəxs işgəncələrə və ya qeyri-insani və ya ləyaqəti alçaldan rəftara və ya cəzaya məruz qalacaq;

(ii) ekstradisiya haqqında müraciət şəxsi irqi, dini, milli mənsubiyyəti və ya siyasi baxışları baxımından təqib etmək və ya cəzalandırmaq üçün verilmişdir, yaxud ehtimal olunursa ki, həmin şəxsin vəziyyəti bu səbəblərin hər hansı birindən pisləşəcək belə hallarda ekstradisiya həyata keçirilə bilməz.

4. Əgər ekstradisiya edilməli olan şəxs qətiyyətlə təsdiq edirsə ki, onun ekstradisiya edilməsini tələb edən dövlətdə ədalətli məhkəmə baxışının keçirilməsinə ona icazə verilməmişdir və ya sərt rədd cavabı ilə üzləşə bilər, onda bu cür müraciəti almış dövlət ekstradisiya haqqında qərar qəbul edənə qədər belə bəyanatın əsaslı olmasını nəzərdən keçirməlidir.

## XIV. Mülkiyyət hüququ

Terror fəaliyyətində şübhəli bilinən şəxslərə və ya təşkilatlara məxsus olan əmlakdan istifadə, xüsusilə də səlahiyyətli hakimiyyət orqanları tərəfindən həbs qoymaq və ya müsadirə etmək kimi tədbirlərin görülməsi vasitəsilə dayandırıla və ya məhdudlaşdırıla bilər. Bu cür qərar mülkiyyətçi və ya birgə mülkiyyətçilər tərəfindən məhkəməyə şikayət etmək mümkünlüyünə icazə verməlidir.

## XV. Öhdəliklərdən geri çəkilmə imkanı

1. Əgər terrorizmlə mübarizə millətə təhlükə yaradan müharibə və ya içtimai təhlükə şəraitində aparılırsa, dövlət insan hüquqlarının müdafiəsi üzrə beynəlxalq sənədlərdən irəli gələn bəzi öhdəliklərdən, şəraitin şərtləndirdiyi həcmdə və beynəlxalq hüquqda müəyyən edilmiş şərtlər həddində və həmin şərtlərə riayət etməklə, birtərəfli geri çəkilə bilər. Dövlət mövcud beynəlxalq öhdəliklərə uyğun olaraq bu cür tədbirlərin görülməsi haqqında səlahiyyətli orqanları məlumatlandırır.

2. Lakin dövlətlər heç bir halda və terror fəaliyyətində şübhəli bilinən və ya belə fəaliyyətə görə məhkum edilmiş şəxsin hərəkətinin nədən ibarət olmasından asılı olmayaraq, beynəlxalq sənədlərdə təmin edildiyi qaydada yaşamaq hüququndan, işgəncələri və ya qeyri-insani və ya ləyaqəti alçaldan rəftarı və ya cəzanı qadağan edən prinsiplərdən, tətbiq edilən cəzaların və tədbirlərin qanuniliyi prinsipindən, habelə qanunun geriyə qüvvəsini qadağan edən prinsipdən geriyə çəkilə bilməz.

3. Bu cür geriyə çəkilməni şərtləndirən hallar, onların mövcudluğuna son qoyulduğu andan həmin geriyə çəkilmələri ləğv etmək məqsədilə mütəmadi olaraq nəzərdən keçirilməlidir.

## XVI. Beynəlxalq hüququn imperativ normalarına və beynəlxalq humanitar hüququn normalarına riayət etmə

Terrorizmlə mübarizə aparan zaman dövlətlər heç bir halda beynəlxalq hüququn imperativ normalarından, habelə beynəlxalq humanitar hüququn normaları tətbiq edildikdə, sonuncudan geriyə çəkilə bilməz.

## XVII. Terror aktlarının qurbanlarına dəymiş ziyanın ödənilməsi

Əgər ziyanın ödənilməsi digər mənbələr hesabına, xüsusilə terror aktlarının icraçılarına, təşkilatçılarına və himayədarlarına məxsus olan əmlakın müsadirəsi vasitəsilə tam təmin edilə bilmirsə, dövlət onun ərazisində

törədilmiş belə aktlarla əlaqədar qurbanlara yetirilmiş zədələrə və səhhətə vurulmuş zərərə görə ziyanın ödənilməsində yardım etməlidir.

## Руководящие принципы
## Комитета Министров Совета Европы
## в области прав человека и борьбы с терроризмом

*утверждены на 804-м заседании Комитета Министров 11 июля 2002 г.*

### Преамбула

Комитет Министров,

[a] Полагая, что терроризм представляет собой тяжкое посягательство на права человека, угрожает демократии и, в частности, направлен на дестабилизацию законным образом учрежденных правительств и на подрыв плюралистического гражданского общества;

[b] Категорически осуждая как преступные и не подлежащие оправданию любые террористические действия, методы или практику, где бы и кем бы они ни осуществлялись;

[c] Напоминая, что террористический акт никогда не может быть ни прощен, ни оправдан ссылками на права человека, и что злоупотребление правом никогда не подлежит защите;

[d] Напоминая, что не только возможно, но абсолютно необходимо бороться против терроризма при уважении прав человека, верховенства права и гуманитарного права, там, где оно применимо;

[e] Напоминая о необходимости того, чтобы государства делали все возможное, и, в частности, сотрудничали с тем, чтобы предполагаемые исполнители, организаторы и спонсоры террористических актов предавались в руки правосудия и несли ответственность за все, в том числе уголовные и гражданские, последствия своих действий;

[f] Вновь подтверждая императивную обязанность государств защищать свое население от возможных актов терроризма;

[g] Напоминая о необходимости того, чтобы государства, в частности, по соображениям справедливости и социальной солидарности, заботились о предоставлении жертвам террористических актов возможности получения возмещения ущерба;

[h] Памятуя о том, что борьба с терроризмом предполагает принятие долгосрочных мер, направленных на устранение причин терроризма, в частности, путем сплочения наших обществ и проведения мульти культурного межрелигиозного диалога;

[j] Вновь подтверждая обязательство государств при ведении борьбы с терроризмом соблюдать международные инструменты в области прав человека, а для государств-членов [CE] - в особенности. Конвенцию о защите прав человека и основных свобод и практику Европейского суда по правам человека, принимает следующие руководящие принципы и просит государства-члены обеспечить их широкое распространение среди всех властей, на которые возложена задача борьбы с терроризмом.

## I. Обязанность государств защитить любое лицо от терроризма

Государства обязаны принять все необходимые меры для защиты *основных* прав, особенно права на жизнь, лиц, находящихся под их юрисдикцией, от террористических актов. Эта позитивная обязанность в полной мере оправдывает борьбу государств против терроризма при уважении настоящих Руководящих принципов.

## II. Запрет произвола

Меры, предпринимаемые государствами в целях борьбы с терроризмом, должны осуществляться с соблюдением прав человека и принципа верховенства права, исключая любой произвол, а также дискриминационное или расистское отношение, и должны подлежать соответствующему контролю.

## III. Законность антитеррористических мер

1. Любая мера, предпринимаемая государством в целях борьбы с терроризмом должна иметь юридическое основание.

2. Если какая-либо мера ограничивает права человека, ограничения должны быть максимально четко определены и быть необходимыми и пропорциональными преследуемой цели.

## IV. Абсолютный запрет пыток

Применение пыток или бесчеловечного или унижающего достоинство обращения или наказания абсолютно запрещено во всех случаях, в частности, при аресте, допросе и содержании под стражей лица, подозреваемого в совершении террористических действий или осужденного за такие действия, независимо от того, в чем состояли указанные действия, в совершении которых оно подозревается или обвиняется.

## V. Сбор и обработка персональных данных любыми органами, обладающими полномочиями в области государственной безопасности

В рамках борьбы с терроризмом сбор и обработка персональных данных любыми органами, обладающими полномочиями в области государственной безопасности, могут наносить ущерб уважению частной жизни лиц только в случаях, если эти сбор и обработка данных, в частности:

(i) регулируются соответствующими положениями внутреннего права;

(ii) являются пропорциональными цели, для которой эти сбор и обработка были предусмотрены;

(iii) подлежат контролю со стороны иного независимого уполномоченного органа.

## VI. Меры вмешательства в частную жизнь

1. Меры по борьбе с терроризмом, представляющие собой вмешательство в частную жизнь (в частности, обыски, выемки, прослушивание, в том числе телефонное, досмотр корреспонденции и

внедрение секретных агентов) должны быть предусмотрены законом. Эти меры должны допускать судебный контроль.

2. Меры, предпринимаемые для борьбы с терроризмом, должны быть подготовляемы и контролируемы властями таким образом, чтобы свести к минимуму, насколько это возможно, применение силы на поражение, и в этом контексте применение оружия силами безопасности должно быть строго пропорционально необходимости защиты других лиц от незаконного насилия или необходимости произвести обычный арест.

### VII. Задержание и предварительное заключение

1. Задержание лица, подозреваемого в террористической деятельности, не может применяться в отсутствии обоснованных подозрений. Причины задержания должны быть сообщены задержанному лицу.

2. Лицо, задержанное или содержащееся под стражей за террористическую деятельность, должно быть незамедлительно доставлено к судье. Продолжительность предварительного заключения должна быть разумной и ее пределы должны быть установлены законом.

3. Лицо, задержанное или содержащееся под стражей за террористическую деятельность, должно иметь возможность обжаловать в суде законность своего задержания или содержания под стражей.

### VIII. Регулярный контроль за предварительным заключением

Лицо, подозреваемое в террористической деятельности и помешенное в изолятор временного содержания, имеет право на регулярный контроль со стороны суда за законностью его содержания под стражей.

### IX. Судебные процедуры

1. Лицо, обвиняемое в террористической деятельности, имеет право на справедливое разбирательство своего дела в разумные сроки независимым и беспристрастным судом, учрежденным на основании закона.

2. Лицо, обвиняемое в террористической деятельности, должно пользоваться презумпцией невиновности.

3. Особенности, связанные с борьбой против терроризма, могут, тем не менее, обуславливать отдельные ограничения права на защиту, в частности, в том, что касается:

(i) условий доступа к адвокату и контактов с ним;

(ii) условий ознакомления с делом;

(iii) использования анонимных свидетельских показаний.

4. Такие ограничения права на защиту должны быть строго пропорциональны преследуемой цели и должны быть предприняты компенсационные меры, позволяющие защитить интересы обвиняемого, с тем, чтобы был сохранен справедливый характер судебного разбирательства, и права зашиты не были бы полностью лишены своего содержания.

## X. Применимые наказания

1. Наказания, которые могут быть применены в отношении лица, обвиняемого в террористической деятельности, должны быть предусмотрены законом за действие или бездействие, которые уже представляли собой правонарушение в момент его совершения; никакое более суровое наказание, чем то, которое было применимо на момент совершения правонарушения, не может быть применено.

2. В любом случае, лицо, обвиняемое в террористической деятельности, не может быть приговорено к смертной казни; в случае сохранения возможности вынесения такого приговора, последний не может быть приведен в исполнение.

## XI. Лишение свободы

1. В отношении лиц, лишенных свободы в связи с террористической деятельностью, во всех случаях должно проявляться уважение достоинства, присущего человеческой личности.

2. Задачи борьбы с терроризмом могут потребовать, чтобы в отношении лица, лишённого свободы в связи с террористической деятельностью, были установлены более существенные ограничения, чем те, которые применяются к другим заключенным, в частности, в том, что касается;

(i) регламентации порядка передачи сообщений и досмотра корреспонденции, в том числе между адвокатом и его клиентом;

(ii) помещения лиц, лишенных свободы в связи с террористической деятельностью, в тюремные блоки, отвечающие специальным требованиям безопасности;

(iii) рассредоточения этих лиц в пределах одного пенитенциарного учреждения или по различным учреждениям при условии соблюдения пропорциональности принятой меры преследуемой цели.

## XII. Убежище, выдворение и высылка

1. Каждая просьба о предоставлении убежища должна быть рассмотрена индивидуально. Принятое по ней решение должно допускать действительную возможность обжалования. Однако если у государства имеются серьезные основания полагать, что лицо, желающее воспользоваться правом убежища, принимало участие в террористической деятельности, ему должно быть отказано и предоставлении статуса беженца.

2. Государство, к которому обращена просьба о предоставлении убежища, обязано убедиться в том, что в случае возможного выдворения лица, ищущего убежища, в страну своего происхождения или в другую страну, ему не будут грозить смертная казнь, пытки или бесчеловечное или унижающее достоинство обращение или наказание. То же применяется в отношении высылки.

3. Коллективная высылка иностранцев запрещена.

4. В любом случае исполнение решения о высылке или выдворении лица должно осуществляться в условиях, не допускающих нанесения ему физического вреда и обеспечивающих уважение его достоинства, а также исключающих любое бесчеловечное или унижающее достоинство обращение.

## XIII. Выдача

1. Выдача является процедурой, необходимой для осуществления эффективного международного сотрудничества по борьбе с терроризмом.

2. Выдача лица в страну, где оно может быть подвергнуто риску осуждения к смертной казни, не должна применяться. Тем не менее государство, к которому обращена просьба о выдаче, может согласиться на ее применение, если получит достаточные гарантии относительно того, что;

(i) лицо, подлежащее выдаче, не будет приговорено к смертной казни;

(ii) в случае вероятности вынесения такого приговора последний не будет приведен в исполнение;

3. Выдача не должна применяться, если существуют серьезные основания полагать, что:

(i) лицо, подлежащее выдаче, будет подвергнуто пыткам или бесчеловечному или унижающему достоинство обращению или наказанию;

(ii) просьба о выдаче была подана в целях осуществления преследования или наказания лица по соображениям рассы, религии, национальности или политических взглядов, либо положение этого лица может быть ухудшено по какой-либо из этих причин.

4. Если лицо, подлежащее выдаче, убедительно утверждает, что ему грубейшим образом было отказано или оно может столкнуться с грубейшим отказом в праве на справедливое судебное разбирательство в государстве, требующем его выдачи, государство, к которому обращена такая просьба, должно рассмотреть обоснованность такого утверждения, прежде чем принять решение о выдаче.

## XIV. Право собственности

Пользование имуществом, принадлежащим лицам или организациям, подозреваемым в террористической деятельности, может быть приостановлено либо ограничено, в частности, путем

принятия компетентными властями таких мер, как замораживание или конфискация. Такое решение должно допускать возможность судебного обжалования собственником или собственниками соответствующего имущества.

## XV. Возможные отступления от обязательств

1. Если борьба с терроризмом ведется в условиях войны или общественной опасности, угрожающей жизни нации, государство можете одностороннем порядке принять меры, предусматривающие временные отступления от некоторых обязательств, вытекающих из международных инструментов по защите прав человека, в той лишь степени, в какой это обусловлено ситуацией, а также в пределах и при соблюдении условий, установленных международным правом. Государство должно уведомить о принятии этих мер компетентные органы в соответствии с имеющимися международными обязательствами.

2. Однако государства не могут ни при каких обстоятельствах и независимо от того, в чем состояли действия лица, подозреваемого в террористической деятельности или осужденного за такую деятельность, отступать от права на жизнь в том виде, как оно гарантировано международными инструментами, от запрещения пыток или бесчеловечного или унижающего достоинство обращения или наказания, от принципа законности применяемых наказаний и мер, а также от принципа запрета придания обратной силы уголовным законам.

3. Обстоятельства, обусловившие принятие такого рода отступлений, должны регулярно пересматриваться с целью отмены этих отступлений, как только данные обстоятельства перестают существовать.

## XVI. Уважение императивных норм международного права и норм международного гуманитарного права

При ведении борьбы с терроризмом государства не могут ни при каких обстоятельствах отступать от императивных норм международного права, а также от норм международного гуманитарного права, когда последнее применимо.

## XVII. Возмещение ущерба жертвам террористических актов

Если возмещение ущерба не может быть полностью обеспечено за счет других источников, в частности, путем конфискации имущества, принадлежащего исполнителям, организаторам и спонсорам террористических актов, государство должно, в отношении таких актов, совершенных на его территории, содействовать возмещению ущерба жертвам за нанесенные увечья и причиненный вред здоровью.



***ELMAR MƏMMƏDOV***
***Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin***
***İqtisadi Əməkdaşlıq və İnkişaf İdarəsinin attaşesi***
***Azərbaycan Respublikasının Prezidenti yanında***
***Dövlət İdarəçilik Akademiyasının dissertantı.***

## *AZƏRBAYCANIN ÜMUMDÜNYA TİCARƏT TƏŞKİLATINA ÜZV OLMASI: PROBLEMLƏR VƏ PERSPEKTİVLƏR*

Beynəlxalq təşkilatlar sırasında gənc olmasına baxmayaraq, Ümumdünya Ticarət Təşkilatı (ÜTT) qısa müddət ərzində dünya miqyasında özünəməxsus yer tutmuş və hazırda BMT, Beynəlxalq Valyuta Fondu və Dünya Bankı kimi nüfuzlu təşkilatlarla yanaşı, müasir beynəlxalq iqtisadi münasibətlərin formalaşmasında aparıcı rol oynayır.

1947-ci ildə yaradılmış Tariflər və Ticarət üzrə Baş Sazişin (GATT) davamçısı olan bu nüfuzlu təşkilat, 1995-ci ildə Uruqvay Raundu çərçivəsində 125 ölkə arasında aparılan danışıqların nəticəsi olaraq, 1994-cü ildə imzalanmış Mərakeş Sazişinə əsasən təsis olunmuşdur.

ÜTT-nin əsas məqsədi beynəlxalq ticarətin liberallaşdırılması və bu sahədə mövcud olan maneələrin aradan qaldırılmasından ibarətdir. Bu təşkilatın ali orqanı Nazirlər Konfransıdır. Konfrans Uruqvay Raundu nəticəsində qəbul edilmiş Sazişlərdən irəli gələn və digər məsələlərin müzakirəsi və müvafiq qərarların qəbulu üçün iki ildə bir dəfədən az olmayaraq çağırılır. Konfranslar arasındakı dövr ərzində ehtiyac olduğu təqdirdə Ali Şura keçirilir (il ərzində 8-10 dəfə).

Hal-hazırda ÜTT 146 ölkəni və ayrıca gömrük ərazisini özündə birləşdirir, 30-a yaxın ölkə bu qlobal təşkilata üzv olma prosesindədir və 10-a yaxın beynəlxalq təşkilat ÜTT-də müşahidəçi statusuna malikdir. Dünyanın ticarət dövriyyəsinin 90%-dən artıq hissəsi ÜTT qaydaları ilə tənzimlənir. Bu təşkilatın üzvlərinin 70%-ni inkişaf etməkdə olan ölkələr təşkil edir.

Dünyanın aparıcı diplomatlarının və iqtisadçılarının proqnozlarına əsasən, yaxın 10-15 ildə dünyanın bütün ölkələrinin ÜTT-yə qəbulu gözlənilir.

Keçmiş Sovet İttifaqı ölkələrindən artıq Latviya, Litva, Estoniya, Qırğızıstan, Moldova, Gürcüstan və Ermənistan ÜTT-nin üzvüdürlər. Türkmənistan istisna olmaqla, digər keçmiş İttifaq ölkələri isə qəbulolma prosesinin ayrı-ayrı mərhələlərindədirlər və yaxın zamanlarda Rusiyanın, Ukraynanın və Qazaxıstanın ÜTT üzvlüyünə qəbulu gözlənilir.

Respublikamız isə hal-hazırda ÜTT üzvlüyünə qəbulolma prosesinin ən mühüm və çətin hissəsi sayılan – ÜTT-nin üzv ölkələri ilə danışıqlar mərhələsini başlamaq ərəfəsindədir. Azərbaycan Respublikasının ÜTT üzvlüyünə qəbulolma prosesi 1997-ci ilin iyun ayından ÜTT-yə üzvolma niyyətinin bildirilməsi ilə başlayıb. Bu tarixdən ölkəmiz sözügedən təşkilatda müşahidəçi statusuna malikdir. 1999-cu ildə Azərbaycan Respublikasının xarici iqtisadi-ticarət fəaliyyətinin bütün aspektlərini əhatə edən “Xarici Ticarət Rejimi haqqında Memorandum” hazırlanmış və ÜTT Katibliyinə təqdim olunmuşdur. Memoranduma aid olan suallar müvafiq dövlət orqanlarına daxil olur və onlardan artıq ABŞ-ın, Avropa İttifaqının, Yaponiyanın, Avstraliyanın və digər ölkələrin suallarına cavablar hazırlanaraq ÜTT-yə təqdim olunmuşdur.

Təşkilatın qaydalarına uyğun olaraq, Azərbaycan Respublikasının ÜTT-yə qəbul olması üzrə Cenevrədə müvafiq İşçi Qrupu yaradılmış və hazırda bu Qrupa BMT-nin Cenevrədəki bölməsi və digər beynəlxalq təşkilatlar yanında Almaniyanın Daimi Nümayəndəsi Səfir Valter Levalter rəhbərlik edir. Qeyd edilən İşçi Qrupunun ilk iclası 2002-ci ilin iyun ayında keçirilmişdir, növbəti görüşün keçirilməsi 2003-cü ildə nəzərdə tutulur.

Qeyd etmək lazımdır ki, ÜTT üzvlüyünə qəbulolma məsələsi bir sıra ölkələrdə, əsasən də keçid iqtisadiyyatlı ölkələrdə birmənalı qarşılanmır və mübahisələrə səbəb olur. ÜTT üzvlüyünə qəbul olmağa qarşı çıxan mütəxəssislərin fikrincə, keçid iqtisadiyyatı dövründə olan ölkələr üçün iqtisadi siyasət qeyri-sabit olduqda, istehsalın dövlət tərəfindən dəstəyi qənaətbəxş olmadığı halda bu təşkilatda üzvlük məqsədəuyğun sayılmır. Digər mütəxəssislər isə, əksinə olaraq bildirirlər ki, müasir şəraitdə ÜTT xaricində milli iqtisadiyyatların davamlı inkişafı qeyri-mümkündür.

Təbii ki, yerli sahibkarlar üçün milli bazarın açılması məqsədəuyğun deyil. Çünki, sahibkar üçün bazara yüksək keyfiyyətli və ucuz qiymətli əcnəbi malların gətirilməsi rəqabəti gücləndirə və onun mənfəətini azalda bilər. Onuda unutmaq lazım deyil ki, istehlakçıların həyat səviyyəsinə müsbət təsir göstərən əsas amillərindən biri də, məhz bazar iqtisadiyyatının vacib prinsiplərindən biri sayılan - azad və ədalətli rəqabətdir.

Son zamanlar bəzi mütəxəssislər bildirirlər ki, xarici investisiyalar əsasən iqtisadiyyatları qapalı və bazarlarına giriş üçün çoxlu maneələr olan ölkələrə yönəldilir və misal kimi Çin qeyd olunur. Lakin Çin bazarı olduqca böyükdür və qərb ölkələrində istehsal olunan məhsulların Çinə idxalı zamanı nəqliyyat xərcləri rəqabət qabiliyyətinə mənfi təsir göstərir. Çinə xarici investisiyaların axınının əsas səbəblərindən biri bazarın və nəqliyyət xərclərinin böyük olmasıdır.

Digər tərəfdən isə, Çin uzun müddətdir ki, ÜTT-yə üzv olmağa çalışırdı və nəhayət 2001-ci ilin sonunda buna nail oldu. Çin mütəxəssislərinin fikrincə, ÜTT-də üzvlük ölkənin Ümumi Daxili Məhsulunun (ÜDM) hər il 2-3 faiz artmasına yardım edəcək və ÜDM-nin hər faiz artması 5 milyon yeni iş yerlərinin açılmasını təmin edəcəkdir.

Çin Hökumətinin proqnozlarına əsasən ÜTT-də üzvlük ölkənin xarici ticarətinin 1998-ci ildə 320 milyard ABŞ dollarından 2005-ci ildə 600 milyard ABŞ dollarına qədər artmasına, xarici investisiyaların həcminin isə 45 milyard dollardan 100 milyard dollara qədər artmasına yardım edəcəkdir.[15]

Qeyd etmək lazımdır ki, son 5 ildə ÜTT-yə qəbul olan ölkələrdə xarici investisiyaların həcminin artması müşahidə olunmuşdur. Misal üçün, ÜTT-yə qəbuldan sonra Bolqarıstanda 1 il ərzində investisiyaların həcmi 5 dəfə artmışdır.

Bu sahədə təhlillər göstərir ki, investorlar əsasən investisiya mühiti daha əlverişli olan və investisiya siyasəti proqnozlaşdırıla bilən ölkələri axtarırlar. ÜTT-yə üzvlük isə xarici investisiyaların cəlb edilməsinə əhəmiyyətli dərəcədə müsbət təsir göstərir, çünki "şəffaflıq" (qanunvericilikdə və investisiya siyasəti ilə bağlı digər məsələlərdə) ÜTT-nin əsas prinsiplərindən biridir.[16] Bununla yanaşı, xarici sahibkar ÜTT-nin digər əsas prinsipi olan "milli rejim"in (xarici və yerli sahibkarlar arasında ayrı-seçkiliyə yol verilməməsi) tətbiq olunduğu ölkələrə ehtiyat etmədən investisiya yönəldir. Doğrudur, "milli rejim"i ÜTT-nin üzvü olmayan ölkələr də tətbiq edə bilər. Lakin bu rejimin mütləq tətbiq olunması ÜTT-nin üzvü olan dövlətlər üçün vacibdir və onun həyata keçirilməsindən yayınmaq cəhdləri, demək olar ki, tamamilə mümkünsüzdür.

Təsadüfi deyil ki, son zamanlar donorlar inkişaf etməkdə və keçid iqtisadiyyatlı öləkələrə yardımlar ayırarkən digər şərtlərlə yanaşı, iqtisadiyyatın liberallaşmasına xüsusi diqqət yetirirlər. Buna əyani sübut bu yaxınlarda ABŞ Prezidenti tərəfindən "Minilliyin Çağırışları Korporasiyası"nın ("Millenium Challenge Corporation") təsis edilməsi təşəbbüsüdür. ABŞ-da yaradılması nəzərdə tutulan bu təşkilatın ilk dövrlərdə illik büdcəsi 5 milyard ABŞ dolları təşkil edəcək və əsas məqsədi iqtisadiyyatları liberal olan (bu, ÜTT üzvlüyü ilə birbaşa əlaqələndirilir) keçid iqtisadiyyatlı ölkələrə yardım göstərməkdən ibarətdir.

Mütəxəssislər arasında digər qızğın müzakirələrə səbəb olan məsələ ÜTT-yə üzv olduqdan sonra qoruyucu tədbirlərin istifadəsinin mümkünlüyüdür. Bununla əlaqədar olaraq qeyd etmək lazımdır ki, ÜTT qaydaları

---

[15] ТРАНСФОРМАЦИЯ. Издание Всемирного Банка/Института Уильяма Дэвидсона. № 2, Апрель 2000г. стр.17

[16] TRADING INTO THE FUTURE. WTO SECRETARIAT. 2-nd edition, April 2001.

proteksionizmi tamamilə qadağan etmir, gömrük tariflərinin artırılmasına imkan verir, kəmiyyət məhdudiyyətlərini və lisenziyalaşdırmanı tamamilə qadağan etmir, müəyyən sahələrin subsidiyalaşdırılmasına icazə verir. Lakin bunların hamısı bəzən konkret göstərilmiş, bəzən isə ümumi qaydalar və hüquqi normalarla müəyyən olunmuş əsaslarda həyata keçirilməlidir. Buna görə də, Azərbaycanın ÜTT-yə qoşulması xarici ticarətin tənzimlənməsində dövlətimizin mövcud olan imkanlarını zəiflətməyəcək, əksinə, milli idxalçıların və ixracatçıların maraqlarının qorunması üçün müasir hüquqi şərait yaradacaq və bir çox ölkələrin iştirak etdiyi çoxtərəfli ticarət təcrübəsinə keçidə imkan verəcəkdir.

Zənnimizcə, ölkəmizdə rəqabət qabiliyyətinə malik olan məhsulların istehsalı təşkil edilmədən Azərbaycanın ÜTT üzvlüyünə qəbul olunmasının faydasından danışmaq hələ tezdir və təşkilata ölkəmiz üçün əlverişli olmayan şərtlərlə qəbul olmaq mənasızdır. Digər tərəfdən isə, ölkəmizin ÜTT üzvlüyünə əlverişli şərtlərlə qəbul olunmasını təmin etmək məqsədilə səmərəli diplomatik danışıqların aparılması zəruridir.

Məlumdur ki, bazar iqtisadiyyatı yolunu seçmiş ölkələr üçün ÜTT-yə üzv olmamaq qarşıya qoyulan məqsədlərə nail olmağı çətinləşdirir. Eyni zamanda qeyd etmək lazımdır ki, ÜTT-yə üzv olmaq, avtomatik olaraq, iqtisadi inkişafın təmin olunması demək deyil. ÜTT-də üzvlük, sadəcə olaraq, bunun üçün əlverişli şərait yaradır. İqtisadi inkişafın təmin olunması isə əhəmiyyətli dərəcədə elmi cəhətdən əsaslandırılmış səmərəli daxili və xarici iqtisadi siyasətin aparılmasından asılıdır.

ÜTT üzvlüyünə qəbul olunarkən ölkələrin üzvlük şərtləri müəyyən olunur və burada respublikamız üçün optimal seçimin edilməsi çox vacibdir: ÜTT-yə üzv olmağa tələsməmək və eyni zamanda da gecikməmək.

Bununla bağlı qeyd etmək lazımdır ki, bir tərəfdən tədricən ÜTT-nin üzv-ölkələrinin sayı artır, o cümlədən ölkəmizə qonşu olan dövlətlər və respublikamızın əsas ticarət tərəfdaşları ÜTT üzvlüyünə qəbul olunurlar. Gələcəkdə isə ÜTT-nin tamhüquqlu üzv ölkələri kimi, bu dövlətlər üzvolma prosesində olan ölkələrlə, o cümlədən Azərbaycanla ikitərəfli və çoxtərəfli əsasda danışıqlar aparmaq hüququna malik olacaq və ÜTT üzvlüyünə qəbul olunarkən respublikamızla uzunmüddətli ticarət əlaqələrinin öz maraqları baxımından qurulmasına çalışacaqlar. Sözügedən təşkilata üzv olmağı əhəmiyyətli dərəcədə mürəkkəbləşdirən amillərdən biri də məhz üzv-ölkələrin danışıqlarda üstün mövqeyə malik olmalarıdır. Belə ki, namizəd-ölkələrin ÜTT-yə qoşulmasının üzv-ölkələrdən asılı olduğunu nəzərə alaraq, onlar bəzən üzvolma prosesində olan ölkələrə həddindən artıq tələblər irəli sürürlər.

Digər tərəfdən isə, ÜTT-nin əsas məqsədi ticarətin liberallaşdırılmasından ibarətdir və hər bir ticarət danışıqları raundu başladıqça ÜTT çərçivəsində yeni Sazişlər qüvvəyə minir, və ümumiyyətlə, ÜTT-nin əhatə dairəsi genişlənir və yeni öhdəliklər meydana çıxır, bu da öz növbəsində üzvolma prosesini daha da çətinləşdirir. Məsələn, hazırda Doha İnkişaf Raundu çərçivəsində aparılan danışıqlarda yeni məsələlərin ÜTT Sazişlərinə daxil olunması nəzərdə tutulur və faktiki olaraq, ÜTT tədricən Ümumdünya Ticarət Təşkilatından “Ümumdünya İqtisadiyyat Təşkilatına” çevrilir.

Onu da qeyd etmək lazımdır ki, namizəd-ölkələrin ÜTT-yə üzvolma prosesində təşkilatın üzv-ölkələri üçün iqtisadi, o cümlədən ticarət maraqlarının əsas aparıcı amil olmasının səslənməsinə baxmayaraq təcrübə göstərir ki, onlar bu prosesdə müəyyən hallarda iqtisadi yox, məhz siyasi amili əsas tuturlar, hətta bəzi üzv-ölkələr siyasi tələblərlə də çıxış edirlər.

Respublikamızın ÜTT üzvlüyünə qəbulolma prosesində mühüm problemlərdən biri də Ermənistanın Azərbaycandan əvvəl bu təşkilata üzv olması ilə bağlıdır. Belə ki, ÜTT-ni təsis edən və 1994-cü ildə imzalanmış Mərakeş Sazişində konsensusun mümkün olmadığı təqdirdə, qərarların 2/3 səs çoxluğu ilə qəbul edildiyinin qeyd olunmasına baxmayaraq, faktiki olaraq, ÜTT-də qərarlar konsensus əsasında qəbul olunur. 1996-cı ildən ÜTT-yə üzvlüyə qəbulla bağlı İran hökumətinin bir neçə dəfə müraciət etməsinə baxmayaraq, konsensusun mümkün olmaması, hətta ÜTT-də müşahidəçi statusu əldə edə bilməməsi səbəbi buna əyani sübutdur. ÜTT təcrübəsində analoji hallar, həmçinin siyasi tələblərin irəli sürülməsi və siyasi halların baş verməsi kifayət qədərdir.

ÜTT-də qərarların konsensus əsasında həyata keçirildiyini, həmçinin digər mühüm məsələləri, o cümlədən 20% torpaqlarımızın Ermənistan Respublikası tərəfindən işğal olunduğunu və Ermənistanla Azərbaycan arasında mövcud münaqişəni nəzərə alaraq, hökumətimiz diplomatik vasitələrlə ÜTT üzvlüyünə qəbul olunmazdan əvvəl Ermənistan hökumətinin bir sıra öhdəliklər götürməsinə nail oldu.

Azərbaycan tərəfinin həyata keçirdiyi uğurlu diplomatiya nəticəsində məcburiyyət qarşısında qalaraq, Ermənistan Respublikası ÜTT təcrübəsində analoqu olmayan aşağıdakı öhdəlikləri götürdü:

***- Ermənistan Respublikası ÜTT-nin tamhüquqlu üzv ölkəsi kimi, Azərbaycan Respublikasının ÜTT üzvlüyünə qəbulolunma prosesinə birbaşa və ya dolayı yollarla heç bir mənfi təsir göstərməyəcək***;

***- ÜTT üzvlüyünün qayda və şərtləri, həmçinin Ermənistan Respublikasının ÜTT Sazişlərindən irəli gələn öhdəlikləri və bu Sazişlərin müddəaları yalnız Ermənistanın BMT tərəfindən tanınmış ərazisinə şamil olunacaqdır.*** Bu öhdəlik Ermənistan Respublikasının işğal etdiyi və BMT tərəfindən tanınmış Azərbaycanın ərazilərinə ÜTT qaydalarının Ermənistan tərəfindən tətbiq edilməsini istisna edir, həmçinin dolayısı ilə Ermənistanın öz ərazilərindən başqa Azərbaycan ərazilərinin bir hissəsinə də beynəlxalq hüquq normalarına və prinsiplərinə zidd olaraq nəzarət etməsinin və işğalçı olmasının Ermənistan hökuməti tərəfindən tanınmasını sübut edir;

***- Ermənistan Respublikası Azərbaycan Respublikasının ÜTT üzvlüyünə qəbul olması ilə bağlı qərarın qəbul edilməsi prosesinə maneə törətməyəcəkdir, Azərbaycanın üzvolma prosesinin uzadılmasına yönələn tədbirlər həyata keçirməyəcəkdir və bu öhdəliklər Ermənistanın Azərbaycanın ÜTT üzvlüyünə qəbulolma prosesinə hər hansı halda cəlb edilməsini tənzimləyəcəkdir;***

***- Ermənistan Respublikası ÜTT xaricində müvafiq qurumlar çərçivəsində sülhün bərqərar olunması üçün aparılan prosesə mənfi təsir etmək üçün ÜTT-dən birbaşa və dolayı yollarla istifadə etməyəcəkdir.*** Başqa sözlə, Ermənistan ÜTT-ni siyasi məqsədləri üçün bir vasitəyə çevirməyəcəkdir.[17]

Bunlar Ermənistan Respublikasının Xarici işlər nazirinin ÜTT-nin Baş Direktoruna ünvanladığı öhdəlik məktubunda öz əksini tapmış və məktubun məzmunu ÜTT-nin WT/ACC/ARM/22 saylı rəsmi sənədi ilə 20 noyabr 2002-ci il tarixində ÜTT-nin üzvü və üzvolma prosesində olan 30-a yaxın ölkə, həmçinin ÜTT-də müşahidəçi statusuna malik olan beynəlxalq təşkilatlar arasında ÜTT Katibliyi tərəfindən yayılmışdır.

Son zamanlar mətbuatda belə bir məlumatlar da öz əksini tapmışdır ki, güya ÜTT üzvlüyünə qəbul olunduqdan sonra Azərbaycan Ermənistanla ticarət əlaqələrini bərpa etmək məcburiyyəti qarşısında qalacaqdır, çünki bu təşkilatın əsas məqsədi üzvlər arasında ticarətin inkişaf etdirilməsindən ibarətdir.

Bununla bağlı qeyd etmək lazımdır ki, ÜTT-ni təsis edən Mərakeş Sazişinin 13-cü maddəsinə əsasən ÜTT-nin üzvləri bir-birlərinə münasibətdə ÜTT Sazişlərini tətbiq etməyə bilərlər. Başqa sözlə, ÜTT-də tərəflərin bir-birlərinin üzvlüklərini tanımaması və ticarət əlaqələrinə girməməsi mümkündür. Lakin bunun üçün buna iddialı olan tərəf, özünün və ya digər tərəfin ÜTT üzvlüyünə qəbulolma Protokolunun təsdiqindən əvvəl ÜTT-nin Nazirlər Konfransına və ya Ali Şurasına bu haqda rəsmi olaraq məlumat verməlidir.

Məsələn, Türkiyə tərəfi Ermənistanın ÜTT üzvlüyünə qəbul olmasından əvvəl ona münasibətdə Mərakeş Sazişinin 13-cü maddəsini istifadə edərək, ÜTT çərçivəsində Türkiyə ilə Ermənistan arasında ÜTT Sazişlərinin tətbiq olunmasına razı olmadığı haqda, rəsmi olaraq, təşkilatın Ali Şurasına bildirdi.[18] Bununla da Ermənistanın ÜTT üzvlüyünə qəbul olmasından sonra Türkiyənin Ermənistanla ticarət əlaqələrinə girmək və sərhədləri açmaq məcburiyyəti qarşısında qalacağına dair Ermənistan rəsmilərinin beynəlxalq tribunalardan söylədiklərinə son qoyuldu.

Beləliklə, respublikamızın torpaqlarının 20%-nin işğal altında olduğunu və bunun nəticəsi olaraq, ölkəmizdə 1 milyondan artıq qaçqının və məcburi köçkünün olmasını, həmçinin Ermənistan tərəfinin qeyri-konstruktiv mövqeyi nəticəsində Azərbaycanla Ermənistanın heç bir sahədə əməkdaşlıq etməməsini nəzərə alaraq, Azərbaycan Respublikası ÜTT üzvlüyünə qəbul olunarkən, Ermənistana münasibətdə Mərakeş Sazişinin 13-cü maddəsini istifadə edə bilər (bu haqda ÜTT-dən rəsmi sənəd alınmışdır) və bu təşkilatın mövcud qaydalarına əsasən, Ermənistanla ÜTT çərçivəsində də heç bir əlaqəyə girməyə bilər.

Eyni zamanda vurğulamaq lazımdır ki, ÜTT Danışıqlar Raundu vasitəsilə hər zaman islahatlar həyata keçirilən bir təşkilatdır və bunun üçün də bu istiqamətdə fəaliyyət əhəmiyyətli dərəcədə gücləndirilməli, ÜTT-də baş verən bütün proseslər yaxından izlənilməli və bu proseslərdə respublikamızın maraqları təmin olunmalıdır.

Ümumiyyətlə, respublikamızın ÜTT-yə üzv olmasının aşağıdakı müsbət cəhətlərini qeyd etmək olar:

---

[17] Official document of the WTO: WT/ACC/ARM/22, 20 November 2002, (02-6466)
[18] Official document of the WTO: WT/L/501, 3 December 2002, (02-6656)

- milli istehsalın inkişaf etdirilməsi üçün əlavə stimulların yaradılması;
- respublikamızda əlverişli investisiya mühitinin mövcud olması və proqnozlaşdırıla bilən investisiya siyasəti haqda məlumatları ÜTT-nin rəsmi sənədlərində nümayiş etdirərək, iqtisadiyyatımıza, əsasən də qeyri-neft sektoruna xarici investisiyaların cəlb edilməsinin stimullaşdırılması;
- istehsal olunan məhsulların keyfiyyətinin artırılması;
- istehlakçıların real gəlirlərinin artırılması;
- Azərbaycan malları və xidmətlərin maneəsiz və hüquq pozuntusu olmadan dünyada yayılmasının təmin olunması;
- beynəlxalq ticarət aləmində ölkəmizin hüquqlarının pozulmasının qarşısının alınması;
- xarici tərəf müqabilləri ilə eyni şərtlərlə ticarət əlaqələrinin qurulması;
- ölkəmizin ixrac potensialının gücləndirilməsi və ümumiyyətlə ixracın strukturunun təkmilləşdirilməsi;
- "Ən Əlverişli Rejim"in geniş miqyasda ölkəmizə münasibətdə tətbiq edilməsi;
- iqtisadi maraqlarımızı qorumaq məqsədilə, ÜTT-də aparılan müxtəlif Danışıqlar Raundu vasitəsilə çoxtərəfli ticarət sisteminin təkmilləşdirilməsində iştirak;
- heç bir beynəlxalq təşkilatda analoqu olmayan ticarət mübahisələrinin həll edilməsi mexanizmində iştirak üçün real imkanların yaranması və nəhayət,
- beynəlxalq aləmdə Azərbaycanın imicinin yüksəldilməsi.

ÜTT-yə üzvolmanın mənfi cəhətlərinə isə əsasən aşağıdakıları aid etmək olar:
- iqtisadiyyatın sərt beynəlxalq rəqabətin qaydalarına adaptasiyası zamanı iqtisadi və sosial itkilərin baş verməsi ehtimalı;
- gömrük tariflərinin endirilməsi və ÜTT Sazişlərindən irəli gələn digər öhdəliklərin yerinə yetirilməsi zamanı baş verə biləcək maddi itkilər və s.[19]

Beləliklə, Azərbaycanın ÜTT-yə üzv olmasını bir məqsəd kimi deyil, bazar iqtisadiyyatına keçid dövründə iqtisadi islahatların davam etdirilməsini daha da stimullaşdıran və bununla da keçid dövrünü tezliklə yekunlaşdıra biləcək bir vasitə kimi qəbul etmək lazımdır. Buna görə də danışıqlar zamanı ölkəmizin iqtisadi maraqlarının qorunması üçün ÜTT çərçivəsində mövcud tələblərin Azərbaycana qarşı ən əlverişli və güzəştli şərtlərlə tədbiq edilməsinə nail olunmalıdır. Bu baxımdan danışıqlar prosesində, həmçinin təşkilata üzv olduqdan sonra iqtisadi diplomatiyaya əsas diqqətin yetirilməsi zəruridir. Məlumdur ki, dünyanın siyasi cəhətdən müstəqil və azad olan dövlətləri iqtisadi cəhətdən bu və ya digər dövlətlərdən asılı olmamaq, buna görə də həmin dövlətlərə bir çox məsələlərdə güzəşt etmək məcbüriyyəti qarşısında qalmamaq üçün güclü xarici iqtisadi siyasət həyata keçirməyə çalışırlar. Dünya təcrübəsi həm də göstərir ki, hər bir ölkənin iqtisadi

[19] CONTACT. № 1(12)/2002. səh.51.

inkişafında ümumilikdə xarici siyasətin tərkib hissəsi olan xarici iqtisadi siyasət məsələləri, onun mühüm vasitəsi – iqtisadi diplomatiya hər zaman aparıcı yer tutmuşdur.

Yuxarıda deyilənlərə əsaslanaraq belə bir qənaətə gəlmək olar ki, Azərbaycan Respublikasının gələcəkdə ÜTT üzvlüyündə faydasına maksimal dərəcədə nail olmaq məqsədilə, bir tərəfdən, milli istehsalın inkişaf etdirilməsi və dünya bazarında rəqabət qabiliyyətli milli məhsulların istehsalının stimullaşdırılması, digər tərəfdən isə, bu sahədə elmi tədqiqatların aparılmasını təşviq edərək, "Azərbaycan Respublikasının ÜTT-yə üzv olması Strategiyası"nın hazırlanması və bu Strategiya əsasında ÜTT-nin üzv-ölkələri ilə aparılacaq diplomatik danışıqlarda mümkün mənfi təsirlərin minimuma endirilməsi və ölkə üçün maksimal dərəcədə güzəştlərin əldə olunması zəruridir.

Zənnimizcə, danışıqlar zamanı ÜTT-nin üzv ölkələri tərəfindən əsas diqqət ancaq ənənəvi ticarətin liberallaşdırılması məsələsinə deyil, həmçinin keçid iqtisadiyyatının spesifik problemlərinin həllinə yönəldilməlidir. ÜTT-nin üzv-dövlətlərinin üzvolma prosesində Azərbaycana qarşı tələbləri real yerli sektorun inkişafına maneçilik törətməməlidir. Əksinə, danışıqlar zamanı formalaşmaqda olan daxili bazarın inkişafı üçün əlverişli şəraitin yaradılması əsas istiqamətlərdən biri olmalıdır.

Əfsuslar olsun ki, ÜTT-də hələ də keçid iqtisadiyyatlı ölkələr üçün konkret olaraq güzəştlər müəyyən olunmamışdır. İnkişaf etməkdə olan ölkələr (məsələn, Sinqapur, Cənubi Koreya və s.) üçün isə kifayət qədər güzəştlər mövcuddur. Fikrimizcə, keçid iqtisadiyyatlı ölkələrə daha çox güzəştlər verilməlidir. Çünki keçid iqtisadiyyatlı ölkələrdən fərqli olaraq, bir çox inkişaf etməkdə olan ölkələrdə bazar iqtisadiyyatının əsasları artıq formalaşmışdır.

Azərbaycan Respublikasının ÜTT üzvlüyünə qəbul olunması danışıqlarda hər iki tərəfdən güzəştlər edilərək əldə olunacaq bir kompromisdir. Burada hökumətimizin qarşısında çətin və çox vacib bir məsələ – milli iqtisadi təhlükəsizliyi təmin edən prioritetləri, həmçinin konkret olaraq mümkün güzəştləri və şərtləri müəyyən etmək durur.

Qeyd edildiyi kimi, gələcəkdə respublikamızın ÜTT-də üzvlüyünün faydasını təmin etmək məqsədilə ölkə daxilində də müəyyən işlər görülməli və milli istehsalın inkişafının stimullaşdırılması və ixrac potensialının gücləndirilməsi başlıca məqsədlərdən biri olmalıdır.

Zənnimizcə, Azərbaycan Respublikasının ÜTT üzvlüyünə qəbul olması prosesində "Milli İstehsalın Stimullaşdırılması Proqramı"nın işlənib-hazırlanması və qəbul edilməsi çox vacibdir. Proqramın qəbul edilməsi ilə yanaşı, onun keçid iqtisadiyyatı şəraitində maksimal dərəcədə səmərəliliyini təmin edən icra mexanizminin işlənib-hazırlanması da zəruridir. Proqram milli istehsalın stimullaşdırılması ilə yanaşı, ölkəmizin qeyri-neft sektorunun ixrac potensialının gücləndirilməsinə yönəlməli və Proqramda yaxın gələcək üçün iqtisadiyyatın prioritet sahələri öz əksini tapmalıdır.

Həyata keçirilməsi vacib olan digər məsələ isə, artıq qeyd edildiyi kimi, ÜTT-yə üzvolma prosesi zamanı yuxarıda sadalanan mənfi cəhətlərin minimuma endirilməsi üçün ÜTT üzvlüyünə qəbul olmaq üçün yaradılmış Danışıqlar Qrupu tərəfindən ölkəmizin mənafelərinin səmərəli şəkildə qorunması və maksimal güzəştlərin əldə edilməsidir. ÜTT-yə qəbul olunmuş bir çox dövlətlərin də təcrübəsi göstərir ki, hər bir ölkənin gələcəkdə təşkilat üzvlüyündə faydası əhəmiyyətli dərəcədə danışıqlar prosesinin nəticəsindən asılıdır və əksər hallarda danışıqlar peşəkar iqtisadçı-diplomatlar tərəfindən aparılır.

Bu baxımdan Danışıqlar Qrupunun fəaliyyətinin müstəsna əhəmiyyət kəsb etdiyini nəzərə alaraq, ölkəmizin siyasi və iqtisadi maraqlarının səmərəli şəkildə qorunmasının təmin edilməsi və danışıqlara daha əsaslı şəkildə hazırlığı təmin etmək məqsədilə ayrı-ayrı sahələr üzrə yüksək səviyyəli mütəxəssisləri və professional iqtisadçı-diplomatları cəlb etməklə, Danışıqlar Qrupunun tam formalaşdırılması, həmçinin Azərbaycan Respublikasının ÜTT-yə üzvolma Strategiyasının işlənib-hazırlanması və danışıqlarda bu Strategiya əsasında ölkə mənafelərinin əsaslandırılmış şəkildə diplomatik üsullarla qorunması mühüm məsələlərdən biridir.

Yuxarıda sadalanan tədbirlərin nəticəsi isə, Azərbaycanın dünya ticarət sistemində, həmçinin beynəlxalq əmək bölgüsündə öz layiqli yerini tutması, digər dövlətlərlə iqtisadi əlaqələrin daha da inkişaf etdirilməsi, iqtisadi inkişafın stimullaşdırılması və nəhayət, iqtisadiyyatın transformasiyasının təmin edilməsi olacaqdır.



***АЙПАРА РУСТАМОВА***

***Заведующая Отделом обслуживания читателей***

***Центральной Научной Библиотеки***

***Национальной Академии Наук Азербайджана,***

***диссертант Института истории***

***им. А.Бакиханова***

## ***БИБЛИОЦИД ПРОТИВ АЗЕРБАЙДЖАНА КАК СОСТАВНАЯ ЧАСТЬ ВСЕОБЪЕМЛЮЩЕЙ АРМЯНСКОЙ АГРЕССИИ***

Обеспечение сохранности культурного наследия – долг каждого человека. Ведь культурное наследие любого народа, являясь богатством, созданным им на протяжении многовековой истории, в то же время есть составная часть всемирного наследия, обогащение которого как раз и происходит за счёт вклада, вносимого в него различными национальными культурами.

Агрессия Республики Армения против Азербайджанской Республики наряду с оккупацией около 20% самых благодатных и плодородных земель привела к нанесению неоценимого ущерба богатейшей культуре Азербайджана, тем самым одновременно став и преступлением против мирового культурного наследия. Совершающие его армянские оккупационные формирования на захваченных ими территориях, проводят политику по планомерному уничтожению, вывозу в Армению и другие зарубежные страны памятников культуры, отражающих нашу историю.

В результате осуществления этой политики величайший урон понесла библиотечная система, являющаяся важным звеном в деле передачи культурного наследия грядущим поколениям. Так, на оккупированных территориях уничтожено 927 библиотек с 4,6 миллионным фондом книг и рукописей[20]

Следует особо подчеркнуть, что причинение армянами ущерба библиотекам Азербайджана началось ещё с 20-30-х годов прошлого столетия. Так, переход с арабской графики на латинскую стал большим ударом для библиотек Нагорного Карабаха. Все печатные издания на арабском алфавите как «панисламистская» литература были изъяты из фондов и сожжены. Однако, не довольствуясь этим, армяне «хоронили» книги, закапывая их в землю. За эти годы из библиотек Нагорного Карабаха, из личных библиотек, из библиотеки мечети города Шуши было изъято и уничтожено свыше 30 тысяч экземпляров, написанных с использованием арабской графики книг, относящихся к различным областям науки и культуры[21].

Та же участь постигла библиотеки и в 1940-е годы, когда в Азербайджане латинская графика была заменена кириллицей. Армяне обрели широкую возможность массовой выемки из библиотек Нагорного Карабаха книг, написанных на азербайджанском языке.

Кроме того, из библиотек Республики были изъяты произведения известных писателей, деятелей науки и культуры, оказавшихся жертвами сталинских, микояновских и багировских репрессий 1930-х годов, на которых навесили ярлыки «националист», «пантюркист» и «панисламист». Всё это являлось составными частями долгосрочной спланированной идеологической кампании, направленной против Азербайджана. Армянские националисты не отступили от своей линии и в последующие годы.

Устраиваясь на работу в библиотеки, музеи и архивы Республики, армяне пытались изъять и присвоить себе или вообще вывезти литературу и архивные документы по истории, этнографии и культуре Азербайджана. Это особенно касается рукописей, печатных изданий и других документов, доказывающих, что Нагорный Карабах есть историческая и неотъемлемая часть Азербайджана.

---

[20] Алекперова Н. «Культура и политика», Баку, «Азернешр», 2000, с.53

[21] Наджафов А. «Из истории библиотечного дела Нагорно-Карабахской Автономной области Азербайджанской Республики (1923-1990гг.)», Баку, «Сада», 2000, 232с. с.207

Объектом противоправной деятельности армянских националистов стала и Центральная Научная Библиотека Национальной Академии Наук Азербайджана (ЦНБ НАНА). Например, во время событий 1988 года в НКАО и вокруг неё руководитель отделом международного книгообмена ЦНБ НАНА, ярая шовинистка Лида Агаджанова в целях агитации рассылала армянской диаспоре во Францию, США, Великобританию, Канаду и другие страны экземпляры газет «Коммунист» (на армянском языке), «Советакан Карабах», а также листовки националистической организации «Миацум». Очень жаль, что тогдашнее руководство, оценив это всего лишь как «безалаберность» ограничилось выговором, не предав этому делу должного внимания. Другая работница, армянка по национальности, Валя Саркисян, являясь руководителем сектора межбиблиотечного книгообмена, занималась распространением этих же материалов по библиотекам и организациям Советского Союза. Ущерб же, нанесённый библиотечному фонду, работавшей в отделе книгохранения ЦНБ Розой Багдасаровой, до сих пор обнаруживает свои деструктивные последствия.

В 1989-90-х годах, продавая свои дома, армяне, покидающие Азербайджан, увозили с собой тысячи ценных библиотечных книг. Так, только в 1989 году читатели ЦНБ армянской национальности вывезли из фондов библиотеки сотни единиц хранения. Научная ценность этих книг была гораздо дороже, чем их номинальная стоимость по тем временам. Например, сотрудница центра «Каспий» Раиса Андреевна Григорян вынесла из библиотеки 8 книг. Другая читательница, сотрудница Института истории Нана Юрьевна Симонян взяла из библиотеки и не вернула книгу «Азербайджан в XIX веке». Лаборантка того же института Алла Антоновна Арзуманян вывезла из Республики книгу «Экономическое строительство в Азербайджане». Сотрудница Института философии и права Вероника Эдуардовна Согомонова присвоила почти все учебники по педагогике и государству и праву.

Сотрудники БГУ Зоя Гургеновна Ализаян не вернула в библиотеку книгу «Азербайджанская нефть», Анжела Григорьевна Антонян – «Колчеданские месторождения Большого Кавказа».

Сотрудник же Института языкознания Ворошил Левонович Гукасян вынес из фондов библиотеки множество книг об истории народов Закавказья, о хазарах, о зороастризме, тем самым нанеся большой урон фонду ЦНБ НАНА.

Нельзя умолчать ещё об одном вопиющем факте. Когда-то наряду с другими крупными книгохранилищами Республики и в депозитарии нашей библиотеки имелся полный комплект 46-томного «Сборника материалов для описания местностей и племен Кавказа» (издавался в Тифлисе в 1881-1929гг.). Однако, целые тома и отдельные страницы из некоторых томов этого издания, касающиеся истории и культуры нашего народа, содержащие статистические данные о населении Азербайджана и т.д., были преднамеренно изъяты из фондов научных библиотек. Так, например,

полностью утрачены тома I, V, VIII и XLI. Из XI тома, выпущенного в 1891г., были вырезаны страницы 161-181 – статья «Бакинская губерния» (Сборник материалов для описания местностей и племен Кавказа. Тифлис, Изд.Упр.Кавказского учебного округа, 1891); из XXXII тома, выпущенного в 1903г. – страницы 16-63, «Сведения арабских писателей о Кавказе, Армении, Азербайджане»[22] (Сборник материалов для описания местностей и племен Кавказа. Тифлис, Изд.Упр.Кавказского учебного округа, 1903); из XXXIV тома, выпущенного в 1904г. – страницы 182-217, «Зангезурский уезд Елизаветпольской губернии»* (Сборник материалов для описания местностей и племен Кавказа. Тифлис, Изд.Упр.Кавказского учебного округа, 1904) и др. В результате чего ни в одной из библиотек Республики в настоящее время не сохранилось ни одного полного комплекта являющегося ценным источником по прошлому Азербайджана «Сборника материалов для описания местностей и племен Кавказа».

Хотелось бы подчеркнуть ещё один факт. В конце 1989 года из каталогов ЦНБ НАНА армянскими читателями был целиком изъят раздел «История Азербайджана» на русском языке. В пропавших ящиках каталога содержались карточки на поступившие в библиотечный фонд за долгие годы до 1000 единиц хранения. Для восстановления каталога потребовались месяцы напряжённой скурпулёзной работы сотрудников ЦНБ.

Как видно из вышеприведённых фактов, армянские националисты использовали библиотеки Азербайджана как важные объекты спланированной фундаментальной идеолого-информационной кампании, культурной агрессии против нашего народа.

[22] Информация взята из документов Отдела обслуживания читателей ЦНБ НАНА

# XARİCİ NƏŞRLƏR

## The Caucasus and new geo-political realities
## How the West can support the region

by Dr. Zbigniew Brzezinski

Azerbaijan International (5.2), Summer 1997.
http://www.azer.com/aiweb/categories/magazine/52_folder/52_articles/52_caucasus.html

*Background*

I've always believed that the Soviet Union was an artificial, anti-historic entity. Ever since my student days some 40 years ago, I've believed that the Soviet Union was defying the reality of national aspirations that were embraced by half of its people who were not true rulers in their own countries and that, eventually, the Soviet Union would collapse.

Twenty years ago when I was in government at a time when the Cold War was still quite "hot," I provided the initiative to advance the process of what might be called "peaceful change" within the Soviet Union. This was done by assisting national movements within the various so-called Soviet republics in developing greater possibilities to express their national aspirations. This enabled internal pressures to build up and surface. And, indeed, when the Soviet Union started to undertake serious reforms, it became evident that reform would be impossible because national aspirations pointed not in the direction of the reform of the Soviet Union, but in the direction of dismantling it.

*The Caucasus - a new reality*

In the case of the Caucasus today, there is an altogether new reality. We're dealing with historic nations which are now independent. These countries have deep roots and a deep sense of their identity. And yet, paradoxically, they are just now engaged in the process of modern nation-building. The creation of the Soviet Union delayed that process for them.

Modern nation-building is a difficult process. Because it is so complex, the process is easily vulnerable to nationalistic emotions and, indeed, ethnic antipathies. As such, it can also be a very destructive process-one which can precipitate and lead to conflicts, violence and ultimately, self-destruction. Our task as Westerners in regard to the Caucasus must be to ascertain that the forces of national identity are channeled into

constructive directions that, over time, contribute to regional cooperation which will strengthen the identity, continuity and survival of these nations. We can contribute to this process to some extent, but of course, the process must also be pursued by these nations, themselves.

In the case of the Caucasus, however, these republics still remain extremely vulnerable to external pressures in spite of their independence. Their future highly depends upon interaction among external players-major nations-which have special interests in the Caucasus. Specifically, I'm referring to Russia, Turkey, Iran, Europe and last but not least, the United States. How these countries interact in relationship to this region will be of enormous importance to the survival of these nations as independent states and to the well-being of the entire region.

*The worst possible scenario*

Given these new geo-political realities, the worst possible scenario that could evolve would be a confluence of external pressures that are inimical to the survival of the independence of these nations. For example, if Russia and Iran were to jointly pressure Azerbaijan, then Azerbaijan's independence would be severely threatened. Without a doubt, Azerbaijan is vulnerable to such pressures.

Or, if Russia continues to exploit the Nagorno-Karabakh conflict, not only will the viability of Azerbaijan be affected, but the extent of the true independence of Armenia will be limited. Thus, eventually, Armenia will also become more vulnerable. If the issue of Abkhazia is not resolved in a constructive fashion, Georgia, too, will remain vulnerable to external pressures which can adversely affect its own true independence over time and inability to chart a course in keeping with its own national aspirations.

And, of course, if Turkey were to drift into an extremist Islamic direction, the West would find it much more difficult to relate to the region in a constructive and positive way.

*The best possible scenario*

Sketching out the "worst possible scenario" suggests by implication that there is a "best possible scenario." This would involve a constructive, compromise-based solution of the Nagorno-Karabakh issue through external, but active, mediation. It would also involve multiple accesses to the region through a variety of pipelines traversing various countries which would link them together in economic cooperation. Furthermore, it would involve some accommodation among the principal neighboring states-particularly between Turkey and Iran to open up their frontiers to genuine economic intercourse.

And last but not least, the best scenario would involve greater inclusion of Iran in their international economic community, particularly through cooperative links with Turkey. Such links would not bar Iran by outside pressures. In such a case, Russia would then become a constructive partner, and no longer the greatest influence or authority in the region.

*How the west should respond*

And thus, the question arises: "Which of these scenarios is more likely, and how can the better choice be effectively pursued?" In predicting the future, I think it is obvious that both Russia and the United States are likely to be the key players in determining which of these alternatives – the good or the bad – the most likely reality is.

For the time being, Russian policy seems ambivalent at best. Their emphasis on the reconstruction of the CIS (Commonwealth of Independent States) has certain implications suggestive of past ambitions, as the CIS is still in a very nebulous, undefined phase of development. It's unclear how it will emerge in the long run. But if it is used as an instrument of political integration, it will become a mechanism that will threaten the independence of the states of the Caucasus. If, however, it becomes a mechanism for open trade and economic intercourse, it can, instead, facilitate a Russian role of partnership in the region.

A great deal depends on the future evolution of Russia and, together with it, the evolution of the CIS, itself. But even more important is the degree of American involvement and the extent to which the United States becomes actively engaged in promoting stability and security in this region. In my view, to make the positive scenario become a reality, a number of steps are necessary.

*1. Resolve Karabakh*

The Nagorno-Karabakh issue will need and does need active mediation. It requires mediation by disinterested parties, by parties that are not engaged in any self-serving effort to reestablish regional hegemony. Specifically, it means the United States must become more involved. Active mediation does not mean taking sides, but rather promoting a solution that is acceptable to both sides in the conflict.

*2. No discrimination*

Resolution of the conflict requires an absence of discrimination against any single party to the conflict. At present, the United States treats one party [Armenia] more favorably than the other [Azerbaijan]. Such partiality inhibits effective mediation. Equal treatment is a prerequisite to facilitating the process of mediation.

*3. Multiple pipelines*

The United States should actively support the construction of multiple pipelines through the region. Such economic interrelationships would create a greater degree of shared interest in peaceful accommodation. The United States is already encouraging multiple pipelines to some extent, but opportunities exist for expanding these efforts and increasing the number of links.

*4. Economic links like EFTA*

